IFAB®

THE
INTERNATIONAL
FOOTBALL
ASSOCIATION
BOARD

TheFA FA WALES FIFA® SCOTTISH FA IRISH FOOTBALL ASSOCIATION

THEIFAB.COM
SINCE 1886

# Oyun Qaydaları

# 2019/20

**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının rəsmi tərcüməsi**

**Download** Laws of the Game **App**

IFAB®
THE INTERNATIONAL FOOTBALL ASSOCIATION BOARD





THE INTERNATIONAL FOOTBALL ASSOCIATION BOARD

THEIFAB.COM
SINCE 1886

**Redaktə edən:**

**Əliyar Ağayev (FİFA hakimi)**

**İngilis dilindən tərcümə edən:**

**Kamran Qədirov**


Beynəlxalq Futbol Assosiasiyaları Şurası
İsveçrə, Sürix, Münstergasse 8001
T: +41 (0)44 245 1886, F: +41 (0)44 245 1887
www.theifab.com



Bu nəşr Beynəlxalq Futbol Assosiasiyaları Şurasının icazəsi olmadan hər hansı şəkildə çap edilə, yaxud tamamilə və ya hissə-hissə tərcümə edilə bilməz.



1 iyun 2019-cu il tarixindən etibarən qüvvəyə minir

# Oyun Qaydaları

2019/20

# Mündəricat


**9 Giriş**

11 Qaydaların fəlsəfəsi və ruhu

12 Qaydalara dəyişikliklərin idarə edilməsi

14 Oyun Qaydalarının 2019/20-ci il dəyişikliklərinin məqsədi

18 Gələcək

**20 Oyun Qaydalarına dair Qeydlər**

**23 Oyun Qaydaları 2019/20**

24 Qaydalara Modifikasiyalar

34 01 Oyun Meydanı

44 02 Top

48 03 Oyunçular

56 04 Oyunçuların Geyimi

64 05 Baş Hakim

74 06 Matçın Digər Hakimləri

82 07 Matçın Davamiyyəti

86 08 Oyunun Başlanması və Bərpası

90 09 Topun Oyunda Olması və Olmaması

92 10 Matçın Nəticəsinin Müəyyən Edilməsi

98 11 "Oyundankənar" vəziyyət

102 12 Qayda Pozuntuları və İntizamsız Davranış

116 13 Cərimə və Sərbəst Zərbələr

120 14 11 metrlik Zərbə

126 15 Topun Yan Xətdən Oyuna Daxil Edilməsi

130 16 Qapıdan Zərbə

134 17 Küncdən Zərbə

**138 Video Köməkçi Hakimin ("VAR") iş prosesi**

**148 Qaydalara dəyişikliklər 2019/20**

149 Qaydalara dəyişikliklərin qısa xülasəsi

152 Mətnin redaktəsi

154 Qaydalara dəyişikliklərin təfərrüatları

**178 İzahlı Lüğət**

179 Futbol təşkilatları

180 Futbol terminləri

190 Hakimlik terminləri

**192 Hakimlər üçün Praktiki Təlimatlar**

193 Giriş

194 Mövqe seçimi, Hərəkət və Briqada İşi

208 Bədən dili, Rabitə və Fitdən istifadə

214 Digər məsləhətlər

- Üstünlük
- Artırılmış vaxt
- Rəqibi tutmaq
- "Oyundankənar" vəziyyət
- Xəbərdarlıqdan/qovulmadan sonra tibbi müdaxilə/zədənin qiymətləndirilməsi

IFAB®

# Giriş



MY GAME IS FAIR PLAY
FIFA
MY GAME IS FAIR PLAY

# Qaydaların fəlsəfəsi və ruhu

Futbol dünyanın ən kütləvi idman növüdür. O, hər bir ölkədə və müxtəlif səviyyələrdə oynanılır. Oyun Qaydaları bütün dünyada, FİFA Dünya Çempionatının final mərhələsindən başlayaraq ucqar kənddə azyaşlı uşaqlar arasında oynanılan oyuna qədər eynidir.

Bütün dünya üzrə hər bir konfederasiyada, ölkədə, şəhərdə və kənddə eyni Qaydaların tətbiq edilməsi qorunub saxlanılmalı olan əhəmiyyətli gücdür. Bu, həmçinin hər yerdə futbolun gözəlliyinin qorunması üçün bir imkandır.

Futbol, oyunun "ədalətli" olmasını qoruyub saxlayan Qaydalara malik olmalıdır, belə ki, "sevimli oyun"un gözəlliyinin ən mühüm təməli onun ədalətliliyidir - bu, oyunun "ruhu"nun vacib xüsusiyyətidir. Ən yaxşı matçlar o matçlardır ki, orada hakimin müdaxiləsinə nadir hallarda ehtiyac yaranır və oyunçular bir-birilərinə, matçın hakimlərinə və Qaydalara ehtiram nümayiş etdirərək oynayırlar.

Qaydaların bütövlüyü və onları tətbiq edən hakimlər hər zaman qorunmalı və onlara hörmət edilməlidir. Səlahiyyət sahibi olan bütün şəxslər, xüsusi ilə məşqçilər və kapitanlar matçın hakimlərinə və onların qərarlarına hörmətlə yanaşmaq baxımından dəqiq məsuliyyət daşıyırlar.

# Qaydalara dəyişikliklərin idarə edilməsi

İlk "ümumdünya" futbol Qaydaları 1863-cü və 1886-cı illərdə tərtib edilmişdir. Beynəlxalq Futbol Assosiasiyaları Şurası (BFAŞ) Britaniyanın dörd futbol assosiasiyası (İngiltərə FA, Şotlandiya FA, Uels FA və Şimali İrlandiya FA) tərəfindən, Oyun Qaydalarının tərtib edilməsi və qorunub-saxlanması üzrə müstəsna səlahiyyətə malik ümumdünya təşkilatı kimi təsis edilmişdir. FİFA 1913-cü ildə BFAŞ-a qoşulmuşdur.

Qaydalara dəyişiklik edilməsi üçün BFAŞ əmin olmalıdır ki, həmin dəyişiklik oyuna fayda verəcək. Bu, o deməkdir ki, potensial dəyişiklik sınaqdan keçiriləcək. Məsələn, komandanın rəsmi şəxsləri üçün sarı və qırmızı vərəqələr, həmçinin qapıdan zərbənin yeni üsulu və yeni əvəzetmə proseduru. Təklif edilən hər bir dəyişiklik üçün ədalətlilik, bütövlük, ehtiram, təhlükəsizlik, iştirakçıların əyləncəsi və texnologiyanın oyuna necə fayda verə biləcəyi nəzərə alınmalıdır. Qaydalar, həmçinin peşəsindən və ya bacarığından asılı olmayaraq, hər kəsin iştirakını stimullaşdırmalıdır.

Xoşagəlməz hadisələrin baş verməsinə baxmayaraq, Qaydalar oyunu mümkün olduğu qədər təhlükəsiz etməlidir. Bu, oyunçuların öz rəqiblərinə hörmətlə yanaşmasını tələb edir və hakimlər oyun tərzləri həddən artıq aqressiv və təhlükəli olan oyunçulara qarşı ciddi tədbirlər görməklə təhlükəsiz mühit yaratmalıdırlar. Qaydalar, "düşüncəsiz mübarizə" (xəbərdarlıq = sarı vərəqə) və "rəqibi təhlükəyə məruz qoymaq" və ya "həddən artıq gücdən istifadə etmək" (qovulma=qırmızı vərəqə) kimi intizam xarakterli ifadələrində təhlükəsiz oyunu qəbul etmədiyini əks etdirir.

Futbol oyunçular, matçın hakimləri, məşqçilər, həmçinin tamaşaçılar, azarkeşlər, inzibatçılar və s. şəxslər üçün cəlbedici və əyləncəli olmalıdır. Qaydalar oyunu cəlbedici və əyləncəli etməyə xidmət etməlidirlər ki, yaşından, irqi, dini, mədəni, etnik, cinsi məsubiyyətindən, fiziki imkanlarından və s. asılı olmayaraq, insanlar oyunda iştirak etmək istəsinlər və öz iştiraklarından həzz alsınlar.

Futbol Oyun Qaydaları digər idman növlərinə nisbətən daha sadədir, lakin bir çox vəziyyətlər "subyektiv" xarakter daşıyır və hakimlər də insandır (yəni səhv edə bilərlər) və bəzi qərarların mübahisə və müzakirəyə səbəb olması qaçılmazdır.
Bəzi insanlar üçün bu müzakirələr oyunun əyləncəsinin və cəlbediciliyinin bir hissəsidir, lakin qərarların düzgün və ya yanlış olmasından asılı olmayaraq, oyunun "ruh"u hakimlərin qərarlarına hər zaman hörmətlə yanaşılmasını tələb edir.

Qaydalar mümkün olan hər bir vəziyyəti nəzərdə tuta bilməz və Qaydalarda belə konkret vəziyyətə dair dəqiq müddəa yoxdursa, BFAŞ hakimlərin "oyunun ruhu" çərçivəsində qərar verməsini gözləyir - bu çox vaxt "futbol nəyi istəyir/gözləyir?" sualına cavab verməyi nəzərdə tutur.

BFAŞ dünya futbol ictimaiyyətini dəyişiklik prosesinə cəlb etməyə davam edəcək ki, Qaydalara edilən dəyişikliklər bütün səviyyələrdə və dünyanın hər bir yerində futbola fayda versin və beləliklə, oyunun bütövlüyünə, Qaydalara və hakimlərə hörmətlə yanaşılsın, onlara dəyər verilsin və onlar mühafizə edilsin.

# Oyun Qaydalarının 2019/20-ci il redaktəsinin məqsədi

Oyun Qaydalarının 2016/17-ci il redaktəsi, çox güman ki, BFAŞ-ın tarixində ən geniş və təfərrüatlı redaktə olmuşdur. Məqsəd Qaydaları daha aydın, daha sadə etmək və onların bütün səviyyələrdə müasir oyunun tələblərini əks etdirməsini təmin etmək olmuşdur.

Qaydalara edilən dəyişikliklərin bir çoxu dünyanın müxtəlif bölgələrini təmsil edən fərdlər, qruplar və milli futbol assosiasiyaları tərəfindən irəli sürülən təkliflərin nəticəsidir. Bu təkliflər, futbolun bütün sahələrinin Qaydaların təkmilləşməsinə töhfə verməsini təmin etmək üçün, BFAŞ-ın Futbol və Texniki Məşvərət Komissiyaları tərəfindən nəzərdən keçirilir, belə ki, Qaydalar yalnız hakimlər üçün deyil, oyunda iştirak edən hər kəs üçündür.

Qaydalara edilən ən son dəyişikliklər 2016/17-ci il redaktəsində müəyyən edilmiş prinsiplərin geniş formasıdır, həmçinin *'ədalətli oyna!'* strategiyasında qeyd edildiyi kimi, burada məqsəd oyunun cəlbediciliyini artırmaq və davranış səviyyəsini yaxşılaşdırmaq olmuşdur. Bu şərtləri nəzərə alaraq, 2017-ci ildə keçirilmiş İllik Ümumi İclasda futbolun aşağı səviyyələrini inkişaf etdirmək məqsədi ilə bir sıra əhəmiyyətli dəyişikliklər təsdiq edilmişdir, məsələn:

- futbolun inkişafına və təbliğatına kömək etmək məqsədi ilə bir sıra "təşkilati" Qaydalara modifiksiya etmək üçün milli futbol assosiasiyalarına daha çox sərbəstliyin verilməsi
- veteranlar, fiziki imkanları məhdud futbolçular və həvəskarlar (ən aşağı səviyyədə) arasında keçirilən yarışlarda xəbərdarlığa (sarı vərəqə) potensial alternativ olaraq, müvəqqəti qovulmanın (cəzalılar skamyası) tətbiq edilməsi seçimi

- təkrar əvəzetmələrin gənclər, veteranlar və fiziki imkanları məhdud futbolçular arasında keçirilən yarışlarda tətbiq edilməsi (təkrar əvəzetmələrə həvəskarların yarışında artıq icazə verilir).

2018-ci ilin mart ayında, BFAŞ-ın İllik Ümumi İclasında Qaydalara dəyişikliklərin növbəti silsiləsi təsdiq edilmişdir. Həmin dəyişikliklərin ikisi daha əhəmiyyətli hesab olunur: yarışın reqlamentində əlavə vaxtda əlavə əvəzetməyə icazə verilməsi və video köməkçi hakimlərdən ("VAR") istifadə.

Əlavə vaxtda əlavə əvəzetmədən istifadə imkanı bütün səviyyələrdə futbola fayda vermişdir, belə ki, əlavə əvəzetmə vasitəsi ilə meydana çıxan "yeni" oyunçu həm yorulmuş/zədələnmiş oyunçunu əvəz edə, həm də matçın müqəddaratının əlavə vaxtda müəyyən edilməsi şanslarını artıra bilər.

Video köməkçi hakim ("VAR") texnologiyasının tətbiq edilməsi bir əsrdən də çox olan müddət ərzində peşəkar futbolda ən böyük inqilabdır. Texnologiyanın oyundakı fasiləsiz hərəkət və emosiya axınını korlamadan qərar-vermə prosesinə kömək edib-etməyəcəyini aydınlaşdırmaq üçün sınaq tədbirlərinin həyata keçirilməsinə əvvəl aparılan müzakirələr bir neçə il davam etsə də, "VAR" olduqca sürətli "inqilab"a çevrilmişdir.

"VAR" texnologiyasının istifadə edildiyi ilk matç 12 avqust 2016-cı il tarixində ABŞ-ın Nyu Cersi ştatında baş tutmuşdur. Cəmi 23 aydan sonra "VAR" texnologiyası Moskva şəhərində keçirilən 2018-ci il FİFA Dünya Çempionatının final mərhələsində tətbiq edilmişdir. "VAR" texnologiyası heç vaxt bütün "mübahisələrə" son qoymayacaq, belə ki, bir çox qərarlar subyektiv xarakter daşıyır, lakin bu texnologiyanın dünyanın əksər böyük futbol ölkələri tərəfindən tətbiq edilməsi sübut edir ki, "VAR" texnologiyası ədalətliliyi artırır və oyunçuların daranışını müsbət şəkildə dəyişir.

2019/20-ci il mövsümü üçün Qaydalara edilmiş dəyişikliklərin bir çoxu futbolun oynanılmasına və nüfuzuna birbaşa və müsbət şəkildə təsir edəcək, məsələn:

- qapıdan zərbələrin daha effektiv şəkildə yerinə yetirilməsi, belə ki, bundan sonra topun oyunda olması üçün o, cərimə meydanını tərk etmək məcburiyyətində deyil
- hücum edən komandanın oyunçularının "canlı sədd"ə dayanmalarına icazə verilməyəcək (konfliktin və oyunun bərpasının ləngidilməsinin qarşısını almaq üçün)
- "mübahisəli top"un atılmasının daha ədalətli üsulu mövcud "sui-istifadə" hallarının qarşısını alacaq - belə ki, əgər top hakimə toxunduqdan sonra qapıya daxil olarsa, top digər komandanın nəzarətinə keçərsə və ya yeni hücum başlayarsa, "mübahisəli top" təyin ediləcək

Davranışı və oyunun nüfuzunu yaxşılaşdırmaq istiqamətində BFAŞ-ın davam edən fəaliyyətinin tərkib hissəsi olaraq, komandanın rəsmi şəxslərinə intizamsız davranışa görə sarı və qırmızı vərəqə göstəriləcək və əgər intizamsız davranışın kim tərəfindən edildiyini müəyyən etmək mümkün deyilsə, vərəqə baş məşqçiyə göstəriləcək.

BFAŞ Qaydalara əhəmiyyətli dəyişikliklər etmək üçün eksperimentləri həyata keçirməyə davam edəcək. İndiyə qədər həyata keçirilmiş eksperimentlərin əksəriyyəti uğurlu olmuşdur, lakin 11 metrlik nöqtədən yerinə yetirilən zərbələrin, belə demək mümkünsə, "AB-BA" sistemi xüsusi populyarlıq qazana bilməmişdir, əsasən ona görə ki, bu sistem futbolun sadəliyi fonunda müəyyən dərəcədə mürəkkəbdir. Bununla da bu eksperimentin dayandırılmasına qərar verilmişdir.

IFAB



# Gələcək

BFAŞ, təklif edilən dəyişikliklərin oyuna fayda verib-verməyəcəyini öyrənmək üçün onları yoxlamaq və nəzərdən keçirmək məqsədi ilə 2017-22-ci illər üzə "*ədalətli oyna!*" strategiyasını təsdiq etmişdir. O, futbol dünyasında xoş qarşılanmışdır və onun üç önəmli məsələyə köklənməsi yüksək qiymətləndirilmişdir:

- **Ədalətlilik və bütövlük**
  - təklif edilən dəyişiklik oyun meydanında oyunun ədalətliliyini və bütövlüyünü gücləndirəcəkmi?
- **Dünyəvilik və kütləvilik**
  - təklif edilən dəyişiklik bütün dünyada bütün səviyyələrdə futbola fayda verəcəkmi?
  - təklif edilən dəyişiklik müxtəlif peşə sahələrə aid və müxtəlif fiziki imkanlara malik insanları oyunda iştirak etməyə və ondan həzz almağa həvəsləndirəcəkmi?
- **Texnologiyanın inkişafı**
  - təklif edilən dəyişiklik oyuna müsbət şəkildə təsir edəcəkmi?

BFAŞ, öz ekspert komissiyaları ilə işləyərək, Qaydalara dair çoxsaylı önəmli mövzular, o cümlədən oyunçuların davranışı və kapitanın vəzifəsinin gücləndirilməsi üzərində geniş məsləhətləşmələr aparmağa davam edəcək.

Fəaliyyətini ədalətlilik, dünyəvilik və bütövlük, həmçinin texnologiya üzərində quran BFAŞ dünyanın hər bir yerində yerləşən futbol meydanlarında daha yaxşı oyunun təbliğ edilməsi məqsədi ilə Qaydaların təkmilləşdirilməsini davam etdirəcək.

Son illər ərzində Qaydalara edilmiş əhəmiyyətli dəyişikliklər oyun vaxtının, həmçinin futbolun ədalətliliyinin və cəlbediciliyinin artırılmasına mühüm töhfə verməyə başlamışdır. "VAR" texnologiyasının təsiri ilə yanaşı, oyunçuların

davranışının daha da yaxşılaşması gözlənilir. Bütün bunlar futbolu oynayanlara, izləyənlərə və idarə edənlərə daha çox zövq verəcək.

BFAŞ bütün dünyadan olan insanları öz fəaliyyətinə cəlb etməkdə olduqca maraqlıdır və biz hər zaman Oyun Qaydaları ilə bağlı təklifləri və ya sualları məmnuniyyətlə qəbul etməyə hazırıq. Əslində, yaxın keçmişdə Qaydalara edilən dəyişikliklərin bir çoxu dünyanın müxtəlif bölgələrini təmsil edən insanların təkliflərindən irəli gəlmişdir.

Biz gələcəkdə bu prosesə daha çox insanın cəlb ediləcəyinə ümid edir və təfərrüatlar üçün www.theifab.com veb-saytını ziyarət etmyinizi xahiş edirik

Təkliflərinizi, ideyalarınızı və suallarınızı lawenquiries@theifab.com elektron poçtumuza göndərməyə davam edin

IFAB

# Oyun Qaydalarına dair **Qeydlər**

## Rəsmi dillər

BFAŞ, Oyun Qaydalarını ingilis, fransız, alman və ispan dillərində nəşr edir. Onlar arasında uyğunsuzluq olarsa, ingilis dilində olan mətn üstün hesab olunur.

## Digər dillər

Oyun Qaydalarını tərcümə edən milli futbol assosiasiyaları bizə elektron poçt vasitəsi ilə müraciət edərək Oyun Qaydalarının 2019/20-ci il redaktəsinin elektron versiyasını əldə edə bilərlər: **info@theifab.com.**

Bu formatdan istifadə edərək Oyun Qaydalarının tərcümə edilmiş versiyasını tərtib edən milli futbol assosiasiyalarından tərcümə edilmiş nüsxənin (ön səhifədə bunun milli futbol assosiasiyasının rəsmi tərcüməsi olduğunu aydın şəkildə göstərmək şərti ilə) BFAŞ-a göndərmələri xahiş edilir ki, həmin nüsxələr başqalarının istifadəsi üçün BFAŞ-ın vebsaytında yerləşdirilsin.

## Qaydaların tətbiq edilməsi

BFAŞ-ın icazə verdiyi modifikasiyalar istisna olmaqla, hər bir konfederasiyada, ölkədə, şəhərdə və kənddə eyni Qaydalar tətbiq edilir (bax: "Qaydalara Modifikasiyalar"). BFAŞ-ın icazəsi olmadan Qaydalara modifikasiya edilməməli və ya dəyişilik edilməməlidir.

Matçın hakimlərinə və digər iştirakçılarına təlim keçən şəxslər xüsusilə nəzərə almalıdırlar ki,:

- hakimlər matçların ədalətli və təhlükəsiz şəkildə keçirilməsini təmin etmək məqsədi ilə Qaydaları "oyunun ruhu" çərçivəsində tətbiq etməlidirlər
- hər kəs, hakimlərin də insan olduğunu və səhv edə biləcəyini nəzərə alaraq, matçın hakimlərinə və onların qərarlarına hörmətlə yanaşmalıdır

Oyunun nüfuzunun qorunmasında əsas məsuliyyət oyunçuların üzərinə düşür və komandaların kapitanları Qaydalara və hakimlərin qərarlarına hörmət edilməsinin təmin edilməsində önəmli rol oynamalıdırlar.

## Qeyd

Qaydalara edilmiş əsas dəyişikliklərin altından xətt çəkilmiş və onlar səhifənin kənarında qeyd edilmişdir.
Redaktə xarakterli dəyişikliklərin altından xətt çəkilmişdir.

IFAB®

# Oyun Qaydaları

2019/20

IFAB®

# Qaydalara
# **Modifikasiyalar**

Oyun Qaydalarının dünyəviliyi o deməkdir ki, oyun dünyanın bütün bölgələrində və bütün səviyyələrdə mahiyyətcə eyni olmalıdır. Qaydalar, həmçinin oyun üçün ədalətli və təhlükəsiz mühit yaratmaqla kütləviliyi və əyləncəni də dəstəkləməlidir.

BFAŞ, tarixən milli futbol assosiasiyalarına futbolun müvafiq kateqoriyaları üzrə təşkilati Qaydalara modifikasiya etmələri üçün müəyyən sərbəstlik vermişdir. Bununla belə, BFAŞ qətiyyətlə inanır ki, milli futbol assosiasiyalarına öz ölkələrində futbola müsbət şəkildə təsir edəcək modifikasiyalar etmək üçün daha çox sərbəstlik verilməlidir.

Futbolun oynanılması və idarə edilməsi FİFA Dünya Çempionatınının final mərhələsindən ən kiçik kəndə qədər dünyanın hər bir futbol meydanında eyni cür olmalıdır. Bununla belə, oyunun müddəti, iştirakçıların sayı və hər hansı ədalətsiz davranışın cəzalandırılması üsulu ölkə futbolunun ehtiyacları ilə müəyyən edilməlidir.

Nəticə etibarı ilə, BFAŞ-ın 3 mart 2017-ci il tarixində Londonda keçirilmiş 131-ci İllik Ümumi İclasında yekdilliklə razılaşdırılmışdır ki, milli futbol assosiasiyaları (həmçinin konfederasiyalar və FİFA) özlərinin məsuliyyət daşıdıqları yarışlar üçün, Oyun Qaydalarının aşağıdakı təşkilati hissələrinin hər birinə və ya bir neçəsinə modifikasiya etmək imkanına malikdirlər:

**Gənc, veteran, fiziki imkanları məhdud və həvəskar futbolçular üçün:**

- oyun meydanının ölçüsü
- topun ölçüsü, çəkisi və materialı
- qapı dirəkləri arasındakı məsafə və tirin yer səthindən olan hündürlüyü
- matçın (və əlavə vaxtın) iki (bərabər) hissəsinin davamiyyəti
- təkrar əvəzetmələrdən istifadə
- bəzi/bütün xəbərdarlıqlar (SV) üçün müvəqqəti qovulmalardan cəzalılar skamyası) istifadə

**Yüksək divizonların əsas komandaları və ya “A” milli komandalar arasında keçirilən yarışlar istisna olmaqla, bütün səviyyələr üçün:**

- hər bir komandaya maksimum beş əvəzetmədən istifadə etməyə icazə verilir. Gənclərdən ibarət komandaların yarışlarında isə maksimal əvəzetmə sayı milli futbol assosiasiyası, konfederasiya və ya FİFA tərəfindən müəyyən edilməlidir.
  Bunlardan başqa, milli futbol assosiasiyalarına, öz daxili futbol yarışlarını təkmilləşdirmək məqsədilə daha çox sərbəstlik vermək üçün BFAŞ İllik Ümumi İclasında futbolun kateqoriyalarına dair aşağıdakı dəyişiklikləri təsdiq etmişdir:

- qadın futbolu bundan sonra ayrıca kateqoriyaya daxil edilmir və indi kişi futbolu ilə eyni statusa malikdir
- gənclər və veteranlar üçün yaş həddi aradan qaldırılmışdır - milli futbol assosiasiyaları, konfederasiyalar və FİFA bu kateqoriyalar üçün yaş məhdudiyyətlərini müəyyən etməkdə sərbəstdirlər
- hər bir milli futbol assosiasiyası hansı yarışların həvəskar kateqoriyaya aid olmasına özü qərar verəcək

**Digər modifikasiyalar üçün icazə**
Milli futbol assosiasiyaları müxtəlif yarışlar üçün fərqli modifikasiyaları təsdiq etmək hüququna malikdirlər - modifikasiyaların bütün yarışlara və yaxud modifikasiyaların hamısının tətbiq edilməsinə dair heç bir tələb yoxdur. **Bununla belə, BFAŞ-ın icazəsi olmadan heç bir digər modifikasiyanın tətbiq edilməsinə icazə verilmir.**

Milli futbol assosiasiyalarından, bu modifikasiyalardan hansı səviyyələrdə istifadə edilməsi barədə BFAŞ-a məlumat verməleri xahiş olunur, belə ki, bu məlumatlar və xüsusi ilə modifikasiyaların tətbiq edilməsinin səbəblərinin öyrənilməsi inkişaf ideyalarının/strategiyalarının müəyyən edilməsinə kömək edə bilər və futbolun inkişafına yardım etmək məqsədi ilə BFAŞ bu məlumatları digər milli assosiasiyalarla bölüşə bilər.

BFAŞ, həmçinin kütləviliyi artıra bilən, futbolu daha cəlbedici edən və onun inkişafını bütün dünyada sürətləndirən digər potensial modifikasiyalar barədə fikirləri eşitməkdə maraqlıdır.



IFAB

# Müvəqqəti qovulmalar (cəzalılar skamyası) üzrə Təlimatlar

BFAŞ-ın 3 mart 2017-ci il tarixində Londonda keçirilmiş 131-ci İllik Ümumi İclasında, müvafiq milli assosiasiyanın, konfederasiyanın və ya FİFA-nın razılığı ilə gənc, veteran, fiziki imkanları məhdud və həvəskar futbolçuların yarışlarında bütün və ya bəzi xəbərdarlıqlar/sarı vərəqələr üçün müvəqqəti qovulmanın (cəzalılar skamyası) tətbiq edilməsi təsdiq edildi.

Müvəqqəti qovulma ilə bağlı müddəa Qaydalarda öz əksini tapmışdır:

### Qayda 5 – Baş Hakim (Hüquq və vəzifələri):

**İntizam tədbiri**

Hakim matçdan əvvəl oyun meydanına daxil olduğu andan matçın başa çatmasına qədər, habelə hissələr arasındakı fasilə, əlavə vaxt və 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr zamanı sarı və ya qırmızı vərəqə göstərmək, və yarışın reqlamenti ilə icazə verildiyi hallarda, oyunçunu meydandan müvəqqəti qovmaq hüququna malikdir.

Müvəqqəti qovulma xəbərdarlıqla (SV) cəzalandırılan qayda pozuntusunu törədən oyunçunun müəyyən müddət ərzində matçın sonrakı gedişatında iştirakdan dərhal məhrum edilməsidir. Məqsəd odur ki, dərhal verilən cəza qaydanı pozan oyunçunun və onun komanda yoldaşlarının davranışı üzərində əhəmiyyətli və bilavasitə müsbət təsirə malik ola bilər.

Milli futbol assosiasiyası, konfederasiya və ya FİFA aşağıdakı təlimatlar çərçivəsində müvəqqəti qovulma protokolunu təsdiq etməlidirlər (yarışın reqlamentində dərc edilməsi üçün):

### Yalnız əsas heyətin oyunçuları

- Müvəqqəti qovulma ehtiyat və əvəz edilən oyunçular tərəfindən törədilən xəbərdarlıqla cəzalanan qayda pozuntuları istisna olmaqla, bütün oyunçulara (qapıçılar da daxil olmaqla) şamil edilir

### Hakimin işarəsi

- Hakim müvəqqəti qovulmanı, sarı vərəqə göstərdikdən sonra hər iki əli ilə müvəqqəti qovulma zonasını (adətən texniki zona) göstərərək işarə verməlidir

### Müvəqqi qovulmanın müddəti

- Müvəqqəti qovulmanın müddəti bütün qayda pozuntuları üçün eynidir
- Müvəqqəti qovulmanın müddəti matçın ümumi müddətinin 10-15%-i arasında dəyişməlidir (məs., 90 dəqiqəlik matçda 10 dəqiqə; 80 dəqiqəlik matçda 8 dəqiqə)
- Müvəqqəti qovulmanın müddəti, oyunçunun oyun meydanını tərk etməsindən sonra oyunun bərpa edilməsi ilə başlayır
- Hakim, hissənin sonuna əlavə edəcəyi itirilmiş hər hansı vaxtı (məs., əvəzetmə, zədə və s.) müvəqqəti qovulmanın müddətinə əlavə etməlidir
- Yarışın reqlamentində müvəqqəti qovulma müddətinin xronometrajının aparılmasında hakimə kimin kömək edəcəyi göstərilməlidir - bu, nümayəndənin, 4-cü hakimin və ya neytral köməkçi hakimin, həmçinin komandanın rəsmi şəxsinin vəzifəsi ola bilər
- Müvəqqəti qovulma müddəti başa çatdıqda, top oyundadırsa, oyunçu hakimin icazəsi ilə meydana yan xətdən daxil ola bilər
- Oyunçunun meydana nə vaxt qayıtması ilə bağlı yekun qərar hakimə məxsusdur
- Müvəqqəti qovulmuş oyunçu yalnız müvəqqəti qovulma müddəti başa çatdıqda əvəz edilə bilər (əgər komanda artıq icazə verilən dəyişiklik hüququndan istifadə etməmişsə)
- Əgər müvəqqəti qovulma müddəti birinci hissənin sonuna qədər (əlavə vaxtın təyin edildiyi hallarda, ikinci hissənin sonuna qədər) başa çatmayıbsa, müvəqqəti qovulma müddətinin qalan hissəsi ikinci hissənin (əlavə vaxtın) başlaması ilə davam edir

  Matçın sonunda müvəqqəti qovulma müddəti hələ də başa çatmamış oyunçunun 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr seriyasında iştirak etməsinə verilir

**Müvəqqəti qovulma zonası**

- Müvəqqəti qovulmuş oyunçu, əgər isinmə hərəkətlərini yerinə yetirmirsə, texniki zonada (əgər varsa) və yaxud komandanın məşqçisinin/texniki heyətinin olduğu yerdə dayanmalıdır (ehtiyat oyunçularla eyni şəraitdə)

**Müvəqqəti qovulma müddəti ərzində qayda pozuntuları**

- Özünün müvəqqəti qovulma müddəti ərzində xəbərdarlıq (SV) və ya qovulma (QV) ilə cəzalanan qayda pozuntusu edən oyunçunun matçın sonrakı hissəsində iştirak etməsinə və ya əvəz edilməsinə icazə verilmir

**Əlavə intizam tədbiri**

- Yarışın təşkilatçıları/milli futbol assosiasiyaları müvəqqəti qovulmaların müvafiq instansiyalara bildirilib-bildirilməməsi və əlavə intizam tədbirinin görülüb-görülməməsinə qərar verməlidirlər (məs., xəbərdarlıqlarda (SV) olduğu kimi, ardıcıl müvəqqəti qovulmalardan sonra oyunçunun cəzalı vəziyyətə düşməsi)

**Müvəqqəti qovulma sistemləri**

Yarışlarda aşağıdakı müvəqqəti qovulma sistemlərindən biri istifadə edilə bilər:

- A Sistemi - bütün xəbərdarlıqlar (SV) üçün
- B Sistemi - müəyyən xəbərdarlıqlar (SV) üçün

**A Sistemi - bütün xəbərdarlıqlar (SV) üçün müvəqqəti qovulma**

- Bütün xəbərdarlıqlar (SV) müvəqqəti qovulma ilə cəzalandırılır
- Eyni matç ərzində 2-ci xəbərdarlığı (SV) alan oyunçu:
    - ikinci müvəqqəti qovulma alacaq və daha sonra matçın sonrakı hissəsində iştirak etməyəcək
    - əgər həmin oyunçunun komandası maksimal sayda əvəzetmədən istifadə etməyibsə, oyunçu ikinci müvəqqəti qovulma müddətinin sonunda əvəz edilə bilər (belə ki, komanda artıq iki müvəqqəti qovulma müddəti ərzində həmin oyunçu olmadan oynamağa məcbur edilib)

**B Sistemi – müəyyən xəbərdarlıqlar (SV) üçün müvəqqəti qovulma***

- Xəbərdarlıqla cəzalandırılan qayda pozuntularının əvvəlcədən müəyyən edilmiş siyahısı müvəqqəti qovulma ilə cəzalandırılır
- Xəbərdarlıqla cəzalandırılan bütün digər qayda pozuntuları isə sadəcə sarı vərəqə ilə cəzalandırılır
- Müvəqqəti olaraq qovulan oyunçu daha sonra xəbərdarlıq (SV) alarsa, oyuna davam edir
- Xəbərdarlıq (SV) alan oyunçu daha sonra müvəqqəti olaraq qovularsa, müvəqqəti qovulma müddətinin başa çatmasından sonra oynamağa davam edə bilər
- Eyni matçda ikinci dəfə müvəqqəti qovulan oyunçu cəzasını çəkdikdən sonra matçın sonrakı hissəsində iştirak etmir. Əgər oyunçunun komandası maksimal sayda əvəzetmədən istifadə etməyibsə, oyunçu ikinci müvəqqəti qovulma müddətinin başa çatmasından sonra əvəz edilə bilər, lakin əgər oyunçu həm də müvəqqəti qovulma ilə bağlı olmayan xəbərdarlıq (SV) almışsa, o, əvəz edilə bilməz.
- Eyni matç ərzində ikinci dəfə xəbərdarlıq (SV) alan oyunçu meydandan qovulur, matçın sonrakı hissəsində iştirak etmir və əvəzlənə bilməz

**Bəzi yarışlarda müvəqqəti qovulma yalnız qeyri-idman hərəkatinə görə edilən xəbərdarlıqlar (SV) üçün tətbiq edilə bilər, məsələn:*

- *Simulyasiya*
- *Rəqib komanda tərəfindən matçın bərpasını biləkdən gecikdirmək*
- *Etiraz, yaxud şifahi ifadələr və ya jestlər*
- *Rəqibi tutmaqla, dartmaqla, itələməklə və ya topa əllə oynamaqla perspektivli hücumun qarşısını almaq*
- *11 metrlik zərbə zamanı qaydalardan kənar fənd işlətmək*

# Təkrar əvəzetmələr üçün təlimatlar

BFAŞ-ın 3 mart 2017-ci il tarixində Londonda keçirilmiş 131-ci İllik Ümumi İclasında təsdiq edildikdən sonra, Oyun Qaydaları müvafiq milli futbol assosiasiyasının, konfederasiyanın və ya FİFA-nın razılığı ilə gənc, veteran, fiziki imkanları məhdud və həvəskar futbolçular arasında keçirilən yarışlarda təkrar əvəzetmədən istifadə etməyə icazə verir.

Təkrar əvəzetmələrə dair müddəa Qaydalarda öz əksini tapmışdır:

**Qayda 3 – Oyunçular (Əvəzetmələrin sayı):**
**Təkrar Əvəzetmələr**

- Təkrar əvəzetmələrə milli futbol assosiasiyasının, konfederasiyanın və ya FİFA-nın razılığı ilə gənc, veteran, fiziki imkanları məhdud və həvəskar futbolçular arasında keçirilən matçlarda icazə verilir.

Təkrar əvəzetmə, matçda iştirak edərək artıq əvəz edilmiş oyunçunun sonradan başqa bir oyunçunun əvəzinə meydana qayıtmasıdır.

Əvəz edilmiş oyunçunun meydana qayıtmasına dair müddəalardan başqa, Qayda 3-ün və Oyun Qaydalarının bütün digər tələbləri təkrar meydana qayıtmış oyunçulara şamil edilir. Qayda 3-də müəyyən edilmiş əvəzetmə proseduruna xüsusi ilə riayət edilməlidir.


ABU RO
adidas

# Qayda

# 01

# Oyun Meydanı

**1. Meydanın örtüyü**

Oyun meydanı tamamilə təbii və ya əgər yarışın reqlamentində icazə verilirsə, tamamilə süni olmalıdır. Lakin yarışın reqlamentində süni və təbii materialların birləşməsindən ibarət (hibrid sistem) örtükdən istifadəyə icazə verilə bilər.

Süni örtüyün rəngi yaşıl olmalıdır.

Əgər FİFA-nın üzvü olan milli assosiasiyaların milli komandaları, yaxud klubları arasında beynəlxalq yarışlar keçirilərkən süni örtüklü meydandan istifadə olunursa, BFAŞ-ın icazə verdiyi xüsusi hallar istisna olmaqla, örtük FİFA-nın Futbol Örtüyü üzrə Keyfiyyət Proqramının və Beynəlxalq Matç Standartının tələblərinə cavab verməlidir.

**2. Meydanın işarələnməsi**

Oyun meydanı düzbucaqlı olmalı, arası kəsilməyən və təhlükəli olmayan xətlərlə işarələnməlidir; əgər təhlükəli deyilsə, təbii örtüklü meydanların işarələnməsi üçün süni materialdan istifadə edilə bilər. Bu xətlər məhdudlaşdırdıqları sahələrin tərkibinə daxildir.

Oyun meydanında yalnız Qayda 1-də göstərilmiş xətlər çəkilməlidir. Süni örtüklərdən istifadə olunan hallarda, digər xətlərin çəkilməsinə icazə verilir, bir şərtlə ki, onların rəngi fərqli olsun və futbol üçün çəkilmiş xətlərdən aydın şəkildə fərqlənsin.

Oyun meydanını məhdudlaşdıran iki uzun xətt yan xətt, iki qısa xətt qapı xətti adlanır.

Oyun meydanı, hər iki yan xəttin mərkəzini birləşdirən mərkəz xətti ilə iki hissəyə bölünür.

Mərkəz nöqtəsi mərkəz xəttinin ortasında qeyd olunur. Nöqtənin ətrafında radiusu 9.15 metr (10 yard) olan dairə çəkilir.

Oyun meydanından kənarda, künc qövsündən 9.15 metr (10 yard) məsafədə qapı və yan xəttə perpendikulyar olan xətlər çəkilə bilər.

Bütün xətlərin eni eyni olmalıdır və 12 sm-dən (5 düym) artıq ola bilməz. Qapı xəttinin eni qapı dirəklərinin və tirin eni ilə eyni olmalıdır.

Oyun meydanında icazə verilməyən xətlər çəkən oyunçuya, qeyri-idman hərəkətinə görə xəbərdarlıq edilməlidir. Əgər hakim bunun oyunun gedişi zamanı edildiyini aşkar edərsə, top növbəti dəfə oyundan çıxdıqda, oyunçuya xəbərdarlıq edilir.

## 3. Ölçülər

Yan xətt qapı xəttindən uzun olmalıdır.

- Yan xətt (uzunluğu):
  minimum 90m (100 yard)
  maksimum 120m (130 yard)
- Qapı xətti (uzunluğu):
  minimum 45 m (50 yard)
  maksimum 90 m (100 yard)

## 4. Belnəlxalq matçlar üçün ölçülər

- Yan xətt (uzunluğu):
  minimum 100m (110 yard)
  maksimum 110m (120 yard)
- Qapı xətti (uzunluğu):
  minimum 64 m (70 yard)
  maksimum 75 m (80 yard)

Yarışın reqlamentində qapı xəttinin və yan xəttin uzunluğu yuxarıda göstərilmiş ölçülər çərçivəsində müəyyən edilə bilər.




- Ölçülər xətlərin xaricindən hesablanır, belə ki xətlər məhdudlaşdırdığı ərazinin tərkibinə daxildir
- 11 metrlik nöqtə həmin nöqtənin mərkəzindən qapı xəttinin arxa kənarına qədər hesablanır.

## 5. Qapı meydanı

Qapı dirəklərinin hər birinin daxili hissəsindən əks istiqamətdə, qapı xətti üzərində 5.5 m (6 yard) məsafədə olan nöqtədən meydanın daxilinə, qapı xəttinə düz bucaq şəklində olan 5.5 m (6 yard) uzunluğunda xətlər çəkilir və onlar qapı xəttinə paralel xətlərlə birləşdirilir. Bu xətlərlə və qapı xətti ilə məhdudlaşdırılan sahə qapı meydanı adlanır.

## 6. Cərimə meydanı

Qapı dirəklərinin hər birinin daxili hissəsindən əks istiqamətdə, qapı xətti üzərində 16.5 m (18 yard) məsafədə olan nöqtədən meydanın daxilinə, qapı xəttinə düz bucaq şəklində olan 16.5 m (18 yard) uzunluğunda xətlər çəkilir və onlar qapı xəttinə paralel xətlərlə birləşdirilir. Bu xətlərlə və qapı xətti ilə məhdudlaşdırılan sahə cərimə meydanı adlanır.

Hər bir cərimə meydanının daxilində, qapı xətti üzərində dirəklərdən eyni məsafədə olan nöqtədən 11 m (12 yard) məsafədə 11 metrlik nöqtə işarə edilir.

Cərimə meydanının önündə mərkəzi 11 metrlik nöqtə olan, radiusu isə 9.15 m (10 yard) olan qövs çəkilir.

## 7. Künc bölməsi

Künc bölməsi, hər künc bayrağından oyun meydanının daxilinə çəkilən, radiusu 1 metr (1 yard) olan qövslə müəyyən olunur.



## 8. Bayraq dirəkləri

Meydanın hər bir küncünə, hündürlüyü ən azı 1.5 m (5 fut) olan və ucu iti olmayan bayraq dirəkləri və bayraq yerləşdirilməlidir.

Mərkəz xəttinin hər iki tərəfində, yan xətdən ən azı 1 m (1 yard) məsafədə də bayraq dirəkləri yerləşdirilə bilər.

## 9. Texniki zona

Texniki zona matç zamanı komandanın rəsmi şəxslərinin, ehtiyat oyunçularının və əvəz edilmiş oyunçularının yerləşməsi üçün ayrılmış və aşağıdakı şəkildə təşkil edilən xüsusi zonadır:

- texniki zona ehtiyat oyunçular üçün nəzərdə tutulmuş oturacaqların hər iki tərəfindən 1 m (1 yard) məsafədə və yan xətdən 1 m (1 yard) məsafədə çəkilmiş xətlərlə məhdudlaşdırılır
- bu sahənin sərhəddini müəyyənləşdirmək üçün xəttin çəkilməsi tövsiyə edilir
- texniki zonada yerləşməsinə icazə verilən şəxslərin sayı yarışın reqlamenti ilə müəyyən edilir
- texniki zonada yerləşən şəxslər:
    - matçın başlanmasından əvvəl yarışın reqlamentinə uyğun olaraq müəyyən edilir
    - məsuliyyətli şəkildə davranmalıdırlar
    - hakimin icazəsi ilə, oyunçunun zədəsini qiymətləndirmək üçün fizioterapevtin/həkimin oyun meydanına daxil olması kimi xüsusi hallar istisna olmaqla, öz yerlərində qalmalıdırlar
- eyni vaxtda yalnız bir nəfərin texniki zonadan taktiki göstərişlər verməsinə icazə verilir

## 10. Qapılar

Qapı, hər bir qapı xəttinin mərkəzində yerləşdirilməlidir.

Qapı, künc bayraqlarından eyni məsafədə olan iki şaquli dirəkdən və onları üstdən birləşdirən üfiqi tirdən ibarətdir. Qapı dirəkləri və tir müvafiq materialdan hazırlanmalıdır. Onların forması kvadrat, düzbucaqlı, dairəvi və ya ellips şəklində olmalıdır; onlar təhlükəli olmamalıdır.

Dirəklərin daxili hissələri arasındakı məsafə 7.32 metr (8 yard), tirin aşağı səthindən yer səthinə qədər olan məsafə 2.44 metrdir (8 fut).

Qapı xəttinə görə qapı dirəklərinin vəziyyəti aşağıdakı qrafiklərə uyğun olmalıdır.

Qapı dirəkləri və tir ağ rəngdə olmalı, onlar eyni genişliyə və dərinliyə malik olmalı və genişlik 12 sm-dən (5 düym) çox olmamalıdır.

Əgər qapı tiri sıradan çıxarsa, onun bərpa edilməsinə, yaxud yerinə quraşdırılmasına qədər oyun saxlanılır. Oyun mübahisəli topla bərpa olunur. Əgər onun bərpa edilməsi mümkün deyilsə, matç dayandırılmalıdır. Tiri əvəz etmək üçün kəndirdən, yaxud elastik və ya təhlükəli materialdan istifadə etməyə icazə verilmir.

Tor qapının arxasından dirəklərə, tirə və yerə birləşdirilə bilər; tor etibarlı bağlanmalı və elə bərkidilməlidir ki, qapıçıya mane olmasın.

**Təhlükəsizlik**
Qapılar (habelə hərəkət etdirilən qapılar) yerə etibarlı şəkildə birləşdirilməlidir.

## 11. Qapı xətti texnologiyası (QXT)

QXT sistemləri qolun qeydə alınmasını təsdiqləmək üçün hakimin qərarına kömək etmək məqsədi ilə istifadə edilə bilər.

QXT-nin istifadə edildiyi yerlərdə, QXT üzrə FİFA Keyfiyyət Proqramında müəyyən edilmiş spesifikasiyalara və Oyun Qaydalarına uyğun olaraq qapı çərçivəsində dəyişikliklərə icazə verilə bilər. QXT-dən istifadə yarışın reqlamentində nəzərdə tutulmalıdır.




**Qapı xəttinə görə qapı dirəklərinin vəziyyəti aşağıdakı qrafiklərə uyğun olmalıdır.**



**QXT-nin prinsipləri**
QXT yalnız qolun vurulub-vurulmamasını müəyyən etmək üçün müstəsna olaraq qapı xəttinə tətbiq olunur.

Qolun vurulub-vurulmamasına dair işarə QXT sistemi vasitəsi ilə dərhal və avtomatik olaraq bir saniyə ərzində yalnız hakimlərə ötürülməlidir (hakimin saatı vasitəsi ilə, titrəyiş və ya vizual işarə ilə).

**QXT-nin tələbləri və spesifikasiyaları**
Əgər matçlarda QXT-dən istifadə olunursa, yarışın təşkilatçıları sistemin aşağıdakı standartlardan birinə uyğun olaraq sertifikatlaşdırılmasını təmin etməlidirlər:

- "FIFA Quality PRO" (FİFA Keyfiyyət Proqramı)
- "FIFA Quality" (FİFA Keyfiyyəti)
- "IMS" – "INTERNATIONAL MATCH STANDARD" (Beynəlxalq Matç Standartı)

Müstəqil test institutu müxtəlif texnologiya təchizatçılarının sistemlərinin dəqiqliyini və funksionallığını QXT Test Təlimatı üzrə FİFA Keyfiyyət Proqramına əsasən yoxlamalıdır. Əgər texnologiya Test Təlimatına uyğun şəkildə işləmirsə, hakim QXT sistemindən istifadə etməməli və bunu müvafiq instansiyalara bildirməlidir.

QXT-nin istifadə edildiyi yerlərdə, hakim matçdan əvvəl texnologiyanın funksionallığını Test Təlimatında qeyd edilmiş şəkildə yoxlamalıdır.

## 12. Kommersiya reklamı

Komandaların meydana çıxması anından fasiləyə getməsinə qədər, eləcə də komandaların fasilədən qayıtmasından matçın sonuna qədər oyun meydanında, qapı toru ilə əhatə olunmuş ərazi daxilində yerdə, texniki zonada və ya video-təkrara baxış zonasında, yaxud meydanı məhdudlaşdıran xətlərdən 1 metr (1 yard) məsafə daxilində yerdə real və ya virtual heç bir kommersiya reklamına icazə verilmir. Qapılarda, torlarda, bayraq dirəklərində və ya onların bayraqlarında reklamın yerləşdirilməsinə icazə verilmir və bu əşyalara hər hansı kənar avadanlıq (kamera, mikrofon və s.) quraşdırıla bilməz.

Bundan başqa, şaquli reklam olmalıdır:

- yan xətlərdən 1 m (1 yard) məsafədə
- qapı xəttindən, qapı torunun dərinliyi ilə eyni məsafədə
- qapı torundan 1 m (1 yard) məsafədə

## 13. Loqolar və emblemlər

Matç zamanı oyun meydanında, qapı torlarında və onların məhdudlaşdırdığı ərazilərdə, qapılarda və bayraq dirəklərində FİFA-nın, konfederasiyaların, milli futbol assosiasiyalarının, yarışların, klubların və ya digər təşkilatların real, yaxud virtual loqo və ya emblemlərinin yerləşdirilməsinə icazə verilmir. Onların, bayraq dirəklərindəki bayraqların üzərində yerləşdirilməsinə icazə verilir.

## 14. Video köməkçi hakimlər ("VAR")

Video köməkçi hakimlərin təyin edildiyi matçlarda video əməliyyat otağı və ən azı bir video-təkrara baxış zonası olmalıdır.

### Video əməliyyat otağı

Video əməliyyat otağı video köməkçi hakimin ("VAR"), onun köməkçisinin ("AVAR") və videotəkrar operatorunun ("RO") işlədiyi yerdir; o, stadionun daxilində, stadiona yaxın və ya müəyyən qədər uzaq yerdə ola bilər. Matç ərzində yalnız səlahiyyətli şəxslərin video əməliyyat otağına daxil olmasına və ya video köməkçi hakimlə, onun köməkçisi ilə və video-təkrar operatoru ilə ünsiyyət qurmasına icazə verilir.

Video əməliyyat otağına daxil olan əsas heyətin oyunçusu, ehtiyat oyunçu, əvəz edilmiş oyunçu və ya komandanın rəsmi şəxsi qovulmalıdır.

### Video-təkrara baxış zonası

Video köməkçi hakimin ("VAR") təyin edildiyi matçlarda, baş hakimin meydanın kənarında video-təkrarı izləməsi üçün ən azı bir video-təkrara baxış zonası olmalıdır. Video-təkrara baxış zonası:

- oyun meydanının kənarında görünən yerdə olmalı
- aydın şəkildə işarələnməlidir

Video-təkrara baxış zonasına daxil olan əsas heyətin oyunçusuna, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya və ya komandanın rəsmi şəxsinə xəbərdarlıq edilməlidir.

# Qayda

# 02

# Top

**1. Keyfiyyət və ölçülər**

Bütün toplar:

- kürəvi formaya malik olmalıdır
- müvafiq materialdan hazırlanmalıdır
- dairə boyu uzunluğu 68 sm-dən (27 düym) az, 70 sm-dən (28 düym) çox olmamalıdır
- matçın başlama anında 410 qramdan (14 unsiya) az, 450 qramdan (16 unsiya) çox olmamalıdır
- dəniz səviyyəsində 6 – 1.1 atmosfer (600 – 1,100 q/kv.sm) (8.5 funt/kv düym – 15.6 funt/kv düym) təzyiqə malik olmalıdır

FİFA və konfederasiyaların bayrağı altında təşkil edilən yarışlar çərçivəsində keçirilən matçlarda istifadə olunan bütün topların üzərində aşağıdakı markalardan biri olmalıdır:

- "FIFA Quality PRO" (FİFA Keyfiyyət Proqramı)
- "FIFA Quality" (FİFA Keyfiyyəti)
- "IMS" – "INTERNATIONAL MATCH STANDARD" (Beynəlxalq Matç Standartı)

Hər bir marka göstərir ki, top rəsmi olaraq yoxlamadan keçib və Qayda 2-də müəyyən edilmiş minimal spesifikasiyalara əlavə olaraq, həmin marka üzrə BFAŞ tərəfindən təsdiq edilmiş xüsusi texniki tələblərə cavab verir. Sınaqları həyata keçirən təşkilatlar FİFA tərəfindən təsdiq edilir.

Qapı Xətti Texnologiyasının (QXT) istifadə edildiyi yerlərdə, texnologiyaya inteqrasiya edilmiş toplar yuxarıda qeyd edilmiş markalardan birinə malik olmalıdırlar.

Milli futbol assosiasiyaları tərəfindən təşkil edilən yarışlarda bu markaların hər hansı birinə malik toplardan istifadə edilməsi tələb edilə bilər.

FİFA-nın, konfederasiyaların və ya milli futbol assosiasiyalarının bayrağı altında təşkil edilən yarışlar çərçivəsində keçirilən matçlarda, yarışın, təşkilatçının loqo və ya emblemi və təsdiq edilmiş istehsalçının ticarət markası istisna olmaqla, heç bir kommersiya reklamına icazə verilmir. Bu cür nişanların ölçüsü və sayı yarışın reqlamenti ilə məhdudlaşdırıla bilər.

### 2. Qüsurlu topun dəyişdirilməsi

Əgər top qüsurlu hala düşərsə:

- oyun saxlanılır və
- ehtiyat top vasitəsi ilə, birinci topun qüsurlu hala düşdüyü yerdən mübahisəli top atmaqla bərpa olunur

Əgər top başlanğıc zərbəsindən, qapıdan zərbədən, küncdən zərbədən, cərimə və ya sərbəst zərbədən, 11 metrlik zərbədən və ya yan xətdən oyuna daxil edilərkən qüsurlu hala düşərsə, oyun müvafiq qaydada yenidən bərpa olunur.

Əgər top 11 metrlik zərbə zamanı, yaxud 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr seriyası zamanı irəli hərəkət etdikdən sonra hər hansı bir oyunçuya, qapı tirinə və qapı dirəklərinə toxunmazdan əvvəl qüsurlu hala düşərsə, 11 metrlik zərbə təkrar edilir.

Matç ərzində top hakimin icazəsi olmadan dəyişdirilə bilməz.

### 3. Əlavə toplar

Oyun meydanının ətrafında Qayda 2-nin tələblərinə cavab verən əlavə toplar oyun yerləşdirilə bilər və onların istifadəsi hakimin nəzarəti altında olmalıdır.



# Qayda 03

# Oyunçular

## 1. Əsas heyətin oyunçularının sayı

Matç iki komandanın iştirakı ilə, qapıçı da daxil olmaqla, hər bir komandada 11 nəfərdən artıq oyunçu olmamaqla keçirilir. Hər hansı komandanın heyətində 7 nəfərdən az oyunçu olarsa, matç başlana və ya davam etdirilə bilməz.

Bir, yaxud bir neçə oyunçunun bilərəkdən oyun meydanını tərk etməsi nəticəsində komandada 7 nəfərdən az oyunçu qalmışdırsa, hakim oyunu saxlamağa məcbur deyil və üstünlük prinsipi tətbiq edilə bilər, lakin top oyundan çıxdıqdan sonra əgər komandada oyunçuların sayı 7-dən azdırsa, hakim oyunu bərpa etməməlidir.

Əgər yarışın reqlamentində bütün əsas və ehtiyat oyunçuların başlanğıc zərbəsinə qədər sifariş edilməsinə dair tələb müəyyən olunmuşsa və komanda matçı 11 nəfərdən az oyunçu ilə başlayırsa, bu halda yalnız matçın protokolunda qeyd olunan əsas və ehtiyat oyunçular, onların gəlib çıxmaları müqabilində matçda iştirak edə bilərlər.

## 2. Əvəzetmələrin sayı

### Rəsmi yarışlar

Əvəzetmələrin maksimal sayının üç olduğu yarışlar - kişi və qadın futbolçulardan ibarət, yüksək divizonların əsas komandaları və ya "A" milli komandalar arasında keçirilən yarışlar istisna olmaqla, rəsmi yarışlar çərçivəsində keçirilən hər hansı matçda maksimum beşə qədər olan əvəzetmələrin sayı FİFA, konfederasiya və ya milli assosiasiya tərəfindən müəyyən ediləcək.

Yarışın reqlamentində müəyyən edilməlidir:

- ehtiyat oyunçular siyahısında 3-dən maksimum 12-ə qədər göstərilən oyunçuların sayı
- matçda əlavə vaxt təyin edildiyi təqdirdə bir əlavə əvəzetmədən istifadə edilməsinə icazə verilib-verilməməsi (komandanın artıq, icazə verilən əvəzetmə sayından istifadə edib-etməməsindən asılı olmayaraq)

**Digər matçlar**
"A" milli yığma komandaların iştirakı ilə keçirilən matçlarda ehtiyat oyunçular siyahısına maksimum 12 ehtiyat oyunçu daxil edilə bilər, lakin onlardan maksimum 6-sı istifadə edilə bilər.

Bütün digər matçlarda, aşağıdakı şərtlərə əməl etməklə, daha çox əvəzetmədən istifadə etmək olar:

- komandalar maksimal sayla bağlı razılığa gəlirlər
- hakim oyundan əvvəl məlumatlandırılır

Əgər matçdan əvvəl hakim məlumatlandırılmayıbsa və ya komandalar arasında razılıq əldə edilməyibsə, hər bir komanda maksimum 6 əvəzetmədən istifadə edə bilər.

**Təkrar əvəzetmələr**
Təkrar əvəzetmələrə milli futbol assosiasiyasının, konfederasiyanın və ya FİFA-nın razılığı ilə gənc, veteran, fiziki imkanları məhdud və həvəskar futbolçular arasında keçirilən matçlarda icazə verilir.

### 3. Əvəzetmə proseduru

Ehtiyat oyunçuların soyadları matçın başlanmasına qədər hakimə təqdim olunmalıdır. Həmin vaxta qədər soyadı hakimə təqdim edilməmiş hər hansı ehtiyat oyunçu matçda iştirak edə bilməz.

Əsas heyətin oyunçusunun nun ehtiyat oyunçu ilə əvəz edilməsi üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir:

- hər hansı əvəzetmədən əvvəl hakim məlumatlandırılmalıdır
- əvəz edilməli olan oyunçu:
  - onun artıq meydanı tərk etdiyi hallar istisna olmaqla, oyun meydanını tərk etmək üçün hakimdən icazə almalı, və əgər hakim oyunçunun meydanı birbaşa və dərhal mərkəz xəttindən və ya başqa bir nöqtədən tərk edə biləcəyini işarə etmirsə (məs., təhlükəsizlik/mühafizə və ya zədə səbəbi ilə), oyunçu meydanı məhdudlaşdırıcı xəttin ən yaxın nöqtəsindən tərk etməlidir
  - dərhal texniki zonaya və ya paltardəyişmə otağına getməli və təkrar əvəzetməyə icazə verilən hallar istisna olmaqla, matçın sonrakı gedişində iştirak edə bilməz

- əgər əvəz edilməli olan oyunçu meydanı tərk etməkdən imtina edirsə, oyun davam etdirilir.

Ehtiyat oyunçu yalnız aşağıdakı hallarda meydana daxil ola bilər:

- oyun saxlanılan zaman
- mərkəz xəttindən
- əvəz edilən oyunçu meydanı tərk etdikdən sonra
- hakimin işarəsindən sonra

Əvəzetmə, ehtiyat oyunçunun oyun meydanına daxil olması ilə başa çatır; bu andan etibarən, əvəz edilmiş oyunçu oyundan çıxmış hesab olunur və meydana daxil olmuş oyunçu oyunu bərpa edə bilər

Bütün əvəz edilmiş və ehtiyat oyunçular, oynayıb-oynamamalarından asılı olmayaraq, hakimin səlahiyyətinə tabedirlər.

## 4. Qapıçının dəyişdirilməsi

İstənilən oyunçu qapıçı ilə yerini dəyişə bilər, bu şərtlə ki:

- dəyişikliyin edilməsindən əvvəl hakim məlumatlandırılsın
- dəyişilik oyun saxlanılan zaman edilsin

## 5. Pozuntular və cəzalar

Əgər soyadı ehtiyat oyunçular siyahısında olan oyunçu start heyətində əsas oyunçunun əvəzinə meydana çıxırsa və hakim bu dəyişilik haqqında məlumatlandırılmırsa:

- hakim ehtiyat oyunçunun oynamağa davam etməsinə icazə verir
- ehtiyat oyunçular siyahısında olan oyunçuya qarşı intizam sanksiyası tətbiq olunmur
- əsas heyətin oyunçusu ehtiyat oyunçu hesab edilə bilər
- əvəzetmələrin sayı azaldılmır
- hakim insident haqqında müvafiq instansiyalara məlumat verir

Əgər əvəzetmə hissələr arasındakı fasilə zamanı, yaxud əlavə vaxtın başlanmasından əvvəl yerinə yetirilirsə, əvəzetmə proseduru ikinci hissənin, yaxud əlavə vaxtın başlanmasına qədər başa çatdırılmalıdır. Əgər hakim əvəzetmə barədə məlumatlandırılmırsa, meydana yeni çıxmış oyunçu oyuna davam edə bilər, heç bir intizam sanksiyası tətbiq olunmur və insident barədə müvafiq instansiyalara məlumat verilir.

Əgər oyunçu, hakimin icazəsi olmadan, qapıçı ilə yerini dəyişirsə, hakim:

- oyunu davam etdirir
- dəyişikliyin hissələrarası fasilə (habelə əlavə vaxtın hissələri arasındakı fasilə) zamanı və yaxud matçın başa çatması ilə əlavə vaxtın və ya 11 metrlik zərbələr seriyasının başlanması arasında baş verdiyi hallar istisna olmaqla, top növbəti dəfə oyundan çıxdıqda, hər iki oyunçuya xəbərdarlıq edir.

Bu Qaydanın hər hansı digər şəkildə pozulması zamanı:

- oyunçulara xəbərdarlıq edilir
- matç, oyun saxlanılan anda topun olduğu yerdən yerinə yetirilən sərbəst zərbə ilə bərpa olunur

### 6. Əsas və ehtiyat oyunçuların qovulması

Əsas heyətin oyunçusunun qovulması:

- Komandaların heyətlərinin təqdim edilməsindən əvvəl qovulmuş əsas heyətin oyunçusu, heç bir şəkildə matçın protokoluna daxil edilə bilməz
- Komandanın heyətində qeyd edildikdən sonra və başlanğıc zərbəsindən əvvəl qovulan əsas heyətin oyunçusu, ehtiyat oyunçu ilə əvəz edilə bilər, lakin həmin ehtiyat oyunçunun əvəzinə protokola başqa ehtiyat oyunçu daxil edilə bilməz; əvəzetmələrin sayı azaldılmır
- Başlanğıc zərbəsindən sonra qovulan əsas heyətin oyunçusu əvəz edilə bilməz

Başlanğıc zərbəsindən əvvəl və ya sonra qovulmuş ehtiyat oyunçu əvəz edilə bilməz.

### 7. Oyun meydanında artıq şəxslər

Matçın protokolunda komandanın məşqçisi və digər rəsmi şəxsi (əsas və ehtiyat oyunçular istisna olmaqla) kimi qeyd edilmiş şəxslər komandanın rəsmi şəxsləri hesab olunur. Matçın protokolunda əsas heyətin oyunçusu, ehtiyat oyunçu və ya komandanın rəsmi şəxsi kimi qeyd edilməmiş hər hansı şəxs, kənar şəxs sayılır

Əgər komandanın rəsmi şəxsi, ehtiyat oyunçusu, əvəz edilmiş oyunçusu, yaxud qovulmuş oyunçusu və ya kənar şəxs oyun meydanına daxil olursa, hakim:

- yalnız oyuna müdaxilə olan hallarda oyunu saxlayır
- oyun saxlanılan zaman həmin şəxsi meydandan uzaqlaşdırır
- müvafiq intizam tədbiri görür

Əgər oyun saxlanılmışsa və:

- oyuna komandanın rəsmi şəxsi, ehtiyat oyunçusu, əvəz edilmiş oyunçusu və ya qovulmuş oyunçusu tərəfindən müdaxilə edilmişsə, oyun cərimə zərbəsi və ya 11 metrlik zərbə ilə bərpa olunur
- oyuna kənar şəxs tərəfindən müdaxilə edilmişsə, oyun mübahisəli topla bərpa olunur

Əgər top qapıya daxil olursa və müdaxilə, müdafiə olunan komandanın oyunçusunun topa oynamasının qarşısını almırsa, qol qeydə alınır (hətta topa kontakt olsa belə), bir şərtlə ki, müdaxilə hücum edən komanda tərəfindən edilməsin.

## 8. Oyun meydanından kənarda olan oyunçu

Oyun meydanına qayıtmaq üçün hakimin icazəsinin tələb olunduğu hallarda, oyunçu hakimin icazəsi olmadan meydana qayıdırsa, hakim:

- oyunu saxlamalıdır (əgər oyunçu oyuna və ya matçın hakimlərinə müdaxilə etmirsə və ya üstünlük prinsipi tətbiq edilə bilərsə, oyun dərhal saxlanılmamalıdır)
- oyun meydanına icazəsiz daxil olduğu üçün oyunçuya xəbərdarlıq edilməlidir

Əgər hakim oyunu saxlayırsa, oyun aşağıdakı kimi bərpa olunmalıdır:

- müdaxilənin edildiyi yerdən sərbəst zərbə ilə
- əgər müdaxilə olmayıbsa, oyun saxlanılan anda topun olduğu yerdən sərbəst zərbə ilə

Oyun epizodunun davamı kimi meydanı məhdudlaşdıran xətti keçən oyunçu, qayda pozuntusu etmiş hesab olunmur.

### 9. Qol vurulan zaman oyun meydanında artıq şəxsin olması

Əgər qol vurulduqdan sonra, oyunun bərpa olunmasına qədər hakim, qol vurulan anda meydanda artıq şəxsin olduğunu aşkar edərsə:

- hakim qolu ləğv etməlidir, əgər artıq şəxs:
  - qol vuran komandanın əsas heyət oyunçusu, ehtiyat oyunçusu, əvəz edilmiş oyunçusu, qovulmuş oyunçusu və ya rəsmi şəxsidirsə; oyun artıq şəxsin olduğu yerdən cərimə zərbəsi ilə bərpa olunur
  - oyuna müdaxilə edən kənar şəxsdirsə, bir şərtlə ki, qol "oyun meydanında artıq şəxslər" bölməsində qeyd edilmiş nəticəyə səbəb olmasın
- hakim qolu qeydə almalıdır, əgər artıq şəxs:
  - qol buraxan komandanın əsas heyət oyunçusu, ehtiyat oyunçusu, əvəz edilmiş oyunçusu, qovulmuş oyunçusu və ya rəsmi şəxsidirsə
  - oyuna müdaxilə etməyən kənar şəxsdirsə

Bütün hallarda, hakim artıq şəxsi oyun meydanından uzaqlaşdırmalıdır.

Əgər qolun vurulmasından və oyunun bərpa edilməsindən sonra hakim, qol vurulan anda oyun meydanında artıq şəxsin olduğunu aşkar edərsə, qol ləğv edilə bilməz. Əgər artıq şəxs hələ də oyun meydanındadırsa, hakim:

- oyunu saxlamalıdır
- kənar şəxsi meydandan uzaqlaşdırmalıdır
- oyunu müvafiq olaraq mübahisəli topla və ya cərimə/sərbəst zərbə ilə bərpa etməlidir

Hakim insident haqqında müvafiq instansiyalara məlumat verməlidir.

### 10. Komandanın kapitanı

Komandanın kapitanı, oyunçuların davranışına görə müəyyən dərəcədə məsuliyyət istisna olmaqla, heç bir xüsusi statusa və ya imtiyaza malik deyil.


IFAB
REFEREE
2
KOREA

# Qayda

# 04

# Oyunçuların Geyimi

## 1. Təhlükəsizlik

Oyunçu, təhlükə törədən geyim geyinməməli və hər hansı təhlükəli əşya gəzdirməməlidir.

Bütün növ zinət əşyalarının (boyunbağı, üzük, sırğa, dəri və rezin lentlər və s.) istifadəsi qadağan edilir və onlar çıxarılmalıdır. Zinət əşyasının üzərini örtmək üçün yapışqan lentdən istifadə etməyə icazə verilmir.

Əsas oyunçular matçın başlanmasından əvvəl, ehtiyat oyunçular isə oyun meydanına daxil olmazdan əvvəl yoxlanılmalıdır. Əgər oyunçu icazə verilməyən/təhlükəli geyim geyinər və ya zinət əşyası gəzdirərsə, hakim:

- oyunçuya onu çıxarmaq göstərişi verməlidir
- əgər oyunçu bunu bacarmırsa, yaxud etmək istəmirsə, top növbəti dəfə oyundan çıxdıqda, oyunçuya oyun meydanını tərk etmək göstərişi verməlidir

Hakimin göstərişinə əməl etməkdən imtina edən və ya həmin geyimdən, yaxud əşyadan yenidən istifadə edən oyunçuya xəbərarlıq edilməlidir.

## 2. Məcburi geyim

Oyunçunun məcburi geyimi aşağıdakı elementlərdən ibarətdir:

- qolları olan köynək
- tuman
- corab – corabın üzərindən yapışdırılan lentin və ya hər hansı materialın rəngi corabın örtülən hissəsi ilə eyni rəngdə olmalıdır
- baldır qoruyucusu – onlar lazımi müdafiəni təmin etmək üçün müvafiq materialdan hazırlanmalı və corablarla örtülməlidir
- idman ayaqqabısı

Qapıçıların idman şalvarı geyinməsinə icazə verilir.

Ayaqqabısını və ya baldır qoruyucusunu təsadüfən itirən oyunçu, onları mümkün qədər tez və topun növbəti dəfə oyundan çıxmasını gözləmədən əvəz etməlidir; Əgər bunu etməzdən əvvəl oyunçu topa oynayır və qol vurursa, qol qeydə alınır.

### 3. Rənglər

- Komandalar bir-birindən və hakimlərdən fərqlənən rəngli geyimdən istifadə etməlidir
- Hər bir qapıçı, digər oyunçulardan və hakimlərdən fərqlənən rəngli geyimdən istifadə etməlidir
- Əgər hər iki qapıçının köynəyinin rəngi eynidirsə və onların heç birində ehtiyat köynək yoxdursa, hakim oyunun başlanmasına icazə verir

Köynək altlığı:

- köynəyin qollarının əsas rəngi ilə tək rəngdə olmalıdır

və ya

- köynəyin qolları ilə tamamilə eyni olan naxışa/rəngə malik olmalıdır

Tuman altlığının/tarımlaşdırılmış şalvarın rəngi tumanın və ya tumanın aşağı hissəsinin əsas rəngi ilə eyni olmalıdır – eyni komandanın oyunçuları eyni rəngdən istifadə etməlidirlər.

### 4. Digər geyim

Yumşaq, yüngül materialdan hazırlanmış baş geyimi, üz maskası, dizlik, dirsəklik kimi təhlükəli olmayan qoruyucu geyimlərin, həmçinin qapıçı papaqlarının və idman eynəklərinin istifadəsinə icazə verilir.

#### Baş geyimi

Əgər baş geyimindən (qapıçı papaqları istisna olmaqla) istifadə edilirsə, onlar:

- qara və ya köynəyin əsas rəngi ilə eyni rəngdə olmalıdır (bir şərtlə ki, eyni komandanın oyunçuları eyni rəngli baş geyimindən istifadə etsinlər)

- oyunçunun geyiminin peşəkar zahiri görünüşünə uyğun olmalıdır
- köynəyə birləşdirilməməlidir
- onu geyinən və yaxud hər hansı digər oyunçu üçün təhlükə törətməməlidir (məsələn, boynun ətrafında açılıb-bağlanan mexanizm)
- öz gövdəsindən kənara çıxan hər hansı hissəyə (çıxıntılı elementlər) malik olmamalıdır

**Elektron rabitə**

Oyunçuların (habelə ehtiyat oyunçuların/əvəz edilmiş oyunçuların və qovulmuş oyunçuların) elektron və ya rabitə sistemindən istifadə etməsinə icazə verilmir (EPTS-in icazə verildiyi hallar istisna olmaqla). Oyunçuların sağlamlığına və ya təhlükəsizliyinə birbaşa təsir edən hallarda, yaxud taktiki məqsədlərlə komandaların rəsmi şəxsləri tərəfindən hər hansı elektron rabitə sisteminin istifadə edilməsinə icazə verilir, lakin yalnız kiçik, mobil, əldə tutulan avadanlıqlardan (məs., mikrofon, qulaqcıq, mobil telefon, smart (ağıllı) saat, planşet, dizüstü komputer) istifadə edilə bilər. İcazə verilməyən avadanlıqdan istifadə edən və yaxud elektron və ya rabitə avadanlığından istifadə nəticəsində yolverilməz davranış nümayiş etdirən rəsmi şəxs qovulmalıdır.

**Elektron fəaliyyət və izləmə sistemləri (EPTS)**

FİFA-nın, konfederasiyaların və ya milli futbol assosiasiyalarının bayrağı altında təşkil edilən rəsmi yarışlar çərçivəsində keçirilən matçlarda elektron fəaliyyət və izləmə sistemlərinin (EPTS) tərkib hissəsi olaraq geyinilə bilən texnologiyadan istifadə edilərsə, yarışın təşkilatçısı oyunçuların geyiminə birləşdirilən texnologiyanın təhlükəli olmamasını və onun üzərində aşağıdakı nişanın olmasını təmin etməlidir:

IMS
INTERNATIONAL MATCH STANDARD™

Bu nişan onu göstərir ki, o rəsmi şəkildə sınaqdan keçirilib və FİFA tərəfindən tərtib edilmiş və BFAŞ tərəfindən təsdiq edilmiş Beynəlxalq Matç Standartının minimal təhlükəsizlik tələblərinə cavab verir. Sınaqları həyata keçirən təşkilatlar FİFA tərəfindən təsdiq edilir.

Elektron fəaliyyət və izləmə sistemlərindən (EPTS) istifadə edildiyi zaman (milli futbol assosiasiyasının/yarışın təşkilatçısının razılığı ilə) yarışın təşkilatçısı rəsmi yarış çərçivəsində keçirilən matçlar zamanı EPTS-dən texniki zonaya ötürülən məlumatların etibarlı və dəqiq olmasını təmin etməlidir.

Etibarlı və dəqiq elektron fəaliyyət və izləmə sistemlərinin təsdiq edilməsi prosesində yarış təşkilatçılarına dəstək vermək məqsədi ilə FİFA tərəfindən peşə etikası hazırlanmış və BFAŞ tərəfindən təsdiq edilmişdir.

Aşağıdakı nişan göstərir ki, "EPTS" qurğusu/sistemi rəsmi şəkildə sınaqdan keçirilib və meydanda mövqe məlumatlarının etibarlılığı və dəqiqliyi baxımdan tələbləri ödəyir:

FIFA® QUALITY

5. **Şüarlar, ifadələr, şəkillər və reklam**

Geyimin üzərində hər hansı siyasi, dini və ya fərdi şüarlar, ifadələr, yaxud şəkillər olmamalıdır. Oyunçular siyasi, dini, fərdi şüarlar, ifadələr və ya şəkillər, həmçinin istehsalçının loqosu istisna olmaqla, hər hansı reklam yerləşdirilən alt geyimlərini göstərməməlidirlər. Qeyd edilən qaydaları pozan oyunçu və ya komanda yarışın təşkilatçıları, milli futbol assosiasiyası və ya FİFA tərəfindən cəzalandırılacaq.

**Prinsiplər**

- Qayda 4 əsas heyətin oyunçuları, ehtiyat oyunçular və əvəz edilmiş oyunçular tərəfindən istifadə edilən bütün geyimlərə və avadanlıqlara şamil edilir; onun prinsipləri texniki zonadakı bütün rəsmi şəxslərə şamil edillir
- Aşağıdakılara (adətən) icazə verilir:
    - oyunçunun nömrəsi, adı, komandanın emblemi/loqosu, futbol oyununu, ehtiramı və bütövlüyü təbliğ edən şüarlar/emblemlər, həmçinin yarışın reqlamenti, yaxud milli assosiasiyanın, konfederasiyanın və ya FİFA-nın qaydaları ilə icazə verilən hər hansı reklam
    - matçın atributları: komandalar, tarix, yarış/tədbir, arena
- İcazə verilən şüarlar, ifadələr və ya şəkillər köynəyin qabağında və (yaxud) qol sarğısında yerləşdirilməlidir
- Bəzi hallarda şüar, ifadə və ya şəkil yalnız kapitan sarğısında yerləşdirilə bilər

## Qaydanın yozumu

Şüarın, ifadənin və ya şəkilin icazə verilən olub-olmadığını aydınlaşdırarkən Qayda 12-yə (Qayda Pozuntuları və İntizamsız Davranış) istinad edilməlidir ki, burada hakimin aşağıdakıları etməkdə təqsirkar olan oyunçulara qarşı tədbir görməsi tələb olunur:

- təhqiredici, ləyaqətsiz, yaxud qeyri-etik ifadələr işlədər və hərəkətlər etmək
- əsəbləşdirici, yaxud təhrikedici xarakter daşıyan jestlər və ya hərəkətlər etmək

Bu kateqoriyaların hər hansı birinə daxil olan istənilən şüar, ifadə və ya şəkilin istifadəsinə icazə verilmir.

Dini və şəxsi elementlər asanlıqla müəyyən edildiyi halda, siyasi elementlər nisbətən aydın olmur, lakin aşağıdakılara aid olan şüarlar, ifadələr və ya şəkillərin istifadəsinə icazə verilmir:

- sağ və ya vəfat etmiş hər hansı şəxs(lər) (yarışın rəsmi adının tərkib hissəsi olduğu hallar istisna olmaqla)
- hər hansı yerli, regional, milli və ya beynəlxalq siyasi partiya/təşkilat/qrup və s.
- hər hansı yerli, regional və ya milli hökumət, yaxud onun hər hansı şöbəsi, idarəsi və ya bölməsi
- fəaliyyəti ayrıseçkilik ifadə edən hər hansı təşkilat
- məqsədi/fəaliyyəti kifayət sayda insanı təhqir edə biləcək hər hansı təşkilat
- hər hansı xüsusi siyasi əməl/tədbir

Əhəmiyyətli milli və ya beynəlxalq tədbirin təntənəli şəkildə qeyd edilməsi zamanı rəqib komandanın (habelə onun tərəfdarlarının) və ümumi ictimaiyyətin həssas cəhətləri diqqətlə nəzərə alınmalıdır.

Yarışın reqlamentində xüsusi ilə icazə verilən şüarların, ifadələrin və şəkillərin ölçüsü, sayı və yeri ilə əlaqədar əlavə məhdudiyyətlər müəyyən edilə bilər. Şüarlara, ifadələrə və ya şəkillərə dair mübahisələrin matçın/yarışın başlanmasından əvvəl həll edilməsi tövsiyə edilir.

## 6. Pozuntular və cəzalar

Bu Qaydanın hər hansı şəkildə pozulmasına görə oyunun saxlanılmasına ehtiyac yoxdur və:

- oyunçuya, geyimini qaydaya salmaq üçün hakim tərəfindən oyun meydanını tərk etmək göstərişi verilir
- top növbəti dəfə oyundan çıxdıqda, əgər oyunçu geyimini hələ də qaydaya salmayıbsa, o, meydanı tərk edir

Geyimini qaydaya salmaq və ya dəyişmək üçün oyun meydanını tərk etmiş oyunçu:

- meydana qayıtmazdan əvvəl onun geyimi hakimlərin biri tərəfindən yoxlanılmalıdır
- yalnız baş hakimin icazəsi ilə meydana qayıda bilər (icazə, həmçinin topun oyun olduğu zaman da verilə bilər)

İcazəsiz meydana daxil olan oyunçuya xəbərdarlıq edilməlidir və əgər oyun xəbərdarlıq etmək üçün saxlanılmışdırsa, oyun saxlanılan anda topun olduğu yerdən sərbəst zərbə təyin edilir. Lakin əgər oyuna müdaxilə olmuşdursa, müdaxilənin olduğu yerdən cərimə zərbəsi (və ya 11 metrlik zərbə) təyin edilir.


IFAB®
adidas
adidas

# Qayda

# 05

IFAB

# Baş Hakim

**1. Hakimin səlahiyyəti**

Hər bir matç, Oyun Qaydalarını tətbiq etmək üçün tam səlahiyyətə malik hakim tərəfindən idarə olunur.

**2. Hakimin qərarları**

Qərarlar, Oyun Qaydalarına və “oyunun ruhu”na uyğun olaraq hakimin maksimal bacarığı çərçivəsində verilməli və Oyun Qaydaları çərçivəsində müvafiq tədbirlər görmək səlahiyyətinə malik hakimin fikrinə əsaslanmalıdır.

Oyunla, habelə qolun qeydə alınıb-alınmaması və matçın nəticəsi ilə bağlı hakim tərəfindən verilmiş qərarlar qətidir. Baş hakimin və matçın digər hakimlərinin qərarlarına hər zaman hörmətlə yanaşılmalıdır.

Əgər oyun bərpa edilmişsə, yaxud hakim birinci və ya ikinci hissənin (habelə əlavə vaxtın) başa çatdığını bildirən işarə vermiş və oyun meydanını tərk etmişsə, yaxud matçı təxirə salmışsa, hakim, qərarının yanlış olduğunu anlayaraq və ya digər hakimlərin məsləhəti ilə oyunun bərpası ilə bağlı qərarını dəyişə bilməz. Bununla belə, əgər hissənin sonunda hakim video-təkrara baxış zonasına yaxınlaşmaq və yaxud oyunçuların oyun meydanına qayıtmasına göstəriş vermək üçün oyun meydanını tərk edirsə, bu, hissənin başa çatmasına qədər baş vermiş insidentə görə qərarın dəyişdirilməsinin qarşısını almır.

Qayda 12-nin 3-cü bəndində və "VAR"-ın iş prosesində müəyyən edilmiş hallar istisna olmaqla, əgər oyunun bərpa edilməsinə qədər matçın hakimlərindən digər biri qayda pozuntusunu aşkar etmiş və bunu baş hakimə bildirməyə cəhd etmişsə, oyunun bərpa edilməsindən sonra yalnız intizam sanksiyası tətbiq edilə bilər; sanksiyaya uyğun bərpa üsulu tətbiq edilmir.

Əgər baş hakim vəzifəsini yerinə yetirmək iqtidarında deyilsə, topun növbəti dəfə oyundan çıxmasına qədər oyun digər hakimlərin nəzarəti altında davam etdirilə bilər.

## 3. Hüquq və vəzifələri

Baş hakim:

- Oyun Qaydalarını tətbiq edir
- matçın digər hakimləri ilə birlikdə matçı idarə edir
- oyunun xronometrajını və matçda qeydlər aparır, həmçinin intizam tədbirləri və matçdan əvvəl, matç zamanı və matçdan sonra baş verən hər hansı digər insident barədə məlumatı əhatə edən matç protokolunu müvafiq instansiyalara təqdim edir
- oyunun bərpasına nəzarət edir və ya göstəriş verir

**Üstünlük**

- qayda pozuntusu baş verərkən oyunu davam etdirir və qayda pozuntusuna məruz qalmış komandanın üstünlükdən yararlanmasına imkan yaradır və gözlənilən üstünlük həmin vaxt və ya bir neçə saniyə ərzində nəticə vermirsə, qayda pozuntusunu qeydə alır

**İntizam tədbiri**

- eyni zamanda bir neçə qayda pozuntusu baş verərsə, sanksiya, bərpa, fiziki kobudluq və taktiki təsir baxımdan daha ciddi qayda pozuntusunu qeydə alır
- xəbərdarlıq və qovulma ilə cəzalandırılan qayda pozuntularında təqsirli olan oyunçulara qarşı intizam tədbirləri görür
- matçöncəsi yoxlama üçün oyun meydanına daxil olduğu andan matç (habelə 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr) başa çatdıqdan sonra oyun meydanını tərk etdiyi ana qədər intizam tədbiri görmək səlahiyyətinə malikdir. Əgər matçın başlanğıcında oyun meydanına daxil olmazdan əvvəl oyunçu qovulma ilə cəzalandırılan pozuntu edərsə, hakim, oyunçunun matçda iştirak etməsinin qarşısını almaq səlahiyyətinə malikdir (bax: Qayda 3.6); hakim hər hansı digər intizamsız davranış barədə məlumat verməlidir.
- matçdan əvvəl oyun meydanına daxil olduğu andan matçın başa çatmasına qədər, habelə hissələr arasındakı fasilə, əlavə vaxt və 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr zamanı sarı və ya qırmızı vərəqə göstərmək, və yarışın reqlamenti ilə icazə verilən hallarda, oyunçunu meydandan müvəqqəti qovmaq hüququna malikdir

- özlərini nəzakətsiz aparan rəsmi şəxslərə qarşı tədbirlər görür, şifahi xəbərdarlıq edir, yaxud sarı vərəqə göstərərək rəsmi xəbədarlıq edir və ya qırmızı vərəqə göstərərək onları oyun meydanından və onu əhatə edən ərazidən, o cümlədən texniki zonadan uzaqlaşdırır; əgər təqsirkarı müəyyən etmək mümkün deyilsə, sanksiya texniki zonada olan baş məşqçiyə tətbiq edilməlidir.Əgər komandanın əlavə tibbi nümayəndəsi yoxdursa, qovulma ilə cəzalandırılmalı olan davranış göstərən tibbi nümayəndə texniki zonada qala və ehtiyac yarandıqda oyunçuya tibbi müdaxilə göstərə bilər
- özünün görmədiyi insidentlər zamanı digər hakimlərin tövsiyəsi ilə hərəkət edir

**Zədələr**

- oyunçu yüngül zədə alıbsa, topun oyundan çıxmasına qədər oyunun davam etdirilməsinə imkan verir
- oyunçu ciddi zədə alıbsa, oyunu saxlayır və oyunçunun oyun meydanından çıxarılmasını təmin edir. Zədələnmiş oyunçuya oyun meydanında tibbi müdaxilə etməyə icazə verilmir və o, meydana yalnız oyunun bərpa edilməsindən sonra qayıda bilər; əgər top oyundadırsa, oyunçu meydana yan xətdən daxil olmalıdır, lakin əgər top oyunda deyilsə, oyunçu meydana istənilən məhdudlaşdırıcı xətdən daxil ola bilər.  Oyun meydanını tərk etmək tələbi üzrə istisnalar yalnız aşağıdakılardır:
    - qapıçı zədələnir
    - qapıçı və meydan oyunçusu toqquşur və kömək tələb olunur
    - eyni komandanın oyunçuları toqquşur və kömək tələb olunur
    - oyunçu ciddi zədə alır
    - oyunçu, xəbərdarlıq və ya qovulma ilə cəzalanan fiziki qayda pozuntusu (məsələn, ehtiyatsız və ya ciddi qayda pozuntusu) nəticəsində zədələnir, əgər tibbi baxış/müdaxilə tez bir zamanda tamamlanırsa
    - 11 metrlik zərbə təyin edilib və zərbəni zədələnən oyunçu yerinə yetirməlidir
- qanaxmaya məruz qalan oyunçunun oyun meydanını tərk etməsini təmin edir. Hakim qanaxmanın kəsildiyinə və geyimdə qan ləkəsinin olmamasına əmin olduqdan sonra oyunçunun meydana qayıtmasına icazə verir

- əgər hakim həkimlərin və ya xərəkdaşıyanların oyun meydanına daxil olmasına icazə vermişsə, oyunçu meydanı xərəkdə və ya sərbəst şəkildə tərk etməlidir. Əgər oyunçu bunu etmirsə, ona qeyri-idman hərəkətinə görə xəbərdarlıq edilməlidir
- əgər hakim, zədələnib tibbi yardım almaq üçün oyun meydanını tərk etmək məcburiyyətində qalan oyunçuya sarı və ya qırmızı vərəqə göstərmək qərarına gəlibsə, bunu oyunçunun meydanı tərk etməsinə qədər etməlidir
- əgər oyunçunun zədələnməsi Oyun Qaydalarının pozulması nəticəsində baş verməyibsə və əgər burada oyun başqa bir səbəbdən saxlanılmayıbsa, oyun mübahisəli topla bərpa olunur

**Kənar müdaxilə**

- Qaydaların hər hansı şəkildə pozulmasına, yaxud kənar müdaxiləyə görə matçı saxlayır, müvəqqəti dayandırır və ya tamamilə bitirir, məsələn:
  - işıqlandırma qənaətbəxş deyil
  - tamaşaçılar tərəfindən atılan əşya matçın hakimlərindən birinə, komandanın oyunçusuna və ya rəsmi şəxsinə dəyir. Bu halda hakim insidentin ciddiliyindən asılı olaraq, matçı davam etdirə, saxlaya, müvəqqəti dayandıra və ya tamamilə bitirə bilər
  - tamaşaçılardan biri fit səsləndirərək oyuna müdaxilə edirsə – oyun saxlanılır və mübahisəli topla bərpa olunur
  - matç zamanı oyun meydanına əlavə top, digər əşya və ya heyvan daxil olursa, hakim:
    - əgər onlar oyuna müdaxilə edirsə, oyunu saxlayır (və mübahisəli topla bərpa edir), bir şərtlə ki, top qapıya daxil olmur və müdaxilə, müdafiə olunan komandanın oyunçusunun topa oynamasının qarşısını almır. Lakin əgər top qapıya daxil olursa (hətta topa kontakt olsa belə), qol qeydə alınır, bir şərtlə ki, <u>müdaxilə hücum edən komanda tərəfindən edilməsin.</u>
    - əgər onlar oyuna müdaxilə etmirsə, onları mümkün qədər tez bir zamanda meydandan uzaqlaşdırır.
- icazə verilməyən şəxslərin oyun meydanına daxil olmasının qarşısını alır

### 4. Video köməkçi hakim ("VAR")

Video köməkçi hakimlərin ("VAR") təyin edilməsinə yalnız o zaman icazə verilir ki, matçın/yarışın təşkiatçısı "VAR"-ın iş prosesi və tətbiq edilməsi tələblərinə ("VAR" Kitabçasında müəyyən edilmiş) cavab verir, həmçinin BFAŞ-dan və FİFA-dan yazılı razılıq almışdır.

Video köməkçi hakim ("VAR") yalnız aşağıdakı məqamlarla bağlı aşkar səhv və ya gözdən yayınan ciddi insident zamanı hakimə kömək edə bilər:

- Qolun qeydə alınıb-alınmaması
- 11 metrlik zərbənin təyin edilib-edilməməsi
- birbaşa qırmızı vərəqə (ikinci xəbərdarlıq deyil)
- hakim qaydanı pozan komandanın yanlış oyunçusuna xəbərdarlıq etdikdə və ya onu qovduqda

Video köməkçi hakim ("VAR") tərəfindən kömək insidentin video təkrarını nəzərdə tutur. Hakim yekun qərarı video köməkçi hakimdən aldığı məlumat əsasında və (yaxud) birbaşa meydandan kənarda video-təkrara baxmaqla verə bilər.

Gözdən yayınan ciddi insidentlər istisna olmaqla, baş hakim (və matçın meydanda olan digər hakimləri) hər zaman qərar verməlidirlər (potensial qayda pozuntusunu cəzalandırmamaq qərarı daxil olmaqla); bu qərar aşkar səhv olmadığı təqdirdə dəyişmir.

#### Oyunun bərpa edilməsindən sonra video-təkrara baxış

Əgər oyun dayandırılmış və bərpa edilmişsə, hakim video-təkrara müraciət edə, lakin yalnız yanlış oyunçuya göstərilmiş vərəqə və yaxud aqressiv davranış, tüpürmək, dişləmək və ya həddən artıq təhqiredici və ya nalayiq hərəkətlərə görə potensial qovulma ilə əlaqədar müvafiq intizam tədbiri görə bilər.

### 5. Hakimin avadanlığı

#### Məcburi avadanlıq

Hakimlər aşağıdakı avadanlıqlara malik olmalıdırlar:

- Fit(lər)
- Saat(lar)
- Qırmızı və sarı vərəqələr

- Qeyd kitabçası (və ya matçda qeydlər aparmaq üçün digər vasitələr)

**Digər avadanlıq**
Hakimlərin aşağıdakı avadanlıqlardan istifadə etməsinə icazə verilə bilər:

- Matçın digər hakimləri ilə əlaqə saxlamaq üçün avadanlıq – səs siqnalı/bip bayraqlar, mikrofonlar və s
- "EPTS" və ya fitnes nəzarət avadanlığı

Baş hakimlərə və meydanda olan digər hakimlərə zinət əşyası gəzdirmək və ya kameralar da daxil olmaqla, hər hansı digər elektron avadanlıqdan istifadə etmək qadağan edilir.

## 6. Hakimin işarələri

**Təsdiq edilmiş hakim işarələrinə istinad edilməlidir.**



Sərbəst zərbə



Cərimə zərbəsi



**Üstünlük** (1)



**Üstünlük** (2)



**Küncdən zərbə**



**Qapıdan zərbə**



Qırmızı və Sarı vərəqə



11 metrlik zərbə



**Epizodun Yoxlanması**
- barmaq qulaqda, digər əl/qol açıq vəziyyətdə



**Video-təkrara Baxış**

### 7. Matçın hakimlərinin məsuliyyəti

Baş hakim və ya digər hakimlər məsuliyyət daşımır:

- oyunçu, rəsmi şəxs və ya tamaşaçının aldığı zədəyə görə
- hər hansı avadanlığa dəymiş ziyana görə
- Oyun Qaydalarının tələblərinə müvafiq olaraq matçın təşkili, keçirilməsi və idarə edilməsi ilə bağlı çıxarılan qərar nəticəsində hər hansı şəxsə, kluba, müəssisəyə, assosiasiyaya və ya digər təşkilatlara dəymiş ziyana görə

Bu cür qərarlara aşağıdakılar daxil ola bilər:

- oyun meydanının, yaxud onu əhatə edən ərazinin və ya hava şəraitinin, matçın keçirilməsi üçün əlverişli olub-olmaması barədə çıxarılan qərar
- hər hansı səbəbə görə matçın dayandırılması haqqında çıxarılan qərar
- matç ərzində istifadə olunan avadanlığın və topun əlverişli olub-olmaması barədə çıxarılan qərar
- tamaşaçıların oyuna müdaxiləsi və ya tribunada yaranan hər hansı problemlə əlaqədar matçın saxlanılıb-saxlanılmaması barədə çıxarılan qərar
- yardım göstərilməsi məqsədi ilə, zədələnmiş oyunçunun oyun meydanından çıxarılması üçün oyunun saxlanılıb-saxlanılmaması barədə çıxarılan qərar
- yardım göstərilməsi məqsədi ilə, zədələnmiş oyunçunun oyun meydanından çıxarılmasının tələb edilməsi barədə çıxarılan qərar
- oyunçuya hər hansı geyimi geyinmək üçün icazənin verilib-verilməməsi barədə çıxarılan qərar
- hakimin səlahiyyəti çərçivəsində, hər hansı şəxsin (habelə, komandanın, yaxud stadionun rəsmi şəxsləri, təhlükəsizlik əməkdaşları, fotoqraflar və ya kütləvi informasiya vasitələrinin digər nümayəndələri) oyun meydanını əhatə edən ərazidə dayanması üçün icazənin verilib-verilməməsi barədə çıxarılan qərar
- Oyun Qaydalarına müvafiq və yaxud FİFA-nın, konfederasiyanın, milli futbol assosiasiyasının və ya yarışın reqlamentinin şərtləri çərçivəsində çıxarılan hər hansı qərar

# Qayda

# 06

# Matçın Digər Hakimləri

Matçın digər hakimləri (hakimin iki köməkçisi, dördüncü hakim, iki əlavə köməkçi hakim, ehtiyat köməkçi hakim, video köməkçi hakim ("VAR") və video köməkçi hakimin ən azı bir köməkçisi ("AVAR") təyin edilə bilər. Onlar baş hakimə matçı Oyun Qaydalarına uyğun olaraq idarə etməkdə kömək edirlər, lakin yekun qərar hər zaman baş hakimə məxsusdur.

Baş hakim, hakimin köməkçiləri, dördüncü hakim, əlavə köməkçi hakim və ehtiyat köməkçi hakim matçın meydanda olan hakimləridirlər.

Video köməkçi hakim ("VAR") və onun köməkçisi ("AVAR") matçın video hakimləridirlər və BFAŞ tərəfindən müəyyən edilmiş "VAR"-ın iş prosesinə uyğun olaraq hakimə kömək edirlər.

Matçın digər hakimləri baş hakimin göstərişi ilə hərəkət edirlər. Əsassız müdaxilə və nəzakətsiz davranışa görə baş hakim onları öz funksiyalarını yerinə yetirməkdən azad edir və müvafiq instansiyalara məlumat verir.

Ehtiyat köməkçi hakim istisna olmaqla, qayda pozuntularını və ya intizamsız davranışı daha yaxşı görən matçın digər hakimləri baş hakimə kömək edirlər. Onlar baş hakimin gözündən yayınan ciddi intizamsız davranış və ya digər insidentlər barədə müvafiq instansiyalara raport təqdim edirlər. Onlar hər hansı raportun hazırlanması zamanı baş hakimlə məsləhətləşirlər.

Matçın meydanda olan hakimləri oyun meydanının, topların və oyunçuların geyiminin (habelə, problemlərin həll edilməsi ilə bağlı) yoxlanılmasında, həmçinin matçın vaxtı, qollar, intizamsız davranış və s. qeydlərin aparılmasında baş hakimə kömək edirlər.

Yarışın reqlamentində, vəzifəsini yerinə yetirmək iqtidarında olmayan hakimlərdən birini kimin əvəz edəcəyi aydın şəkildə göstərilməlidir. Xüsusi ilə, öz vəzifəsini davam etdirmək iqtidarında olmayan baş hakimi kimin əvəz edəcəyi aydın şəkildə qeyd edilməlidir: dördüncü hakim, hakimin birinci köməkçisi və ya birinci əlavə köməkçi hakim.

## 1. Hakimin köməkçiləri

Onlar işarə verirlər:

- topun oyun meydanını tam tərk etməsini və hansı komandanın küncdən zərbə, qapıdan zərbə yerinə yetirməli və ya topu yan xətdən oyuna daxil etməli olduğunu
- “oyundankənar” vəziyyətdə olan oyunçunun cəzalandırılmasını
- əvəzetmənin tələb edildiyini
- 11 metrlik zərbə yerinə yetirilərkən qapıçının topa zərbə endirilənə qədər irəli hərəkət etməsini və topun xətti keçməsini; əgər əlavə köməkçi hakim təyin edilmişdirsə, hakimin köməkçisi 11 metrlik nöqtə ilə eyni xətdə mövqe tutur

Hakimin köməkçisi, həmçinin əvəzetmə proseduruna nəzarət edir.

Hakimin köməkçisi 9.15 m (10 yard) məsafəyə nəzarət etmək üçün oyun meydanına daxil ola bilər.

## 2. Dördüncü hakim

Dördüncü hakimin vəzifələrinə daxildir:

- əvəzetmə proseduruna nəzarət etmək
- əsas və ehtiyat oyunçuların geyimini yoxlamaq
- baş hakimin işarəsindən/razılığından sonra oyunçunun meydana qayıtmasına icazə vermək
- topların dəyişdirilməsinə nəzarət etmək
- hər bir hissənin (habelə əlavə vaxtın) sonunda baş hakimin əlavə etdiyi minimal vaxtı göstərmək
- texniki zonada yerləşən hər hansı şəxsin nəzakətsiz davranışı barədə baş hakimi məlumatlandırmaq

### 3. Əlavə köməkçi hakimlər

Əlavə köməkçi hakimlər işarə verirlər:

- topun qapı xəttini tam keçməsini, həmçinin qolun vurulmasını
- hansı komandanın küncdən zərbə və ya qapıdan zərbə yerinə yetirməli olduğunu
- 11 metrlik zərbə yerinə yetirilərkən qapıçının topa zərbə endirilənə qədər irəli hərəkət etməsini və əgər topun xətti keçməsini

### 4. Ehtiyat köməkçi hakim

Ehtiyat köməkçi hakimin yeganə vəzifəsi öz vəzifəsini yerinə yetirmək iqtidarında olmayan hakimin köməkçisini və ya dördüncü hakimi əvəz etməkdir.

### 5. Matçın video hakimləri

Video köməkçi hakim ("VAR") qolun qeydə alınıb-alınmaması, 11 metrlik zərbənin təyin edilib-edilməməsi, birbaşa qırmızı vərəqə, yaxud qaydanı pozan komandanın yanlış oyunçusunun xəbərdarlıq və ya qovulma ilə cəzalandırılması ilə bağlı aşkar səhv və ya gözdən yayınan ciddi insident baş verdikdə video-təkrardan istifadə edərək baş hakimin qərar verməsinə kömək edən hakimdir.

Video köməkçi hakimin köməkçisi ("AVAR") video köməkçi hakimə ("VAR") kömək etmək üçün əsasən aşağıdakıları edir:

- video köməkçi hakim ("VAR") epizodu yoxlamaqla və ya video-təkrara baxmaqla məşğul olduğu zaman televiziya yayımını izləyir
- video köməkçi hakimlə ("VAR") bağlı insidentləri və hər hansı rabitə və ya texnologiya problemlərini qeydə alır
- video köməkçi hakimin ("VAR") baş hakimlə əlaqə saxlamasına kömək edir, xüsusilə video köməkçi hakim ("VAR") epizodu yoxlayarkən/video-təkrarı izləyərkən baş hakimlə əlaqə saxlayaraq ondan oyunu dayandırmasını və ya oyunun bərpasını ləngitməsini və s. istəyir.
- epizodun yoxlanması və ya təkrarın izlənilməsi zamanı nə qədər vaxtın itirildiyini qeyd edir
- video köməkçi hakimlə ("VAR") bağlı qərar barədə məlumatı müvafiq orqanlara bildirir

## 6. Hakimin köməkçisinin işarələri



Əvəzetmə




Hücum edən komandanın lehinə cərimə/sərbəst zərbə




Müdafiə olunan komandanın lehinə cərimə/sərbəst zərbə



Hücum edən komandanın topu yan xətdən oyuna daxil etməsi



Müdafiə olunan komandanın topu yan xətdən oyuna daxil etməsi



Küncdən zərbə



Qapıdan zərbə




"Oyundankənar" vəziyyət




Meydanın yaxın nöqtəsində
"oyundankənar" vəziyyət




Meydanın orta nöqtəsində
"oyundankənar" vəziyyət




Meydanın yaxın nöqtəsində
"oyundankənar" vəziyyət

IFAB

7. Əlavə hakim köməkçisinin işarələri



**Qol**
(topun qapı xəttini aşkar şəkildə keçdiyi hallar istisna olmaqla)

# Qayda

# 07

# Matçın Davamiyyəti

1. **Oyunun hissələri**
   Matç, hər biri 45 dəqiqə davam edən iki bərabər hissədən ibarətdir. Hissələrin davamiyyəti yalnız, matçın başlamasından əvvəl hakim və komandalar arasında əldə edilmiş razılığa əsasən və yarışın reqlamentinə uyğun olaraq azaldıla bilər.

2. **Hissələr arasında fasilə**
   Oyunçular hissələr arasında 15 dəqiqədən çox olmayan fasilə hüququna malikdirlər; əlavə vaxtın hissələri arasında kiçik su fasiləsinə icazə verilir (1 dəqiqədən artıq olmamaq şərti ilə). Yarışın reqlamentində hissələr arasındakı fasilənin müddəti göstərilməlidir və o yalnız hakimin razılığı ilə dəyişdirilə bilər.

3. **Artırılmış vaxt**
   Hər hansı hissə ərzində, aşağıdakı səbəblərdən itirilmiş vaxt hakim tərəfindən həmin hissənin davamiyyətinə əlavə edilir:

   - əvəzetmələr
   - zədələnmiş oyunçunun zədəsinin qiymətləndirilməsi və ya onun meydandan çıxarılması
   - vaxtın uzadılması
   - intizam tədbirləri
   - yarışın reqlamenti ilə icazə verilən tibbi xarakterli fasilələr, məsələn su fasiləsi (bir dəqiqədən artıq olmamaqla) və dincəlmə fasiləsi (doxsan saniyədən üç dəqiqəyə qədər)
   - video köməkçi hakimin ("VAR") epizodu yoxlaması və ya təkrara baxması ilə bağlı yaranan gecikmələr
   - oyunun bərpası zamanı hər hansı əhəmiyyətli gecikmə (məsələn, qolun bayram edilməsi) daxil olmaqla, hər hansı digər səbəb

Dördüncü hakim hər bir hissənin sonuncu dəqiqəsində, baş hakim tərəfindən əlavə edilmiş minimal vaxtı göstərir. Əlavə edilmiş vaxt hakim tərəfindən artırıla bilər, lakin azaldıla bilməz.

Hakim birinci hissənin vaxtı ilə bağlı buraxılan səhvi ikinci hissənin davamiyyətini dəyişməklə kompensasiya edə bilməz.

4. **11 metrlik zərbə**
   11 metrlik zərbənin yerinə yetirilməsi və ya təkrar edilməsi üçün müvafiq hissənin müddəti artırılır.

5. **Başa çatdırılmamış matç**
   Yarışın reqlamenti ilə və ya təşkilatçılar tərəfindən başqa hal nəzərdə tutulmayıbsa, başa çatdırılmamış matç yenidən keçirilir.


IFAB
FIFA
FIFA.com
SONY
CBF
17
BRASIL
playerescort

IFAB

# Qayda 08

# Oyunun Başlanması və Bərpası

Matçın və əlavə vaxtın hər iki hissəsi başlanğıc zərbəsi ilə başlanır və qol vurulduqdan sonra oyun başlanğıc zərbəsi ilə bərpa olunur. Cərimə zərbəsi, sərbəst zərbə, 11 metrlik zərbə, topun yan xətdən oyuna daxil edilməsi, qapıdan zərbə və küncdən zərbə digər bərpa üsullarıdır (bax: Qayda 13 – 17). Əgər hakim oyunu saxlayırsa və Qayda yuxarıdakı bərpa üsullarından heç birini tələb etmirsə, oyun mübahisəli topla bərpa olunur.

Əgər pozuntu, top oyunda olmadıqda baş verirsə, bu, oyunun bərpa üsulunu dəyişmir.

## 1. Başlanğıc zərbəsi

**Prosedur**

- püşkatmada qalib gələn komanda, birinci hissədəhücum edəcəyi qapını, yaxud başlanğıc zərbəsini yerinə yetirəcəyini seçir
- yuxarıda qeyd edilən seçimdən asılı olaraq, rəqib komanda başlanğıc zərbəsini yerinə yetirir və ya birinci hissə ərzində hücum edəcəyi qapını seçir
- birinci hissə ərzində hücum edəcəyi qapını seçən komanda ikinci hissədə başlanğıc zərbəsini yerinə yetirir
- İkinci hissədə komandalar qapıları dəyişir və əks qapılara hücum edirlər
- komandalardan birinin qol vurmasından sonra başlanğıc zərbəsi digər komanda tərəfindən yerinə yetirilir.

Hər bir başlanğıc zərbəsi zamanı:

- başlanğıc zərbəsini yerinə yetirən oyunçu istisna olmaqla, bütün oyunçular meydanın özlərinə aid hissəsində olmalıdırlar
- başlanğıc zərbəsini yerinə yetirmək hüququ qazanan komandaya rəqib oyunçular topun oyuna daxil edilməsinə qədər ondan 9.15 m (10 yard) məsafədə olmalıdırlar
- top mərkəz nöqtəsində hərəkətsiz vəziyyətdə olmalıdır
- hakim işarə verir

- topa zərbə endirildikdə və top aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır.
- başlanğıc zərbəsindən birbaşa rəqib komandanın qapısına vurulan qol qeydə alınır; əgər top birbaşa başlanğıc zərbəni yerinə yetirən oyunçunun qapısına daxil olarsa, küncdən zərbə təyin olunur

**Pozuntular və cəzalar**

Əgər başlanğıc zərbəsini yerinə yetirən oyunçu, topa, digər oyunçunun toxunmasından əvvəl yenidən ayaqla toxunarsa sərbəst zərbə, topa əllə oynayarsa cərimə zərbəsi təyin olunur.

Başlanğıc zərbəsi proseduru hər hansı digər şəkildə pozularsa, başlanğıc zərbəsi təkrar olunur.

2. **"Mübahisəli top"**

**Prosedur**

- Top cərimə meydanında müdafiə olunan komandanın qapıçısı üçün yerə atılır, əgər oyun saxlanılan zaman:
    - top cərimə meydanında olmuşdur və ya
    - topa sonuncu toxunuş cərimə meydanında olmuşdur
- Digər bütün hallarda, hakim topu, onun sonuncu dəfə oyunçuya, kənar əşyaya və yaxud, Qayda 9-un 1-ci bəndində qeyd edildiyi kimi, matçın hakimlərindən birinə toxunduğu yerdə, topa sonuncu dəfə toxunmuş komandanın bir oyunçusu üçün yerə atır
- Digər bütün oyunçular (hər iki komandanın) topun oyuna daxil edilməsinə qədər topdan ən azı 4 m (4.5 yard) məsafədə olmalıdırlar

Top yer səthinə toxunduqda oyunda hesab olunur.

**Pozuntular və cəzalar**

"Mübahisəli top" yenidən atılır:

- top yer səthinə toxunmazdan əvvəl oyunçu topa toxunarsa
- top yer səthinə toxunduqdan sonra heç bir oyunçuya toxunmadan meydanı tərk edərsə

Əgər "mübahisəli top" atılarkən top ən azı iki oyunçuya toxunmadan qapıya daxil olarsa:

- əgər top rəqib komandanın qapısına daxil olarsa, qapıdan zərbə təyin edilir
- əgər top komandanın öz qapısına daxil olarsa, küncdən zərbə təyin edilir


adidas
7
adidas
SvFF

IFAB

# Qayda

# 09

# Topun Oyunda Olması və Olmaması

**1. Top oyunda deyil**

Top oyundan çıxmış hesab edilir:

- top qapı xəttini, yaxud yan xətti yerlə və ya hava ilə tam keçirsə
- oyun hakim tərəfindən saxlanılırsa
- top matçın hakimlərindən birinə toxunduqdan sonra oyun meydanında qalır və:
    - komanda perspektivli hücuma başlayırsa və ya
    - top birbaşa qapıya istiqamətlənirsə və ya
    - top digər komandanın nəzarətinə keçirsə

Bütün bu hallarda, oyun "mübahisəli top"la bərpa olunur.

**2. Top oyundadır**

Topun matçın hakimlərinə toxunduğu və qapı dirəyindən, qapı tirindən və ya künc bayrağından qayıdaraq meydanda qaldığı bütün digər hallarda top oyunda hesab edilir.

# Qayda 10

IFAB

# Matçın Nəticəsinin Müəyyən Edilməsi

## 1. Qolun vurulması

Top qapı xəttini dirəklərin arasından və tirin altından tam keçibsə və qolu vuran komanda Oyun Qaydalarını pozmayıbsa, qol qeydə alınır.

Əgər qapıçı topu əli ilə birbaşa rəqib komandanın qapısına atarsa, qapıdan zərbə təyin olunur

Əgər topun qapı xəttini tam keçməsi anına qədər hakim səhvən qolun vurulduğuna işarə edərsə, oyun "mübahisəli top"la bərpa olunur.

## 2. Qalib komanda

Matç ərzində daha çox qol vuran komanda qalib sayılır. Əgər hər iki komanda bərabər sayda qol vurarsa və ya əgər qol vurulmazsa, matç heç-heçə nəticəsi ilə başa çatır.

Yarışın reqlamentində, heç-heçə başa çatan matçın qalibini, yaxud evdə və səfərdə keçirilən matçların ümumi qalibini müəyyən etmək tələb olunursa, yalnız aşağıdakı prosedurların tətbiq edilməsinə icazə verilir:

- Rəqib meydanında vurulan qol qaydası
- hər biri 15 dəqiqədən çox olmayan iki bərabər əlavə vaxt hissəsi
- 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr

Yuxarıda qeyd edilən prosedurların birləşməsindən istifadə edilə bilər.

## 3. 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr

11 metrlik nöqtədən yerinə yetirilən zərbələr matç başa çatdıqdan sonra həyata keçirilir və başqa hal nəzərdə tutulmayıbsa, müvafiq Oyun Qaydaları tətbiq olunur.


Qol
Qol deyil
Qol deyil
Qol
qapı
xətti
qapı
xətti

## Prosedur

### 11 metrlik nöqtədən yerinə yetirilən zərbələrdən əvvəl

- Başqa halları (meydanın vəziyyəti, təhlükəsizlik və s.) nəzərə almaq tələb olunmursa, hakim zərbələrin hansı qapıya vurulmasına qərar vermək üçün püşk atır. Qapı yalnız təhlükəsizlik səbəbi ilə, yaxud qapı və oyun meydanı yararsız hala düşdüyü halda dəyişdirilə bilər
- Hakim yenidən püşk atır və püşkatmada qalib gələn komanda zərbəni birinci, yoxsa ikinci yerinə yetirəcəyini seçir
- Oyunu davam etdirmək iqtidarında olmayan zədələnmiş qapıçının əvəz edilməsi istisna olmaqla, matçın sonunda yalnız oyun meydanında olan oyunçular və ya müvəqqəti olaraq (zədə, geyimin qaydaya salınması və s. səbəbdən) oyun meydanından kənarda olan oyunçular 11 metrlik nöqtədən zərbə yerinə yetirmək hüququna malikdir
- Zərbələri yerinə yetirmək üçün oyunçuların seçilməsinə və zərbələrin hansı ardıcıllıqla yerinə yetirilməsinə hər bir komanda özü cavabdehdir. Hakimi ardıcıllıq barədə məlumatlandırmaq tələb olunmur
- Matçın sonunda və zərbələrdən əvvəl və ya zərbələrin yerinə yetirilməsi zamanı rəqibinə nisbətən heyətində daha çox oyunçu olan komanda oyunçuların sayını rəqiblə bərabərləşdirmək üçün oyunçuların sayına ixtisar etməlidir və ixtisar edilən oyunçunun soyadı və nömrəsi hakimə bildirilməlidir. Heyətdən çıxarılan hər hansı oyunçu zərbələrin yerinə yetirilməsində iştirak edə bilməz (aşağıda göstərilmiş hal istisna olmaqla)
- Zərbələrin yerinə yetirilməsi zamanı və ya ondan əvvəl qapıçı oyuna davam etmək iqtidarında olmazsa və onun komandası maksimal sayda əvəzetmədən istifadə etməyibsə, o, ehtiyat oyunçu ilə, yaxud oyunçuların sayını bərabərləşdirmək üçün heyətdən çıxarılmış oyunçu ilə əvəz edilə bilər, lakin bundan sonra zərbələrin yerinə yetirilməsində iştirak edə bilməz, həmçinin zərbə yerinə yetirə bilməz
- Əgər qapıçı artıq zərbəni yerinə yetirmişsə, onu əvəz edən oyunçu zərbələrin növbəti dövrəsi başlayana qədər zərbə yerinə yetirə bilməz

### 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr zamanı

- Yalnız zərbə vurmaq hüququ olan oyunçuların və matçın hakimlərinin meydanda qalmasına icazə verilir
- Zərbəni yerinə yetirən oyunçu və iki qapıçıdan başqa bütün oyunçular mərkəz dairəsində qalmalıdırlar

- Zərbəni yerinə yetirən oyunçunun komanda yoldaşı olan qapıçı oyun meydanında, cərimə meydanından kənarda, qapı xətti ilə cərimə meydanının kəsişdiyi yerdə olmalıdır
- Zərbə yerinə yetirmək hüququ olan oyunçu qapıçı ilə yerini dəyişə bilər
- Top hərəkətini dayandırdıqda, oyundan çıxdıqda və ya hakim oyunu hər hansı qayda pozuntusuna görə saxladıqda, zərbə tamamlanmış hesab olunur; zərbəni yerinə yetirən oyunçu ikinci dəfə topa oynaya bilməz
- Hakim yerinə yetirilən zərbələri qeydə alır
- Əgər qapıçı qayda pozuntusu törədirsə və nəticədə zərbə təkrar edilirsə, qapıçıya xəbərdarlıq edilməlidir.
- Hakim 11 metrlik zərbənin yerinə yetirilməsi üçün işarə verdikdən sonra, oyunçu qayda pozuntusu edərsə, zərbə qol ilə nəticələnməyən zərbə kimi qeydə alınır və oyunçuya xəbərdarlıq edilir.
- Əgər qapıçı və zərbəni yerinə yetirən oyunçu eyni vaxtda qayda pozuntusu törədərsə:

    - zərbə qolla nəticələnməzsə, zərbə təkrarlanır və hər iki oyunçuya xəbərdarlıq edilir
    - Əgər zərbə qol olarsa, qol ləğv edilir, zərbə qol ilə nəticələnməyən zərbə kimi qeydə alınır və zərbəni yerinə yetirən oyunçuya xəbərdarlıq edilir

**Aşağıdakı şərtlərlə, hər iki komanda beş zərbə yerinə yetirir**

- Zərbələr komandalar tərəfindən növbə ilə yerinə yetirilir
- Hər bir zərbə müxtəlif oyunçular tərəfindən yerinə yetirilir və zərbə vurmaq hüququna malik olan oyunçuların hamısı bu imkandan istifadə etdikdən sonra, oyunçu təkrar zərbə vurmaq hüququ qazanır
- Əgər komandalar beş zərbəni yerinə yetirdikdən sonra onlardan biri daha çox qol vurarsa, digər komanda isə hətta qalan bütün zərbələri uğurla yerinə yetirdikdə belə rəqibə çatmayacağı halda, zərbələrin yerinə yetirilməsi dayandırılır
- Əgər komandalar beş zərbəni yerinə yetirdikdən sonra hesab bərabərdirsə, zərbələrin yerinə yetirilməsi o vaxta qədər davam etdirilir ki, komandaların biri digərindən bir qol çox vurur. Bu zaman yerinə yetirilmiş zərbələrin sayı bərabər olmalıdır

- Yuxarıda qeyd edilmiş prinsip, zərbələrin istənilən sonrakı seriyası üçün tətbiq edilir, lakin komanda zərbəni yerinə yetirən oyunçuların növbəsini dəyişə bilər
- 11 metrlik nöqtədən yerinə yetirilən zərbə, oyun meydanını tərk edən oyunçunu gözləmək üçün gecikdirilə bilməz. Zərbəni yerinə yetirmək üçün vaxtında meydana qayıtmayan oyunçu zərbə vurmaq hüququndan məhrum edilir və onun zərbəsi qolla nəticələnməyən zərbə kimi qeydə alınır

### 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr zamanı əvəzetmələr və qovulmalar

- Əsas heyətin oyunçusu, ehtiyat oyunçu və ya əvəz edilmiş oyunçu xəbərdarlıq ala və ya qovula bilər
- Meydandan qovulan qapıçı zərbələrin yerinə yetirilməsində iştirak etmək hüququ olan oyunçu ilə əvəz edilməlidir
- Qapıçı istisna olmaqla, oyuna davam etmək iqtidarında olmayan oyunçu əvəz edilə bilməz
- Komandanın heyətində 7 nəfərdən az oyunçu qalarsa, hakim oyunu dayandırmamalıdır

IFAB

# Qayda

# 11

# "Oyundankənar" vəziyyət

1. **"Oyundankənar" vəziyyət**
   "Oyundankənar" vəziyyətdə olmaq qayda pozuntusu deyil.

   Oyunçu "oyundankənar" vəziyyətdə hesab edilir, əgər:

   - oyunçunun başının, bədəninin və ya ayaqlarının hər hansı hissəsi meydanın rəqibə aid hissəsindədirsə (mərkəz xətti istisna olunur) və
   - oyunçunun başının, bədəninin və ya ayaqlarının hər hansı hissəsi rəqibin qapı xəttinə, topdan və rəqibin sonuncudan öndəki oyunçusundan yaxındırsa

   Qapıçılar da daxil olmaqla, bütün oyunçuların əlləri və qolları nəzərə alınmır.

   Oyunçu "oyundankənar" vəziyyətdə hesab olunmur, əgər o:

   - rəqibin sonuncudan öndəki oyunçusu ilə eyni xətdədirsə, yaxud
   - rəqibin sonuncu iki oyunçusu ilə eyni xətdədirsə

2. **Qayda pozuntusu**
   Komanda yoldaşının topa oynadığı və ya toxunduğu* anda "oyundankənar" vəziyyətdə olan oyunçu, yalnız aşağıdakı şəkildə oyuna müdaxilə etdiyi təqdirdə cəzalandırılır:

   - komanda yoldaşının oynadığı və ya ötürdüyü topa oynayar və ya toxunarsa, yaxud
   - aşağıdakı şəkildə rəqibə mane olarsa:
     - rəqibin görüntü dairəsini aşkar şəkildə bağlayaraq onun topa oynamasının qarşısını alarsa, yaxud
     - rəqiblə, top uğrunda mübarizə apararsa, yaxud

   **Topa oynamanın və ya toxunuşun ilk anı nəzərdə tutulur*

- oyunçu ona yaxın olan topa aşkar şəkildə oynamağa cəhd edir və onun hərəkəti rəqibə mane olarsa, yaxud
- oyunçu rəqibin topa oynamaq imkanına aşkar şəkildə təsir edərsə

*və ya*

- aşağıdakı hallarda topa oynayaraq və ya rəqibə mane olaraq üstünlük qazanarsa:
  - top qapı dirəklərindən, tirdən, matçın hakimindən və ya rəqibdən qayıdarkən, yaxud istiqamətini dəyişərkən
  - top hər hansı rəqib oyunçu tərəfindən dəf edilərkən

“Oyundankənar” vəziyyətdə olan oyunçu, bilərəkdən topa oynayan rəqibdən topu qəbul edərkən (topun hər hansı rəqib oyunçu tərəfindən bilərəkdən dəf edilməsi istisna olmaqla) üstünlük qazanmış hesab olunmur.

“Dəfetmə” oyunçunun, qapıya istiqamətlənən və ya qapıya çox yaxınlaşan topu əllər/qollar  istisna olmaqla (öz cərimə meydanında olan qapıçı istisna olmaqla), bədəninin hər hansı hissəsi ilə qaytarması və ya qaytarmağa cəhd etməsidir.

Əgər:

- "oyundankənar" vəziyyətdən çıxan və ya həmin vəziyyətdə dayanan oyunçu rəqibin yolunun üstündədirsə və rəqibin topa doğru hərəkət etməsinə mane olursa və bu vəziyyət rəqibin topa oynamaq və ya top uğrunda mübarizə aparmaq imkanına təsir edirsə, «oyundankənar» vəziyyət qayda pozuntusu qeydə alınır; əgər oyunçu rəqibin yoluna çıxır və onun hərəkətinə mane olursa (məs., blokirovka) o, Qayda 12-ə əsasən cəzalandırılmalıdır.
- "oyundankənar" vəziyyətdə olan oyunçu topa oynamaq niyyəti ilə topa doğru hərəkət edirsə və topa oynamazdan və ya topa oynamağa cəhd etməzdən və yaxud top uğrunda mübarizəyə girməzdən əvvəl qayda pozuntusuna məruz qalarsa, qayda pozuntusu qeyd alınır, belə ki, qayda pozuntusu“oyundankənar” vəziyyət pozuntusundan əvvəl baş vermişdir
- "oyundankənar" vəziyyətdə olduğu halda, artıq topa oynamaqda olan, oynamağa cəhd edən və ya top uğrunda mübarizəyə girən oyunçu qayda pozuntusuna məruz qalarsa, "oyundankənar" vəziyyət qayda pozuntusu qeydə alınır, belə ki, "oyundankənar" vəziyyət qayda pozuntusundan əvvəl baş vermişdir

### 3. Qayda pozuntusunun olmaması

Əgər oyunçu topu bilavasitə aşağıdakı vəziyyətlərdən qəbul edirsə, qayda pozuntusu yoxdur:

- qapıdan zərbədən
- topun yan xətdən oyuna daxil edilməsindən
- küncdən zərbədən

### 4. Pozuntular və cəzalar

“Oyundankənar” qayda pozuntusu baş verərkən, qayda pozuntusunun oyun meydanının qaydanı pozan oyunçuya aid hissəsində olması da daxil olmaqla, hakim qaydanın pozulduğu yerdən sərbəst zərbə təyin edir.

Hakimin icazəsi olmadan oyun meydanını tərk edən müdafiə olunan komandanın oyunçusu, “oyundankənar” vəziyyətin müəyyən edilməsi məqsədi ilə, oyunun növbəti dəfə saxlanılmasına qədər, və yaxud müdafiə olunan komandanın topu mərkəz xəttinə doğru istiqamətləndirməsi ilə topun cərimə meydanını tərk etməsinə qədər öz qapı xətti və ya yan xətt üzərində dayanmış hesab ediləcək. Əgər oyunçu oyun meydanını bilərəkdən tərk etmişsə, top növbəti dəfə oyundan çıxdıqda, ona xəbərdarlıq edilir.

Hücum edən komandanın oyunçusu hücumda fəal iştirak etmədiyini nümayiş etdirmək üçün oyun meydanını tərk edə və ya ondan kənarda dayana bilər. Əgər oyunçu, oyunun növbəti dəfə saxlanılmasına qədər, və yaxud müdafiə olunan komandanın topu mərkəz xəttinə doğru istiqamətləndirməsi ilə topun cərimə meydanını tərk etməsinə qədər qapı xəttindən meydana qayıdarsa, o, “oyundankənar” vəziyyətin müəyyən edilməsi məqsədi ilə qapı xətti üzərində dayanmış hesab olunacaq. Oyun meydanını bilərəkdən tərk edən və hakimin icazəsi olmadan meydana qayıdan oyunçu “oyundankənar” qayda pozuntusuna görə cəzalanmırsa və üstünlük qazanırsa, xəbərdarlıq almalıdır.

Əgər top qapıya daxil olan anda hücum edən komandanın oyunçusu qapı dirəkləri arasında və qapının içərisində hərəkətsiz vəziyyətdə qalırsa, qol qeydə alınmalıdır. Lakin əgər oyunçu “oyundankənar” qayda pozuntusu edərsə və Qayda 12-nin tələblərini pozarsa oyun cərimə və ya sərbəst zərbə ilə bərpa olunur.

IFAB

# Qayda

# 12

# Qayda Pozuntuları və İntizamsız Davranış

Cərimə zərbəsi, sərbəst zərbə və 11 metrlik zərbə, yalnız top oyunda olduqda baş verən qayda pozuntularına görə təyin edilir.

## 1. Cərimə zərbəsi

Hakimin qənaətinə görə oyunçu rəqibinə qarşı aşağıda göstərilən qayda pozuntularından hər hansı birini ehtiyatsız, düşüncəsiz və ya həddən artıq güc işlədərək edərsə, cərimə zərbəsi təyin edilir:

- rəqibə hücum edərsə
- rəqibin üzərinə hoppanarsa
- rəqibi ayaqla vurarsa və ya vurmağa cəhd edərsə
- rəqibi itələyərsə
- rəqibi əllə və ya başla vurarsa və ya vurmağa cəhd edərsə
- rəqibə təhlükəli şəkildə sürüşmə fəndi edər və ya ayaq üstə mübarizəyə girərsə
- rəqibə badalaq qoyarsa və ya badalaq qoymağa cəhd edərsə

Əgər qayda pozuntusunda kontakt varsa, cərimə zərbəsi təyin edilir.

- Ehtiyatsızlıq o deməkdir ki, oyunçu mübarizə zamanı diqqətsizlik göstərir və ya hərəkətinin nəticəsi barədə fikirləşmir. Heç bir intizam sanksiyasına ehtiyac yoxdur
- Düşüncəsizlik o deməkdir ki, oyunçu rəqibinə qarşı yaratdığı təhlükəyə və onun nəticələrinə əhəmiyyət vermir. Oyunçuya xəbərdarlıq edilməlidir
- Həddən artıq güc işlətmək o deməkdir ki, oyunçu gücün tətbiqində həddi aşır və rəqibin sağlamlığını təhlükəyə məruz qoyur. Oyunçu meydandan qovulmalıdır

Oyunçu aşağıdakı qayda pozuntularından hər hansı birini edərsə, cərimə zərbəsi təyin edilir:

- topa əllə oynayarsa (öz cərimə meydanında olan qapıçıdan başqa)

- rəqibi tutarsa
- rəqibin hərəkətinə kontaktla əngəl olarsa
- rəqibi dişləyər və ya ona tüpürərsə
- hər hansı əşyanı topa, rəqibə və ya matçın hakiminə atarsa, yaxud əlində tutduğu əşya ilə topa toxunarsa

Həmçinin bax: Qayda 3-dəki qayda pozuntuları

**Əl ilə oyun**

Adətən qayda pozulmuş hesab edilir, əgər oyunçu:

- əli/qolu ilə bilərəkdən topa toxunur, həmçinin əlini/qolunu top istiqamətində hərəkət etdirirsə
- top onun əlinə/qoluna toxunduqdan sonra topa sahib olur və daha sonra:
    - rəqib komandanın qapısına qol vurur
    - qol vurmaq imkanı yaradır
- qapıçı da daxil olmaqla, hətta təsadüfən olsa belə, birbaşa öz əli/qolu ilə rəqib komandanın qapısına qol vurursa

Qayda pozulmuş hesab edilir, əgər oyunçu:

- topa əli/qolu ilə toxunur və bu zaman:
    - əl/qol onun bədənini qeyri-təbii şəkildə genişləndirirsə
    - əl/qol çiyin səviyyəsindən yuxarıdadırsa (oyunçu bilərəkdən topa oynayarkən topun sonradan onun əlinə/qoluna toxunduğu hallar istisna olmaqla)

Hətta əgər top oyunçunun əlinə/qoluna birbaşa yaxınlıqda olan digər oyunçunun başından və ya bədənindən (ayaqlar da daxil olmaqla) sıçrayaraq toxunarsa, yuxarıda qeyd edilənlər qayda pozuntusu hesab olunur.

Yuxarıda qeyd edilən hallar istisna olmaqla, topun oyunçunun əlinə/qoluna toxunması qayda pozuntusu hesab olunmur, əgər top:

- oyunçunun birbaşa öz başından və ya bədənindən (ayaqlar da daxil olmaqla) sıçrayarsa
- yaxınlıqda olan başqa bir oyunçunun birbaşa başından və ya bədənindən (ayaqlar da daxil olmaqla) sıçrayarsa
- əgər əl/qol bədənə yaxındırsa və bədəni qeyri-təbii şəkildə genişləndirmirsə
- oyunçu yerə yıxıldığı zaman onun əli/qolu bədənə dəstək vermək üçün bədən və yer arasındadırsa, lakin bədəndən üfiqi və ya şaquli şəkildə aralı deyilsə

Hər hansı oyunçuya əl ilə oyuna görə tətbiq olunan məhdudiyyət, öz cərimə meydanından kənarda olan qapıçıya da şamil edilir. Əgər qapıçı, öz cərimə meydanı daxilində topa əllə toxunmağa icazə verilmədiyi vəziyyətlərdə topa toxunarsa, sərbəst zərbə təyin edilir, lakin intizam sanksiyası tətbiq edilmir.

## 2. Sərbəst zərbə

Sərbəst zərbə təyin edilir, əgər oyunçu:

- təhlükəli oynayarsa
- rəqibin hərəkətini kontaktsız əngəlləyərsə
- etiraz edərsə, təhqiredici, alçaldıcı və ya nalayiq ifadə işlədər və ya jest edərsə
- qapıçıya topu əlindən buraxmağa mane olarsa və ya qapıçı topu əlindən buraxarkən topa zərbə vurarsa və ya vurmağa cəhd edərsə
- Qaydalarda göstərilməyən və xəbərdarlıq, yaxud qovulma ilə cəzalandırılan hər hansı digər qayda pozuntusu edərsə

Əgər qapıçı öz cərimə meydanında aşağıdakı qayda pozuntularından hər hansı birini edərsə, sərbəst zərbə təyin edilir:

- topu əlindən buraxmazdan əvvəl topa əli/qolu ilə altı saniyədən çox nəzarət edərsə
- topu oyuna buraxdıqdan sonra, topun başqa bir oyunçuya toxunmasına qədər topa əli/qolu ilə toxunarsa
- aşağıdakı vəziyyətlərdən sonra, qapıçı topu oyuna daxil etmək üçün topa aşkar şəkildə zərbə endirmədən və ya zərbə endirməyə cəhd etmədən, topa əli/qolu ilə toxunarsa:

- top komanda yoldaşı tərəfindən ayaqla bilərəkdən ona ötürülərkən
- komanda yoldaşı tərəfindən yan xətdən oyuna daxil edilən topu birbaşa qəbul edərkən

Aşağıdakı hallarda qapıçı topa əl(lər)i ilə nəzarət etmiş hesab olunur:

- top qapıçının əlləri arasında, və ya əlləri ilə hər hansı səth (yer səthi, öz bədəni və s.) arasındadırsa, yaxud qapıçı əllərinin və ya qollarının hər hansı bir hissəsi ilə topa toxunursa; topun təsadüfən qapıçıdan sıçraması və ya qapıçının topu dəf etməsi istisna olunur
- qapıçı topu açılmış əlin ovucunda saxlayırsa
- qapıçı topu yerə vurur və ya havaya atırsa

Qapıçı topa əl(lər)i ilə nəzarət edirsə, rəqib onunla mübarizəyə girə bilməz.

**Təhlükəli oyun**
Təhlükəli oyun deyərkən, oyunçunun hər hansı şəxsə (özü də daxil olmaqla) zədə yetirmək təhlükəsi yaradaraq topa oynaması və rəqibi zədə təhlükəsi ilə qorxudaraq onun topa oynamasının qarşısını alması başa düşülür.

"Qayçı" və ya "velosiped" zərbəsinə icazə verilir, bir şərtlə ki, bu, rəqib oyunçu üçün təhlükəli olmasın.

**Rəqibin hərəkətinin kontaktsız əngəllənməsi**
Rəqibin hərəkətinin əngəllənməsi, top oyun məsafəsində olmadığı zaman rəqibin yoluna çıxmaq, onu bağlamaq, onun hərəkətini ləngitmək və ya rəqibi öz istiqamətini dəyişməyə məcbur etmək deməkdir.

Bütün oyunçular oyun meydanında öz mövqeyini tutmaq hüququna malikdirlər; rəqibin yolunda olmaq, rəqibin yoluna çıxmaqla eyni hesab edilmir.

Əgər top oyun məsafəsindədirsə və oyunçu rəqibini qolları və ya bədəni ilə itələmirsə, oyunçu top ilə rəqib arasında mövqe tuta bilər. Əgər top oyun məsafəsindədirsə, rəqib oyunçu topa nəzarət edən oyunçu ilə mübarizəyə girə bilər.

### 3. İntizam tədbiri

Hakim, matçöncəsi yoxlama məqsədi ilə oyun meydanına daxil olduğu andan matçın başa çatmasından sonra (11 metrlik nöqtədən yerinə yetirilən zərbələr daxil olmaqla) oyun meydanını tərk edənə qədər intizam sanksiyası tətbiq etmək səlahiyyətinə malikdir.

Əgər matçın başlanğıcında oyun meydanına daxil olmazdan əvvəl oyunçu və ya komandanın rəsmi şəxsi qovulma ilə cəzalandırılan pozuntu edərsə, hakim, oyunçunun və ya komandanın rəsmi şəxsinin matçda iştirak etməsinin qarşısını almaq səlahiyyətinə malikdir (bax: Qayda 3.6); hakim hər hansı digər intizamsız davranış barədə məlumat verməlidir.

İstər meydanda, istərsə meydandan kənarda xəbərdarlıqla və ya qovulma ilə cəzalandırılan qayda pozuntusu edən oyunçu və ya komandanın rəsmi şəxsi pozuntunun xarakterinə uyğun olaraq cəzalandırılır.

Sarı vərəqə oyunçunun xəbərdarlıq almasını, qırmızı vərəqə isə onun qovulmasını bildirmək üçün göstərilir.

Sarı və qırmızı vərəqələr əsas heyətin oyunçusuna, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya və ya komandanın rəsmi şəxsinə göstərilə bilər.

#### Əsas heyətin oyunçuları, ehtiyat oyunçular və əvəz edilmiş oyunçular

**Vərəqə göstərmək üçün oyunun bərpasının ləngidilməsi**

Əgər hakim oyunçuya xəbərdarlıq etmək, yaxud onu meydandan qovmaq üçün vərəqə göstərmək qərarına gəlibsə, intizam sanksiyası tətbiq edilməmiş, oyun bərpa edilə bilməz, bir şərtlə ki, qayda pozuntusuna məruz qalmış komanda cərimə/sərbəst zərbəni cəld yerinə yetirmir, aşkar qol vurmaq imkanı yoxdur və hakim intizam sanksiyası proseduruna başlayıb. Sanksiya oyunun növbəti dəfə dayandırılması zamanı tətbiq edilir; əgər qayda pozuntusu rəqib komandanı aşkar qol vurmaq imkanından məhrum etmişsə, oyunçuya xəbərdarlıq edilir.

**Üstünlük**

Əgər hakim, xəbərdarlıq və ya qovulma ilə cəzalandırılmalı olan qayda pozuntusu zamanı üstünlük prinsipini tətbiq edirsə, vərəqə top növbəti dəfə oyundan çıxdıqda göstərilməlidir. Lakin rəqibi aşkar qol vurmaq imkanından məhrum edən oyunçuya qeyri-idman hərəkətinə görə xəbərdarlıq edilir.

Aşkar qol vurmaq imkanının olduğu hallar istisna olmaqla, ciddi qayda pozuntusu, təcavüzkar davranış və ya ikinci xəbərdarlıqla nəticələnən qayda pozuntuları zamanı üstünlük prinsipi tətbiq edilməməlidir. Hakim, top növbəti dəfə oyundan çıxdıqda oyunçunu meydandan qovmalıdır, lakin əgər oyunçu rəqiblə top uğrunda mübarizəyə girir və ya rəqibə mane olursa, hakim oyunu saxlamalı, oyunçunu meydandan qovmalı və oyunçunun daha ciddi qayda pozuntusu etdiyi hallar istisna olmaqla, oyunu sərbəst zərbə ilə bərpa etməlidir.

Əgər müdafiə olunan komandanın oyunçusu rəqibi cərimə meydanından kənarda saxlamağa başlayırsa və onu cərimə meydanında saxlamağa davam edirsə, hakim 11 metrlik zərbə təyin etməlidir.

**Xəbərdarlıqla cəzalandırılan qayda pozuntuları**
Oyunçuya xəbərdarlıq edilir, əgər o:

- oyunun bərpasını ləngidirsə
- sözlə, yaxud hərəkətlə etiraz edirsə
- hakimin icazəsi olmadan oyun meydanına daxil olur, qayıdır və ya onu bilərəkdən tərk edirsə
- oyun küncdən zərbə, cərimə və ya sərbəst ilə bərpa edilərkən və yaxud top yan xətdən oyuna daxil edilən zaman tələb olunan məsafəyə riayət etmirsə
- Oyun Qaydalarını sistematik şəkildə pozursa ("sistematik" hesab olunan xüsusi say və ya nümunə mövcud deyil)
- qeyri-idman hərəkəti edirsə
- video-təkrara baxış zonasına daxil olursa
- hakimin video-təkrara baxmasını təkidlə tələb edirsə

Ehtiyat oyunçuya və ya əvəz edilmiş oyunçuya xəbərdarlıq edilir, əgər o:

- oyunun bərpasını ləngidirsə
- sözlə, yaxud hərəkətlə etiraz edirsə
- hakimin icazəsi olmadan oyun meydanına daxil olur və ya qayıdırsa
- qeyri-idman hərəkəti edirsə
- Video-təkrara baxış zonasına daxil olmaq
- hakimin video-təkrara baxmasını təkidlə tələb edirsə

Xəbərdarlıqla cəzalandırılmalı olan iki ayrı qayda pozuntusu baş verdiyi zaman (hətta qısa zaman ərzində) onların hər ikisi xəbərdarlıqla cəzalandırılmalıdır. Məsələn, oyunçu hakimin icazəsi olmadan oyun meydanına daxil olur və düşüncəsiz şəkildə sürüşmə fəndi edir və ya qayda pozuntusu edərək/əl ilə oynayaraq və s. perspektivli hücumun qarşısını alır.

**Qeyri-idman hərəkətinə görə xəbərdarlıq**

Oyunçuya müxtəlif hallarda qeyri-idman hərəkətinə görə xəbərdarlıq olunmalıdır. O cümlədən, əgər o:

- zədə almaq görüntüsü yaradaraq, yaxud qayda pozuntusuna məruz qalması görüntüsü yaradaraq (simulyasiya) hakimi aldatmağa çalışırsa
- oyunun gedişi zamanı hakimin icazəsi olmadan qapıçı ilə yerini dəyişirsə (bax: Qayda 3)
- düşüncəsiz şəkildə, cərimə zərbəsi ilə cəzalandırılan qayda pozuntularından birini edirsə
- perspektivli hücumu dayandırmaq və ya ona mane olmaq məqsədi ilə topa əllə oynayırsa
- topa oynamaq nəticəsində baş vermiş qayda pozuntusuna görə hakimin 11 metrlik zərbə təyin etdiyi hallar istisna olmaqla, perspektivli hücumu dayandıran və ya ona mane olan qayda pozuntusu edərsə
- topa oynamağa cəhd etməklə qayda pozuntusu edərək rəqibi aşkar qol vurmaq imkanından məhrum edir və hakim 11 metrlik zərbə təyin edirsə
- əllə oynayaraq qol vurmağa cəhd edərsə (cəhdin uğurlu olub-olmamasından asılı olmayaraq) və ya qolun qarşısını almaq üçün uğursuz cəhd edərsə
- oyun meydanında icazə verilməyən işarələr edərsə
- hakiminin icazəsi ilə oyun meydanını tərk edərkən topa oynayırsa
- oyuna münasibətdə hörmətsizlik göstərirsə
- Qaydalardan yayınmaqla, qapıçının topa əli ilə toxunub-toxunmamasından asılı olmayaraq, hiylə işlədərək topu başı, sinəsi, dizi və s. ilə qapıçıya ötürərsə
- oyunun gedişi ərzində və ya bərpası zamanı sözlə rəqibin fikrini yayındırırsa

**Qolun bayram edilməsi**

Oyunçular vurulan qolu bayram edə bilərlər, lakin bu, həddən artıq çox çəkməməlidir; xoreoqrafik çıxışlar vaxtın itirilməsinə səbəb olmamalıdır.

Qolu bayram etmək üçün oyun meydanını tərk etmək xəbərdarlıqla cəzalandırılan qayda pozuntusu deyil, lakin oyunçular ən qısa zamanda meydana qayıtmalıdırlar.

Hətta qol ləğv edilsə belə, oyunçuya xəbərdarlıq edilir, əgər o:

- dəmir hasara dırmaşır və yaxud təhlükəsizlik və ya mühafizə məsələlərinə səbəb olacaq şəkildə tamaşaçılara yaxınlaşırsa
- ələsalma, yaxud təhrikedici xarakter daşıyan jestlər və ya hərəkətlər edirsə
- başını və ya üzünü maska, yaxud oxşar vasitə ilə örtürsə
- köynəyini çıxarır və ya köynəyini başına keçirirsə

**Oyunun bərpasının ləngidilməsi**

Hakim oyunun bərpasını aşağıdakı şəkildə ləngidən oyunçulara xəbərdarlıq etməlidir:

- topu yan xətdən oyuna daxil edəcəyi görüntüsü yaradır, lakin qəflətən onu öz komanda yoldaşlarından birinə saxlayır
- əvəzetmə zamanı oyun meydanını ləng tərk edir
- oyunun bərpasını həddən artıq ləngidir
- hakim oyunu saxladıqdan sonra topu vurur və ya əli ilə götürür, bilərəkdən topa toxunaraq qarşıdurmaya təhrik edir
- hakimin zərbəni vurmağı təkrar etdirməsi məqsədi ilə cərimə və ya sərbəst zərbəni yanlış nöqtədən yerinə yetirir

**Qovulma ilə cəzalandırılan qayda pozuntuları**

Əsas heyətin oyunçusu, ehtiyat oyunçu və ya əvəz edilmiş oyunçu meydandan və ya texniki zonadan qovulur, əgər o:

- topa əllə oynayaraq (öz cərimə meydanında olan qapıçı istisna omaqla) rəqibi qoldan və ya aşkar qol vurmaq imkanından məhrum edirsə
- cərimə və ya sərbəst zərbə ilə cəzalandırılan qayda pozuntusu edərək, onun qapısına tərəf hərəkət edən rəqibi qoldan və ya aşkar qol vurmaq imkanından məhrum edirsə (aşağıda göstərilən hal istisna olmaqla).
- ciddi qayda pozuntusu edərsə
- hər hansı bir şəxsi dişləyər və ya ona tüpürərsə
- təcavüzkar davranış
- təhqiredici, ləyaqətsiz, yaxud qeyri-etik ifadələr işlədər və hərəkətlər edərsə

- eyni matç ərzində ikinci xəbərdarlıq alarsa
- video əməliyyat otağına daxil olarsa

Meydandan və ya texniki zonadan qovulan əsas heyətin oyunçusu, ehtiyat oyunçu və ya əvəz edilmiş oyunçu oyun meydanına və texniki zonaya bitişik olan ərazini tərk etməlidir.

### Rəqibi qoldan və ya aşkar qol vurmaq imkanından məhrum etmək

Əgər oyunçu topa əl ilə oynayaraq rəqib komandanı qoldan və ya aşkar qol vurmaq imkanından məhrum edərsə, qayda pozuntusunun harada baş verməsindən asılı olmayaraq, oyunçu meydandan qovulur.

Əgər oyunçu öz cərimə meydanında rəqibi aşkar qol vurmaq imkanından məhrum edən qayda pozuntusu edərsə, hakim 11 metrlik zərbə təyin edir və əgər qayda pozuntusu topa oynamağa cəhd nəticəsində baş vermişsə, oyunçuya xəbərdarlıq edilir; bütün digər hallarda (məs., tutma, dartma, itələmə, topa oynamaq imkanının olmaması və s.) oyunçu meydandan qovulmalıdır.

Hakimin lazımi icazəsi olmadan oyun meydanına daxil olan, oyuna müdaxilə edən və rəqibi qoldan və ya aşkar qol vurmaq imkanından məhrum edən əsas heyətin oyunçusu, qovulmuş oyunçu, ehtiyat oyunçu və ya əvəz edilmiş oyunçu qovulma ilə cəzalandırılan qayda pozuntusu etməkdə təqsirli bilinir.

Aşağıdakılar nəzərə alınmalıdır:

- qayda pozuntusunun yeri ilə qapı arasındakı məsafə
- hücumun ümumi istiqaməti
- topa nəzarət və ya topun ələ keçirilməsi perspektivi
- müdafiə olunan komandanın oyunçularının sayı və mövqeyi

### Ciddi qayda pozuntu

Rəqibin sağlamlığına təhlükə yaradan sürüşmə fəndi və ya ayaq üstə edilən mübarizə yaxud həddən artıq gücdən və ya kobudluqdan istifadə ciddi qayda pozuntusu kimi dəyərləndirilməlidir.

Oyunçu top uğrunda mübarizədə bir, yaxud hər iki ayağından istifadə edərək, həddən artıq güc işlədərək və ya rəqibin sağlamlığına təhlükə yaradaraq istər arxadan, istər öndən, istərsə də yandan rəqib üzərinə hoppanırsa, o ciddi qayda pozuntusunun edilməsində təqsirkardır.

**Təcavüzkar davranış**
Təcavüzkar davranış o deməkdir ki, oyunçu topa oynamaq cəhdi göstərmədən, kontaktın olub-olmamasından asılı olmayaraq, rəqibə, komanda yoldaşına, komandanın rəsmi şəxsinə, matçın hakimlərinə, tamaşaçılara və ya hər hansı digər şəxsə qarşı həddən artıq güc və kobudluqdan istifadə edir və ya istifadə etməyə cəhd edir.

Bundan başqa, əgər top uğrunda mübarizə aparmayan oyunçu əli və ya qolu ilə rəqibin və ya hər hansı digər şəxsin başına və ya üzünə zərbə endirərsə, işlədilmiş gücün çox az olması istisna olmaqla, o təcavüzkar davranışda təqsirkardır.

## Komandanın rəsmi şəxsləri

İntizamsız davranış baş vermiş və təqsirkarı müəyyən etmək mümkün deyilsə, sanksiya texniki zonada olan baş məşqçiyə tətbiq edilir.

**Şifahi xəbərdarlıq**
Aşağıdakı intizamsız davranışlar adətən şifahi xəbərdarlıqla nəticələnməlidir; təkrarlanan və ya aşkar intizamsız davranışlar xəbərdarlıq və ya qovulma ilə nəticələnməlidir:

- ehtiramla/qarşıdurma yaratmayacaq şəkildə oyun meydanına daxil olmaq
- matçın hakimləri ilə əməkdaşlıq etməmək, məsələn, hakimin köməkçisi və ya dördüncü hakim tərəfindən verilən göstərişə/tələbə məhəl qoymamaq
- verilmiş qərara əhəmiyyətsiz dərəcədə narazılıq etmək (sözlə və ya hərəkətlə)
- başqa bir intizamsız davranış etməyərək, vaxtaşırı texniki zonanı tərk etmək

**Xəbərdarlıq**
Xəbərdarlıqla cəzalandırılan davranışlar aşağıdakılardır (lakin bunlarla məhdudlaşmır):

- öz texniki zonasının sərhədlərini aşkar/sistematik şəkildə pozmaq
- öz komandası tərəfindən oyunun bərpasını ləngitmək
- biləәrəkdən rəqib komandanın texniki zonasına daxil olmaq (qarşıdurma yaratmayacaq şəkildə)
- sözlə, yaxud hərəkətlə etiraz, habelə:

  - su qablarını və ya digər əşyaları əllə/ayaqla atmaq
  - matçın hakim(lər)inə aşkar hörmətsizlik ifadə edən hərəkətlər, məsələn kinayəli alqış

- video-təkrara baxış zonasına daxil olmaq
- təkidlə sarı və ya qırmızı vərəqənin göstərilməsini tələb etmək
- təkidlə video-təkrara baxılmasını tələb etmək
- təhrikedici və ya əsəbləşdirici xarakter daşıyan jestlər və ya hərəkətlər etmək
- ardıcıl yolverilməz davranış (habelə şifahi xəbərdarlıqla nəticələnən pozuntuların təkrarlanması)
- oyuna münasibətdə hörmətsizlik göstərmək

**Qovulma**

Qovulma ilə cəzalandırılan davranışlar aşağıdakılardır (lakin bunlarla məhdudlaşmır):

- rəqib komanda tərəfindən oyunun bərpa edilməsini ləngitmək, məsələn topu özündə saxlamaq, topu uzağa vurmaq, oyunçunun hərəkətini əngəlləmək
- aşağıdakı məqsədlərlə texniki zonanı tərk etmək:
  - matçın hakimlərinə qəti etirazını bildirmək
  - təhrikedici və ya əsəbləşdirici xarakter daşıyan hərəkətlər etmək
- aqressiv və ya qarşıdurma yaradacaq şəkildə rəqib komandanın texniki zonasına daxil olmaq
- oyun meydanına əllə/ayaqla bilərəkdən əşya atmaq
- aşağıdakı məqsədlərlə oyun meydanına daxil olmaq:
  - matçın hakimləri ilə qarşıdurma yaratmaq (fasilə zamanı və ya matçın sonunda)
  - oyuna müdaxilə etmək, rəqib oyunçuya və ya matçın hakiminə mane olmaq
- video əməliyyat otağına daxil olmaq
- rəqib komandanın əsas heyət oyunçusuna, ehtiyat oyunçusuna, rəsmi şəxsinə, matçın hakimlərinə, tamaşaçılara və ya hər hansı digər şəxsə (məs., topdaşıyanlar, təhlükəsizlik əməkdaşı və ya yarışın rəsmi şəxsi və s.) qarşı fiziki və ya aqressiv davranış (habelə tüpürmə və dişləmə)
- eyni matç ərzində ikinci xəbərdarlıq almaq

- təhqiredici, ləyaqətsiz, yaxud qeyri-etik ifadələr işlətmək və hərəkətlər etmək
- icazə verilməyən elektron və ya rabitə avadanlığından istifadə etmək və (yaxud) elektron və ya rabitə avadanlığından istifadə nəticəsində yolverilməz davranışa yol vermək
- təcavüzkar davranış

**Əşya (yaxud top) atılarkən qayda pozuntuları**
Bütün hallarda, hakim müvafiq intizam tədbiri görməlidir:

- əgər qayda pozuntusu düşüncəsiz şəkildə edilmişdirsə, oyunçuya qeyri-idman hərəkətinə görə xəbərdarlıq edilməlidir
- əgər qayda pozuntusu həddən artıq güc işlədilməklə edilmişdirsə, oyunçu təcavüzkar davranışa görə qovulmalıdır.

**4. Qayda pozuntuları və intizamsız davranışdan sonra oyunun bərpası**

Əgər top oyunda deyilsə, oyun öncəki qərara uyğun olaraq bərpa olunur
Əgər top oyundadırsa və oyunçu oyun meydanında fiziki qayda pozuntusu edirsə:

- qayda pozuntusu rəqibə qarşıdırsa – sərbəst zərbə, cərimə zərbəsi və ya 11 metrlik zərbə təyin edilir
- qayda pozuntusu komanda yoldaşına, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya və ya qovulmuş oyunçuya, komandanın rəsmi şəxsinə və ya matçın hakimlərinə qarşıdırsa – cərimə zərbəsi və ya 11 metrlik zərbə təyin edilir
- hər hansı digər şəxsə qarşıdırsa – "mübahisəli top" atılır

Bütün şifahi qayda pozuntuları sərbəst zərbə ilə cəzalandırılır.

top oyunda olduqda, əgər:

- oyunçu matçın hakiminə və ya rəqibin əsas oyunçusuna, ehtiyat oyunçusuna, əvəz edilmiş oyunçusuna və ya qovulmuş oyunçusuna, yaxud komandanın rəsmi şəxsinə qarşı oyun meydanından kənarda qayda pozuntusu törədərsə
- ehtiyat oyunçu, əvəz edilmiş oyunçu və ya qovulmuş oyunçu, yaxud komandanın rəsmi şəxsi rəqib komandanın oyunçusuna və ya matçın hakimlərinə qarşı qayda pozuntusu edərsə və ya oyun meydanından kənarda onlara müdaxilə edərsə

oyun, qayda pozuntusunun/müdaxilənin baş verdiyi nöqtəyə yaxın olan məhdudlaşdırıcı xətt üzərində təyin edilən cərimə/sərbəst zərbə ilə bərpa olunur; əgər bu, qaydanı pozan oyunçunun cərimə meydanı daxilində baş vermiş və cərimə zərbəsi ilə cəzalandırılan qayda pozuntusudursa, 11 metrlik zərbə təyin edilir.

Əgər əsas heyətin oyunçusu tərəfindən edilən qayda pozuntusu oyun meydanından kənarda öz komandasının əsas heyət oyunçusuna, ehtiyat oyunçusuna, əvəz edilmiş oyunçusuna və ya rəsmi şəxsinə qarşı edilərsə, oyun məhdudlaşdırıcı xəttin üzərində qayda pozuntusunun baş verdiyi yerə yaxın nöqtədən yerinə yetirilən sərbəst zərbə ilə bərpa olunur.

Əgər oyunçu əlində tutduğu hər hansı əşya ilə (idman ayaqqabısı, baldır qoruyucusu və s.) topa toxunarsa, oyun cərimə zərbəsi (və ya 11 metrlik zərbə) ilə bərpa olunur.

Əgər oyun meydanında və ya ondan kənarda olan oyunçu rəqibin əsas heyət oyunçusuna əllə və ya ayaqla əşya (matçın topu istisna olmaqla) atarsa, və yaxud rəqibin ehtiyat oyunçusuna, əvəz edilmiş oyunçusuna və ya qovulmuş oyunçusuna, rəsmi şəxsinə və ya matçın hakimlərinə və ya matçın topuna əllə və ya ayaqla əşya (həmçinin top) atarsa, oyun əşyanın insana və ya topa dəydiyi, yaxud dəyə biləcəyi yerdən cərimə zərbəsi ilə bərpa olunur. Əgər həmin yer oyun meydanından kənardadırsa, məhdudlaşdırıcı xəttin ən yaxın nöqtəsindən cərimə/sərbəst zərbə təyin edilir; əgər bu, qaydanı pozan komandanın cərimə meydanında baş vermişsə, 11 metrlik zərbə təyin edilir.

Əgər ehtiyat oyunçu, əvəz edilmiş oyunçu və ya qovulmuş oyunçu, müvəqqəti olaraq oyun meydanından kənarda olan əsas heyətin oyunçusu və ya komandanın rəsmi şəxsi əli və ya ayağı ilə oyun meydanına əşya atarsa və həmin əşya oyuna, rəqibə və ya matçın hakimlərinə mane olarsa, oyun əşyanın oyuna müdaxilə etdiyi və ya onun rəqibə, matçın hakimlərinə və ya topa dəydiyi, yaxud dəyə biləcəyi yerə yaxın olan məhdudlaşdırıcı xətt üzərindən yerinə yetirilən cərimə zərbəsi (və ya 11 metrlik zərbə) ilə bərpa edilir.

IFAB

# Qayda 13

# Cərimə və Sərbəst Zərbələr

## 1. Zərbələrin növləri

Cərimə və sərbəst zərbələr komandanın əsas heyət oyunçusu, ehtiyat oyunçusu, qovulmuş oyunçusu və yaxud rəsmi şəxsi tərəfindən edilən qayda pozuntusu zamanı rəqib komandanın lehinə təyin olunur.

### Sərbəst zərbə işarəsi

Hakim sərbəst zərbə zamanı əlini başı üzərinə qaldırmaqla işarə verir; O, əlini bu vəziyyətdə o vaxta qədər saxlayır ki, zərbə yerinə yetirilməyib və top digər oyunçuya toxunmayıb, oyundan çıxmayıb yaxud qolun birbaşa vurulması mümkünsüz görünür.

Əgər hakim sərbəst zərbə təyin etdiyini işarə etməyibsə və top birbaşa qapıya vurulubsa, sərbəst zərbə təkrar edilməlidir.

### Top qapıya daxil olur

- əgər top cərimə zərbəsindən birbaşa rəqib komandanın qapısına daxil olarsa, qol hesaba alınır
- əgər top sərbəst zərbədən birbaşa rəqib komandanın qapısına daxil olarsa, qapıdan zərbə təyin olunur
- əgər top cərimə və ya sərbəst zərbədən birbaşa zərbəni yerinə yetirən komandanın qapısına daxil olarsa, küncdən zərbə təyin olunur

## 2. Prosedur

Aşağıdakı istisnalarla, bütün cərimə və sərbəst zərbələr qayda pozuntusunun olduğu yerdən yerinə yetirilir:

- Hücum edən komanda tərəfindən, rəqib komandanın qapı meydanında yerinə yetirilən sərbəst zərbələr qapı meydanının qapı xəttinə parallel olan xətinin, qayda pozuntusunun olduğu yerə yaxın nöqtəsindən yerinə yetirilir

- Müdafiə olunan komanda tərəfindən qapı meydanında yerinə yetirilən cərimə və sərbəst zərbələr qapı meydanının istənilən nöqtəsindən yerinə yetirilə bilər
- Oyunçunun, hakimin icazəsi olmadan oyun  meydanına daxil olmasına, qayıtmasına və ya onu tərk etməsinə görə təyin edilmiş cərimə və ya sərbəst zərbələr, oyun saxlanılan anda topun olduğu yerdən yerinə yetirilir. Bununla belə, əgər oyunçu oyun meydanından kənarda qayda pozuntusu törədirsə, oyun, qaydanın pozulduğu yerə yaxın olan məhdudlaşdırıcı xətt üzərində təyin edilən cərimə və ya sərbəst zərbə ilə bərpa olunur; əgər cərimə zərbəsi ilə cəzalandırılan qayda pozuntusu müdafiə olunan komandanın cərimə meydanında törədilmişsə, 11 metrlik zərbə təyin edilir
- Qaydalarda nəzərdə tutulmuş başqa hallar (bax: Qayda 3, 11, 12)

Top:

- hərəkətsiz vəziyyətdə olmalıdır və zərbəni yerinə yetirən oyunçu, hər hansı digər oyunçunun topa toxunmasından əvvəl topa ikinci dəfə toxuna bilməz
- topa zərbə endirildikdə və top aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır.

Topun oyuna daxil edilməsinə qədər bütün rəqib oyunçular:

- topdan ən azı 9.15 m (10 yard) məsafədə dayanmalıdırlar (onların qapı xətti üzərində, qapı dirəkləri arasında dayandıqları hallar istisna olmaqla)
- komandanın öz cərimə meydanında yerinə yetirdiyi cərimə və ya sərbəst zərbələr zamanı cərimə meydanından kənarda dayanmalıdırlar

Müdafiə olunan komandanın üç və ya daha çox oyunçusundan ibarət "canlı sədd" qurulduğu zaman, hücum edən komandanın bütün oyunçuları, topun oyuna daxil edilməsinə qədər "canlı" sədd"ən ən azı 1 metr (1 yard) məsafədə olmalıdırlar.

Topu eyni vaxtda bir, yaxud iki ayaqla havaya atmaqla cərimə və sərbəst zərbəni yerinə yetirmək olar.

Futbolun bir hissəsi kimi, cərimə və ya sərbəst zərbənin yerinə yetirilməsi zamanı rəqibə qarşı aldadıcı fəndlərdən istifadə etməyə icazə verilir.

Əgər oyunçu cərimə və ya sərbəst zərbəni düzgün yerinə yetirərkən yenidən topa yiyələnmək üçün bilərəkdən onu rəqibə vurursa, lakin bunu ehtiyatsız və ya düşüncəsiz şəkildə etmirsə, yaxud həddən artıq güc tətbiq etmirsə, hakim

oyunun davam etdirilməsinə icazə verir.

### 3. Pozuntular və cəzalar

Əgər cərimə və ya sərbəst zərbənin yerinə yetirilməsi zamanı rəqib komandanın oyunçusu topa tələb olunan məsafədən yaxın durarsa, üstünlük prinsipinin tətbiq edildiyi hallar istisna olmaqla, zərbə təkrar edilir; lakin əgər oyunçu zərbəni tez yerinə yetirməyi qərara alırsa və topa 9.15 metrdən (10 yard) yaxın olan rəqib topu ələ keçirirsə, hakim oyunu davam etdirir. Lakin cərimə və ya sərbəst zərbənin tez yerinə yetirilməsinə bilərəkdən mane olan rəqib oyunçuya, oyunun bərpasını ləngitdiyinə görə xəbərdarlıq edilməlidir.

Cərimə/sərbəst zərbə yerinə yetirilərkən, hücum edən komandanın oyunçusu, müdafiə olunan komandanın üç və ya daha çox oyunçusundan ibarət olan "canlı sədd"ə 1 metrdən (1 yarddan) az məsafədə dayanarsa, sərbəst zərbə təyin edilir.

Müdafiə olunan komandanın öz cərimə meydanı daxilində yerinə yetirdiyi cərimə və ya sərbəst zərbələr zamanı rəqib komandanın hər hansı oyunçusunun cərimə meydanını tərk etmək üçün imkanı olmamışdırsa, hakim oyunu davam etdirir. Cərimə və ya sərbəst zərbə yerinə yetirilərkən rəqib komandanın oyunçusu cərimə meydanındadırsa və ya topun oyuna daxil edilməsinə qədər cərimə meydanına daxil olursa, topun oyuna daxil olmasına qədər topa toxunur və ya onun uğrunda mübarizəyə girirsə, cərimə və ya sərbəst zərbə təkrar edilir.

Əgər zərbəni yerinə yetirən oyunçu, top oyuna daxil olduqdan sonra başqa bir oyunçuya toxunmazdan əvvəl topa ikinci dəfə toxunarsa (əl ilə deyil), sərbəst zərbə təyin edilir. Əgər zərbəni yerinə yetirən oyunçu topa əllə oynayarsa:

- cərimə zərbəsi təyin edilir
- qayda pozuntusu zərbəni yerinə yetirən oyunçunun cərimə meydanında baş veribsə, 11 metrlik zərbə təyin edilir, lakin zərbəni yerinə yetirən qapıçı idisə, sərbəst zərbə təyin edilir

IFAB

# Qayda

# 14

# 11 metrlik zərbə

Əgər oyunçu öz cərimə meydanında və yaxud Qayda 12-ə və 13-ə əsasən oyun epizodunun bir hissəsi kimi meydandan kənarda, zərimə zərbəsi ilə cəzalandırılan qayda pozuntusu edirsə, 11 metrlik zərbə təyin edilir.

11 metrlik zərbədən birbaşa vurulan qol hesaba alınır.

## 1. Prosedur

Top 11 metrlik nöqtənin üzərində hərəkətsiz vəziyyətdə olmalı, həmçinin qapı dirəkləri, qapı tiri və qapı toru hərəkət etməməlidir.

Zərbəni yerinə yetirən oyunçu aşkar şəkildə müəyyən edilməlidir.

Müdafiə olunan komandanın qapıçısı, zərbə yerinə yetiriləne qədər qapı xətti üzərində, qapı dirəkləri arasında və üzü zərbəni vuran oyunçuya tərəf, qapı dirəklərinə, qapı tirinə və ya qapı toruna toxunmadan dayanmalıdır.

Zərbəni yerinə yetirən oyunçudan başqa bütün oyunçular olmalıdırlar:

- 11 metrlik nöqtədən ən azı 9.15 m (10 yard) məsafədə
- 11 metrlik nöqtədən arxada
- oyun meydanı daxilində
- cərimə meydanından kənarda

Oyunçular bu Qaydaya uyğun olaraq mövqe tutduqdan sonra hakim 11 metrlik zərbənin yerinə yetirilməsi üçün işarə verir.

11 metrlik zərbəni yerinə yetirən oyunçu topu ayaqla irəli vurmalıdır; topun irəli hərəkət etməsi şərti ilə, dabanla zərbəyə icazə verilir.

Zərbə yerinə yetirilərkən, müdafiə olunan komandanın qapıçısının bir ayağının ən azı bir hissəsi qapı xəttinə toxunmalı və ya onunla eyni xətdə olmalıdır.

Topa zərbə endirildikdə və o, aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır.

Zərbəni yerinə yetirən oyunçu, top başqa bir oyunçuya toxunmamış, ona təkrar toxuna bilməz.

Top hərəkətini dayandırdıqda, oyundan çıxdıqda və ya hakim oyunu Qaydaların hər hansı şəkildə pozulmasına görə saxladıqda, 11 metrlik zərbə başa çatmış hesab olunur.

Matçın və ya əlavə vaxtın hər bir hissəsinin sonunda təyin edilən 11 metrlik zərbənin yerinə yetirilmıəsi və ya tamamlanması üçün vaxt əlavə edilir. Vaxtın əlavə edildiyi hallarda, 11 metrlik zərbə o zaman başa çatmış hesab edilir ki, top hərəkətini dayandırır, oyundan çıxır, qapıçıdan başqa hər hansı oyunçu (zərbəni yerinə yetirən oyunçu daxil olmaqla) topa oynayır və yaxud hakim oyunu, zərbəni yerinə yetirən oyunçu və ya onun komanda yoldaşı tərəfindən edilə qayda pozuntusuna görə saxlayır. Əgər müdafiə olunan komandanın oyunçusu (qapıçı da daxil olmaqla) qayda pozuntusu edərsə və 11 metrlik zərbə uğursuz alınarsa/dəf edilərsə, 11 metrlik zərbə təkrar edilir.

**2. Pozuntular və cəzalar**

Hakim 11 metrlik zərbənin yerinə yetirilməsi üçün işarə vermişsə, zərbə yerinə yetirilməlidir; əgər zərbə yerinə yetirilmirsə, hakim zərbənin yerinə yetirilməsi üçün təkrar işarə verməzdən əvvəl intizam sanksiyası tətbiq edə bilər.

**Əgər topun oyuna daxil edilməsinə qədər aşağıdakı vəziyyətlərdən biri yaranarsa:**

- zərbəni yerinə yetirən oyunçu və ya onun komanda yoldaşı Oyun Qaydalarını pozursa:
  - əgər top qapıya daxil olursa, zərbə təkrar edilir
  - əgər top qapıya daxil olmursa, hakim oyunu saxlayır və sərbəst zərbə təyin edir

  Aşağıdakı hallarda isə qolun vurulub-vurulmamasından asılı olmayaraq, oyun saxlanılır və sərbəst zərbə ilə bərpa olunur:

  - 11 metrlik zərbə arxaya vurularsa
  - zərbəni yerinə yetirmək üçün müəyyən edilmiş oyunçunun komanda yoldaşı zərbəni yerinə yetirərsə; hakim zərbəni yerinə yetirmiş oyunçuya xəbərdarlıq edir

  - zərbəni yerinə yetirən oyunçu qaçışını qurtardıqdan sonra topa zərbə endirərkən aldadıcı manevr edirsə (qaçış zamanı aldadıcı manevr etməyə icazə verilir); hakim zərbəni yerinə yetirən oyunçuya xəbərdarlıq edir

- qapıçı və ya onun komanda yoldaşı Oyun Qaydalarını pozursa:

  - əgər top qapıya daxil olursa, qol qeydə alınır
  - əgər top qapıya daxil olmursa, zərbə təkrar edilir; qaydanı pozan qapıçıdırsa, ona xəbərdarlıq edilməlidir

- Hər iki komandanın oyunçuları Oyun Qaydalarını pozursa, zərbəni yerinə yetirən oyunçunun daha ciddi qayda pozuntusu (aldadıcı manevr və s.) etdiyi hallar istisna olmaq, zərbə təkrar edilir; əgər qapıçı və zərbəni yerinə yetirən oyunçu eyni anda qayda pozuntusu edərsə:

  - zərbə qolla nəticələnməzsə, zərbə təkrarlanır və hər iki oyunçuya xəbərdarlıq edilir
  - top qapıya daxil olarsa, qol ləğv edilir, zərbəni yerinə yetirən oyunçuya xəbərdarlıq edilir və oyun müdafiə olunan komanda tərəfindən yerinə yetirilən sərbəst zərbə ilə bərpa olunur

### Əgər 11 metrlik zərbə yerinə yetirildikdən sonra:

- zərbəni yerinə yetirən oyunçu, top digər oyunçuya toxunmamışdan əvvəl topa ikinci dəfə toxunarsa (əli ilə deyil):

  - sərbəst zərbə (və ya topa əllə oynayarsa, cərimə zərbəsi) təyin edilir

- top, irəli hərəkət edərkən, kənar şəxs və ya əşyaya toxunarsa:

  - zərbə təkrar edilir, lakin əgər top qapıya daxil olursa və müdaxilə, müdafiə olunan komandanın oyunçusunun topa oynamasının qarşısını almırsa, qol qeydə alınır (hətta topa kontakt olsa belə), bir şərtlə ki, müdaxilə hücum edən komanda tərəfindən edilməsin.

- top qapıçıdan, qapı dirəklərindən, yaxud qapı tirindən oyun meydanına qayıdır və bundan sonra kənar şəxs və ya əşyaya toxunarsa:

  - hakim oyunu saxlayır
  - oyun, topun kənar şəxs və ya əşyaya toxunduğu yerdən "mübahisəli top"la bərpa olunur

## 3. Yekun cədvəl

| | 11 metrlik zərbənin nəticəsi | |
|---|---|---|
| | **Qol** | **Qol deyil** |
| **Hücum edən komandanın oyunçusu cərimə meydanına daxil olur** | Zərbə təkrar edilir | Sərbəst zərbə |
| **Müdafiə olunan komandanın oyunçusu cərimə meydanına daxil olur** | Qol | Zərbə təkrar edilir |
| **Qapıçı qaydanı pozur** | Qol | Zərbə təkrar edilir və qapıçıya xəbərdarlıq edilir |
| **Top arxaya vurulur** | Sərbəst zərbə | Sərbəst zərbə |
| **Aldadıcı manevr** | Sərbəst zərbə təyin edilir və oyunçuya xəbərdarlıq edilir | Sərbəst zərbə təyin edilir və oyunçuya xəbərdarlıq edilir |
| **Zərbə yanlış oyunçu tərəfindən yerinə yetirilir** | Sərbəst zərbə təyin edilir və zərbəni yerinə yetirmiş oyunçuya xəbərdarlıq edilir | Sərbəst zərbə təyin edilir və zərbəni yerinə yetirmiş oyunçuya xəbərdarlıq edilir |
| **Qapıçı və zərbəni yerinə yetirən oyunçu eyni vaxtda qaydanı pozur** | Sərbəst zərbə təyin edilir və oyunçuya xəbərdarlıq edilir | Zərbə təkrar edilir və zərbəni yerinə yetirən oyunçuya və qapıçıya xəbərdarlıq edilir |


IFAB

# Qayda 15

# Topun Yan Xətdən Oyuna Daxil Edilməsi

Top yan xətti yerlə və ya hava ilə tam keçibsə, sonuncu dəfə topa toxunan oyunçunun rəqibi topu yan xətdən oyuna daxil edir.

Top, yan xətdən oyuna daxil edilərkən birbaşa qapıya daxil olarsa, qol qeydə alınmır:

- əgər top rəqib komandanın qapısına daxil olursa – qapıdan zərbə təyin edilir
- əgər top, onu yan xətdən oyuna daxil edən oyunçunun öz qapısına daxil olursa, küncdən zərbə təyin edilir

## 1. Prosedur

Topun yan xətdən oyuna daxil edilməsi zamanı oyunçu:

- üzü meydana tərəf ayaq üstə dayanmalıdır
- hər iki ayağının bir hissəsini ya yan xəttin üzərində, yaxud yan xəttin arxasında saxlamalıdır
- topu, onun oyun meydanını tərk etdiyi yerdən hər iki əli ilə başının arxasından və üzərindən daxil etməlidir

Bütün rəqib oyunçular topun yan xətdən oyuna daxil edilməli olduğu nöqtədən ən azı 2 m (2 yard) məsafədə dayanmalıdırlar.

Top, oyun meydanına daxil edildikdə, oyunda sayılır. Əgər top, oyuna daxil edilənə qədər yer səthinə toxunarsa, topun yan xətdən oyuna daxil edilməsi eyni komanda tərəfindən, eyni nöqtədən yerinə yetirilir. Əgər topun yan xətdən oyuna daxil edilməsi düzgün yerinə yetirilməyibsə, top əks komanda tərəfindən yan xətdən oyuna daxil edilir.

Əgər topu yan xətdən oyuna düzgün daxil edən oyunçu, təkrar topa oynamaq üçün bilərəkdən onu rəqibə atırsa, lakin bunu nə ehtiyatsız, nə düşüncəsiz şəkildə etmir, nə də həddən artıq güc tətbiq etmirsə, hakim oyunu davam etdirir.

Topu yan xətdən oyuna daxil edən oyunçu, hər hansı digər oyunçu topa toxunmamış ona yenidən toxuna bilməz.

## 2. Pozuntular və cəzalar

Əgər topu yan xətdən oyuna daxil edən oyunçu, top oyuna daxil olduqdan sonra başqa bir oyunçuya toxunmazdan əvvəl topa ikinci dəfə toxunarsa (əl ilə deyil), sərbəst zərbə təyin edilir; Əgər atmanı yerinə yetirən oyunçu topa əllə oynayarsa:

- cərimə zərbəsi təyin edilir
- qayda pozuntusu atmanı yerinə yetirən oyunçunun cərimə meydanında baş veribsə, 11 metrlik zərbə təyin edilir, lakin topa əllə oynayan müdafiə olunan komandanın qapıçısıdırsa, sərbəst zərbə təyin edilir

Əgər rəqib oyunçu, düzgün olmayan fəndlə, topu oyuna daxil edən oyunçunun diqqətini yayındırırsa və ya ona mane olursa (rəqibin, topun yan xətdən oyuna daxil edildiyi nöqtəyə 2 metrdən (2 yard) yaxın olması daxil olmaqla), ona qeyri-idman hərəkətinə görə xəbərdarlıq edilir və əgər atma yerinə yetirilibsə, sərbəst zərbə təyin edilir.

Bu Qaydanın hər hansı digər şəkildə pozulması zamanı atma əks komandanın oyunçusu tərəfindən yerinə yetirilir.


Bell

IFAB

# Qayda

# 16

# Qapıdan Zərbə

Top, son olaraq hücum edən komandanın oyunçusunun toxunuşundan sonra qapı xəttini yerlə və ya hava ilə tam keçibsə və qol vurulmayıbsa, qapıdan zərbə təyin edilir.

Bilavasitə qapıdan zərbədən sonra yalnız rəqib komandanın qapısına vurulan qol hesaba alınır; əgər top birbaşa zərbəni yerinə yetirən komandanın öz qapısına daxil olarsa, rəqib komandanın xeyrinə küncdən zərbə təyin edilir.

## 1. Prosedur

- Top hərəkətsiz olmalıdır və zərbə müdafiə olunan komandanın oyunçusu tərəfindən qapı meydanının istənilən nöqtəsindən yerinə yetirilir
- Topa zərbə endirildikdə və o, aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır.
- Rəqib komandanın oyunçuları, topun oyuna daxil edilməsinə qədər cərimə meydanından kənarda olmalıdırlar

## 2. Pozuntular və cəzalar

Əgər zərbəni yerinə yetirən oyunçu, top oyuna daxil olduqdan sonra başqa bir oyunçuya toxunmazdan əvvəl topa ikinci dəfə toxunarsa (əl ilə deyil), sərbəst zərbə təyin edilir. Əgər zərbəni yerinə yetirən oyunçu topa əllə oynayarsa:

- cərimə zərbəsi təyin edilir
- qayda pozuntusu zərbəni yerinə yetirən oyunçunun cərimə meydanında baş veribsə, 11 metrlik zərbə təyin edilir, lakin zərbəni yerinə yetirən qapıçı idisə, sərbəst zərbə təyin edilir

Qapıdan zərbə zamanı rəqib komandanın hər hansı oyunçusunun cərimə meydanını tərk etmək üçün imkanı olmamışdırsa, hakim oyunu davam etdirir. Qapıdan zərbə yerinə yetirilərkən rəqib komandanın oyunçusu cərimə meydanındadırsa və ya topun oyuna daxil edilməsinə qədər cərimə meydanına daxil olursa, topun oyuna daxil olmasına qədər topa toxunur və ya onun uğrunda mübarizəyə girirsə, qapıdan zərbə təkrar edilir.

Əgər oyunçu, topun oyuna daxil edilməsinə qədər cərimə meydanına daxil olur

və rəqib oyunçuya qarşı qaydanı pozur və ya rəqib oyunçu tərəfindən qayda pozuntusuna məruz qalırsa, qapıdan zərbə təkrar edilir və qayda pozuntusunun ciddiliyindən asılı olaraq oyunçuya xəbərdarlıq edilə və ya o, meydandan qovula bilər.

Bu Qaydanın hər hansı digər şəkildə pozulması zamanı zərbə təkrar edilir.


IFAB

IFAB

# Qayda

# 17

# Küncdən Zərbə

Top, son olaraq müdafiə olunan komandanın oyunçusunun toxunuşundan sonra qapı xəttini yerlə və ya hava ilə tam keçibsə və qol vurulmayıbsa, küncdən zərbə təyin edilir.

Bilavasitə küncdən zərbədən sonra yalnız rəqib komandanın qapısına vurulan qol hesaba alınır; əgər top birbaşa zərbəni yerinə yetirən komandanın öz qapısına daxil olarsa, rəqib komandanın xeyrinə küncdən zərbə təyin edilir.

## 1. Prosedur

- Top, onun qapı xəttini keçdiyi nöqtəyə yaxın olan künc bölməsinə yerləşdirilməlidir
- Top hərəkətsiz vəziyyətdə olmalıdır və zərbə hücum edən komandanın oyunçusu tərəfindən yerinə yetirilir
- Topa zərbə endirildikdə və o, aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır; topun künc bölməsini tərk etməsinə ehtiyac yoxdur
- Künc bayrağının dirəyi hərəkətsiz qalır
- Rəqib oyunçular, topun oyuna daxil edilməsinə qədər künc qövsündən ən azı 9.15 m (10 yard) məsafədə olmalıdır

## 2. Pozuntular və cəzalar

Əgər zərbəni yerinə yetirən oyunçu, top oyuna daxil olduqdan sonra başqa bir oyunçuya toxunmazdan əvvəl topa ikinci dəfə toxunarsa (əl ilə deyil), sərbəst zərbə təyin edilir. Əgər zərbəni yerinə yetirən oyunçu topa əllə oynayarsa:

- cərimə zərbəsi təyin edilir
- qayda pozuntusu zərbəni yerinə yetirən oyunçunun cərimə meydanında baş veribsə, 11 metrlik zərbə təyin edilir, lakin zərbəni yerinə yetirən qapıçıdı idisə, sərbəst zərbə təyin edilir

Əgər küncdən zərbəni düzgün yerinə yetirən oyunçu, təkrar topa oynamaq üçün bilərəkdən onu rəqibə vurursa, lakin bunu ehtiyatsız və ya düşüncəsiz şəkildə etmir, yaxud həddən artıq güc tətbiq etmirsə, hakim oyunu davam etdirir.

Bu Qaydanın hər hansı digər şəkildə pozulması zamanı zərbə təkrar edilir.


MAGNATEC

IFAB®

# Video Köməkçi Hakimin ("VAR") iş prosesi

# İş prosesi - prinsiplər, praktiki məsələlər və prosedurlar

Video köməkçi hakimin ("VAR") iş prosesi, mümkün olduğu qədər Oyun Qaydalarının prinsiplərinə və fəlsəfəsinə uyğunlaşır.

Video köməkçi hakimlərin ("VAR") təyin edilməsinə yalnız o zaman icazə verilir ki, matçın/yarışın təşkiatçısı "VAR"-ın iş prosesi və tətbiq edilməsi tələblərinə ("VAR" Kitabçasında müəyyən edilmiş) cavab verir, həmçinin BFAŞ-dan və FİFA-dan yazılı razılıq almışdır.

## 1. Prinsiplər

Futbol matçlarında video köməkçi hakimlərin ("VAR") təyin edilməsi çoxsaylı prinsiplərə əsaslanır ki, həmin prinsiplər video köməkçi hakimlərin ("VAR") təyin edildiyi hər bir matça şamil edilir.

1. Video köməkçi hakim ("VAR") müstəqil şəkildə matçın video-təkrarına baxaraq, aşağıdakı vəziyyətlərlə bağlı aşkar səhv və ya gözdən yayınan ciddi insident zamanı hakimə kömək edir:

   a. **Qolun qeydə alınıb-alınmaması**
   b. **11 metrlik zərbənin təyin edilib-edilməməsi**
   c. **Birbaşa qırmızı vərəqə (ikinci sarı vərəqə/xəbərdarlıq nəzərdə tutulmur)**
   d. **hakim qaydanı pozan komandanın yanlış oyunçusuna xəbərdarlıq etdikdə və ya onu qovduqda**

2. Hakim hər zaman qərar qəbul etməlidir, yəni hakimin heç bir qərar verməyib video köməkçi hakimə ("VAR") müraciət etməsinə icazə verilmir; təsdiqini tapmış qayda pozuntusundan sonra oyunun davam etdirilməsi qərarına baxış keçirilə bilər.

3. Video-təkrar qərarın aşkar səhv olduğunu aydın şəkildə göstərmədiyi halda, hakimin verdiyi ilk qərar dəyişməz olaraq qalır.
4. Yalnız hakim video-təkrara baxılmasına qərar verə bilər; Video-köməkçi hakim (və matçın digər hakimləri) sadəcə video-təkrara baxılmasını hakimə tövsiyə edə bilərlər.
5. Yekun qərar video-köməkçi hakimin ("VAR") verdiyi məlumat və yaxud hakimin meydanın kənarında video-təkrara baxması nəticəsində hər zaman hakim tərəfindən qəbul edilir.
6. Video-təkrara baxış prosesi ilə bağlı heç bir vaxt məhdudiyyəti yoxdur, belə ki, dəqiqlik vaxtdan daha önəmlidir.
7. Video-təkrar izlənilərkən oyunçular və komandanın rəsmi şəxsləri hakimi əhatə etməməli və baxış prosesinə və ya yekun qərara təsir etməyə cəhd etməməlidir.
8. Şəffalığı təmin etmək məqsədi ilə hakim baxış prosesi zamanı görünən yerdə dayanmalıdır.
9. İnsidentdən sonra oyun davam etdirilirsə və daha sonra baxış keçirilirsə, insidentdən sonrakı müddət ərzində görülmüş/tələb olunan hər hansı intizam tədbiri, hətta ilkin qərar dəyişdirilərsə belə, ləğv edilmir (perspektivli hücumun qarşısını almağa görə xəbərdarlıq və ya rəqibi aşkar qol vurmaq imkanından məhrum etməyə görə qovulma istisna olmaqla).
10. Əgər oyun dayandırılmış və bərpa edilmişsə, yanlış oyunçuya göstərilmiş vərəqə və yaxud təcavüzkar davranış, tüpürmək, dişləmək və ya həddən artıq təhqiredici və ya nalayiq hərəkətlər istisna olmaqla, hakim video-təkrara müraciət edə bilməz.
11. Baxış keçirilə bilən insidentdən əvvəlki və sonrakı oyun müddəti Oyun Qaydaları və video köməkçi hakimin ("VAR") iş prosesi ilə müəyyən edilir.
12. Video köməkçi hakim hər bir vəziyyəti/qərarı avtomatik olaraq yoxlayacağından məşqçilərin və ya oyunçuların təkrara baxılmasını tələb etməsinə ehtiyac yoxdur.

## 2. Təkrarına baxıla biləcək qərarlar/vəziyyətlər

Hakim matçdakı qərarların/insidentlərin yalnız dörd kateqoriyası ilə bağlı video köməkçi hakimin ("VAR") köməyinə müraciət edə bilər. Bütün bu vəziyyətlərdə, video köməkçi hakimə ("VAR") yalnız o halda müraciət edilir ki, hakim artıq (ilkin) qərarını vermişdir (oyunu davam etdirmək qərarı daxil olmaqla) və yaxud ciddi insident matçın hakimlərinin gözündən yayınmışdır.

Aşkar səhv olmadığı təqdirdə hakimin ilkin qərarı (matçın digər hakiminin verdiyi məlumat əsasında hakimin çıxardığı hər hansı qərar, məsələn "oyundankənar" vəziyyət) dəyişməz olaraq qalır.

Mümkün aşkar səhv və ya gözdən yayınan ciddi insident ilə bağlı təkrarına baxılması mümkün olan qərarlar/insidentlər aşağıdakı kateqoriyalara ayrılır:

**a. Qolun qeydə alınıb-alınmaması**

- qolla nəticələnən hücumun qurulması və ya qolun vurulması zamanı hücum edən komanda tərəfindən edilən qayda pozuntusu (əl ilə oyun, qayda pozuntusu, "oyundankənar" vəziyyət və s.)
- qolun vurulmasına qədər topun oyundan çıxması
- qolun qeydə alınıb-alınmaması qərarları
- 11 metrlik zərbə zamanı top qapı dirəyindən, qapı tirindən və ya qapıçıdan qayıtdıqda, qapıçı və (yaxud) zərbəni yerinə yetirən oyunçu tərəfindən (zərbənin yerinə yetirilməsi ilə bağlı) edilən qayda pozuntusu və yaxud hücum edən və ya müdafiə olunan komandanın oyunçusunun cərimə meydanına vaxtından əvvəl daxil olmaqla birbaşa müdaxilə etməsi

**b. 11 metrlik zərbənin təyin edilib-edilməməsi qərarları**

- penalti insidenti ilə nəticələnən hücumun qurulması və ya qolun vurulması zamanı hücum edən komanda tərəfindən edilən qayda pozuntusu (əl ilə oyun, qayda pozuntusu, "oyundankənar" vəziyyət və s.)
- insidentin baş verməsinə qədər topun oyundan çıxması
- qayda pozuntusunun edildiyi yer (cərimə meydanının daxilində, yoxsa ondan kənarda)
- yanlış təyin edilən 11 metrlik cərimə zərbəsi
- 11 metrlik cərimə zərbəsinə layiq, lakin cəzalandırılmamış qayda pozuntusu

**c. Birbaşa qırmızı vərəqələr (ikinci sarı vərəqə/xəbərdarlıq nəzərdə tutulmur)**

- Rəqibi aşkar qol vurmaq imkanından məhrum etmək (xüsusilə qayda pozuntusunun edildiyi yer və digər oyunçuların mövqeyi)
- ciddi qayda pozuntusu (və ya düşüncəsiz mübarizə)
- təcavüzkar davranış, dişləmək və ya başqa birisinə tüpürmək
- təhqiredici və ya nalayiq hərəkətlər etmək

d. **Qırmızı və ya sarı vərəqinin yanlış oyunçuya göstərilməsi**
Əgər hakim qayda pozuntusunu qeydə alır və qaydanı pozan komandanın yanlış oyunçusuna sarı və ya qırmızı vərəqə göstərirsə, qaydanı pozan oyunçunun kimliyi təkrara baxış vasitəsi ilə dəqiqləşdirilə bilər; qayda pozuntusunun özü qol, penalti insidenti və ya birbaşa qırmızı vərəqə ilə

bağlı deyilsə, qayda pozuntusunun təkrarına baxıla ilməz

### 3. Praktiki məsələlər

Matç ərzində video köməkçi hakimlərin ("VAR") fəaliyyəti aşağıdakı praktiki məsələləri nəzərdə tutur:

- Video köməkçi hakim ("VAR") matçı video əməliyyat otağında izləyir. Video köməkçi hakimin köməkçisi ("AVAR") və video-təkrar operatoru ("RO") ona kömək edir
- Kameraların görüntü bucaqlarından asılı olaraq (və digər məqamları nəzərə alaraq) video köməkçi hakimin köməkçisi ("AVAR") və video-təkrar operatoru ("RO") birdən artıq ola bilər
- Yalnız səlahiyyətli şəxslərin video əməliyyat otağına daxil olmasına və ya video köməkçi hakim ("VAR"), onun köməkçisi ("AVAR") və video-təkrar operatoru ("RO") ilə ünsiyyət qurmasına icazə verilir.
- Video köməkçi hakim ("VAR") televiziya yayımına müstəqil şəkildə nəzarət etmək və onun təkrarını idarə etmək imkanına malikdir
- Video köməkçi hakim ("VAR") matçın hakimləri tərəfindən istifadə edilən rabitə sisteminə qoşulur və onların söylədiyi hər şeyi eşidir; Video köməkçi hakim ("VAR") yalnız xüsusi düyməni sıxdıqdan sonra hakimlə əlaqə saxlaya bilər (video əməliyyat otağında edilən söhbətlərin hakimin diqqətini yayındırmaması üçün)
- Əgər video köməkçi hakim ("VAR") qərarı yoxlamaqla və ya təkrara baxmaqla məşğuldursa, video köməkçi hakimin köməkçisi ("AVAR") hakimlə əlaqə saxlaya bilər, xüsusilə əgər oyunun dayandırılması tələb olunursa və ya oyunun bərpa edilməməsini təmin etmək üçün
- Əgər hakim video-təkrara baxmaq qərarına gəlibsə, video köməkçi hakim ("VAR") ən yaxşı görüntü bucağını/video-təkrarın sürətini seçməlidir; hakim digər bucaqların göstərilməsini və görüntü sürətinin dəyişdirilməsini tələb edə bilər

## 4. Prosedurlar

### İlkin qərar

- Baş hakim və matçın digər hakimləri hər zaman ilkin qərarlarını verməlidirlər (hər hansı intizam tədbiri daxil olmaqla) - sanki matça video köməkçi hakim ("VAR") təyin edilməyib (gözdən yayınan insidentlər istisna olmaqla)
- Baş hakimin və matçın digər hakimlərinin heç bir qərar verməməsinə icazə verilmir, belə ki bu, zəif/qərarsız idarəçiliyə, həddindən artıq video-təkrarlara baxılmasına və texnologiya nasaz olduğu zaman əhəmiyyətli problemlərə səbəb olacaq
- Yekun qərarı verə biləcək yeganə şəxs hakimdir; Video köməkçi hakim ("VAR") matçın digər hakimləri ilə eyni statusa malikdir və hakimə yalnız kömək edə bilər
- Qayda pozuntusuna görə bayrağın qaldırılması/fitin səsləndirilməsi yalnız o halda gecikdirilə bilər ki, hücum üçün çox əlverişli vəziyyət yaranıb və oyunçu qol vurmağa çox yaxındı və ya rəqibin cərimə meydanına doğru aşkar şəkildə hərəkət edir
- Əgər hakimin köməkçisi qayda pozuntusuna görə bayrağın qaldırılmasını ləngidirsə və hücum edən komanda qol vurur, yaxud hücum edən komandanın lehinə 11 metrlik zərbə, cərimə/sərbəst zərbə, küncdən zərbə təyin edilir və ya topun yan xətdən oyuna daxil edilməsinə qərar verilirsə, və yaxud hücum edən komanda, ilkin hücumun başa çatmasından sonra, topa nəzarəti özündə saxlayırsa, hakimin köməkçisi bayrağını qaldırmalıdır; digər bütün hallarda, hakimin köməkçisi oyunun tələblərindən asılı olaraq, bayrağın qaldırılıb-qaldırılmamasına özü qərar verməlidir

### Epizodun yoxlanması

- Video köməkçi hakim (VAR) hər bir potensial və ya həqiqi qol, 11 metrlik zərbə və ya birbaşa qırmızı vərəqə qərarı/insidenti üçün, yaxud vərəqənin yanlış oyunçuya göstərilməsi vəziyyətlərində müxtəlif bucaq altında çəkilmiş görüntülərdən və müxtəlif görüntü sürətlərindən istifadə edərək video görüntüləri avtomatik olaraq yoxlayır
- Video köməkçi hakim ("VAR") video görüntünü normal sürətdə və ya yavaşıdılmış sürətdə izləyə bilər, lakin ümumilikdə yavaşıdılmış görüntü yalnız faktiki vəziyyətlər üçün istifadə olunmalıdır. Məsələn, qayda pozuntusunun yeri/oyunçunun mövqeyi, fiziki qayda pozuntuları və əl ilə oyun zamanı kontakt nöqtəsi, topun oyundan çıxması (habelə "qol/qol deyil" vəziyyətləri); qayda pozuntusunun intensivliyini yoxlamaq və ya əl ilə oyunun olub-olmamasına qərar vermək üçün görüntüyə normal sürətdə baxılmalıdır

- Əgər yoxlama aşkar səhvin və ya gözdən yayınan ciddi insidentin olmadığını göstərirsə, adətən video köməkçi hakimin ("VAR") baş hakimlə əlaqə saxlamasına ehtiyac yoxdur - bu, sakit yoxlamadır; lakin video köməkçi hakim ("VAR") aşkar səhvin və ya gözdən yayınan ciddi insidentin olmadığını təsdiq edərkən bu, bəzən hakimə/hakimin köməkçisinə oyunçuları/matçı idarə etməyə kömək edir
- Əgər epizodun yoxlanması məqsədi ilə oyunun bərpasının ləngidilməsi tələb olunnursa, hakim nümayişkəranə şəkildə barmağını qulaqcığına tutaraq digər əlini/qolunu açmaqla işarə verir; epizodun yoxlanmasının başa çatmasına qədər hakim bu işarəni verməkdə davam edir. Bu işarə bildirir ki, hakim (video köməkçi hakim ("VAR") və ya matçın digər hakimi tərəfindən verilən) məlumatı dinləyir
- Əgər epizodun yoxlanması aşkar səhvin və ya gözdən yayınan ciddi insidentin ola biləcəyini göstərirsə, video köməkçi hakim ("VAR") bu məlumatı (veriləcək qərarı deyil) hakimə bildirir və hakim video-təkrara baxıb-baxmayacağına özü qərar verir

**Video-təkrara Baxış**

- Hakim aşağıdakı hallarda, aşkar səhv və ya gözdən yayınan ciddi insident ilə bağlı video-təkrara baxılmasına qərar verə bilər:
  - video köməkçi hakim ("VAR") (və ya matçın digər hakimi) video-təkrara baxılmasını tövsiyə edirsə
  - hakim ciddi insidentin gözdən yayındığından şübhələnirsə
- Əgər oyun artıq saxlanmışsa, hakim oyunun bərpasını ləngidir
- Əgər oyun hələ saxlanmayıbsa, hakim oyunu top neytral zonada olduqda, saxlayır (adətən heç bir komandanın hücum etmədiyi zaman)
- Hər iki vəziyyətdə, hakim aşkar şəkildə video-təkrar işarəsini (televizor ekranı) verməklə bildirməlidir ki, video-təkrara baxılacaq
- Video köməkçi hakim ("VAR") veriləcək qərarı deyil, video-təkrarda nəyin izlənilə biləcəyini təsvir edir və daha sonra hakim:
  - özünün mülahizəsinə və video köməkçi hakimin ("VAR") verdiyi məlumata, zəruri hallarda isə matçın digər hakimlərinin verdiyi məlumata (yalnız video-köməkçi hakimin təkrara baxması ilə) əsasən yekun qərar verir.
    *və ya*
  - yekun qərarı verməzdən əvvəl videotəkrara baxış zonasına gedərək video-təkrarı izləyir. İstisna hallarda hakim tərəfindən tələb edilmədiyi halda, matçın digər hakimləri video-təkrarı izləməməlidirlər.

- Hər iki baxış prosesinin sonunda hakim "televiziya ekranı" işarəsini verməli və dərhal sonra yekun qərarı bildirməlidir
- Faktlar əsasında verilən qərarlar, məsələn qayda pozuntusunun və ya oyunçunun yeri ("oyundankənar" vəziyyət), kontakt nöqtəsi (əl ilə oyun/qayda pozuntusu), yer (cərimə meydanının daxilində, yoxsa ondan kənarda), topun oyundan çıxması və s. vəziyyətlər üçün təkcə video köməkçi hakimin təkrara baxması adətən kifayətdir. Lakin əgər bu, oyunçuları/matçı idarə etməyə və ya qərarı dəstəkləməyə (məsələn, matçın sonunda mühüm həlledici qərar) kömək edəcəksə, meydandan kənarda video təkrara baxıla bilər
- Subyektiv qərarlar, məsələn qayda pozuntusunun intensivliyi, "oyundankənar" vəziyyətdə oyuna müdaxilə, əl ilə oyuna meyarları üçün adətən meydandan kənarda video-təkrara baxılması mübnasib hesab edilir
- Hakim video görüntünün müxtəlif bucaqda və ya sürətdə göstərilməsni tələb edə bilər, lakin ümumilikdə yavaşıdılmış görüntü yalnız faktiki vəziyyətlər üçün istifadə olunmalıdır. Məsələn, qayda pozuntusunun yeri/oyunçunun mövqeyi, fiziki qayda pozuntuları və əl ilə oyun zamanı kontakt nöqtəsi, topun oyundan çıxması (habelə "qol/qol deyil" vəziyyətləri); qayda pozuntusunun intensivliyini yoxlamaq və ya əl ilə oyunun olub-olmadığına qərar vermək üçün görüntüyə normal sürətdə baxılmalıdır
- Qolun vurulması, 11 metrlik cərimə zərbəsinin təyin edilib-edilməməsi və rəqibi aşkar qol vurmaq imkanından məhrum etməyə görə qırmızı vərəqənin göstərilməsi ilə əlaqədar qərarların verilməsi üçün, qərara/insidentə birbaşa səbəb olan hücum fazasının təkrarına baxmaq zəruri ola bilər; bura hücum edən komandanın topu necə ələ keçirməsi daxil ola bilər
- Oyun Qaydaları oyun bərpa edildikdən sonra oyunun bərpası üsulunu (küncdən zərbə, topun yan xətdən oyuna daxil edilməsi və s.) dəyişməyə icazə vermir, ona görə də onların video-təkrarına baxıla bilməz
- Əgər oyun saxlanılmış və bərpa edilmişsə, hakim video-təkrara müraciət edə, lakin yalnız yanlış oyunçuya göstərilmiş vərəqə və yaxud aqressiv davranış, tüpürmək, dişləmək və ya həddən artıq təhqiredici və ya nalayiq hərəkətlərə görə potensial qovulma ilə əlaqədar müvafiq intizam tədbiri görə bilər.
- Video-təkrara baxış prosesi mümkün olduğu qədər effektiv şəkildə tamamlanmalıdır, lakin yekun qərarın dəqiqliyi onun tez verilməsindən daha önəmlidir. Bu səbəbdən və bəzi vəziyyətlər çoxsaylı baxış keçirilən qərarların/insidentlərin toplusu olduğu üçün video-təkrara baxış prosesi üçün heç bir vaxt məhdudiyyəti yoxdur

**Yekun qərar**

- Video-təkrara baxış prosesi tamamlandıqda, hakim "televiziya ekranı" işarəsini verməli və yekun qərarı bildirməlidir
- Hakim hər hansı intizam tədbiri görməli, onu dəyişməli və ya ləğv etməlidir (zərurət yarandıqda) və matçı Oyun Qaydalarına uyğun olaraq bərpa etməlidir

**Əsas heyətin oyunçuları, ehtiyat oyunçular və komandanın rəsmi şəxsləri**

- Video köməkçi hakim ("VAR") hər bir vəziyyəti/insidenti avtomatik olaraq yoxlayacağından məşqçilərin və ya oyunçuların epizodun yoxlanmasını və ya təkrara baxılmasını tələb etməsinə ehtiyac yoxdur.
- Əsas heyətin oyunçuları, ehtiyat oyunçular və komandanın rəsmi şəxsləri video-təkrara baxış prosesinə, həmçinin yekun qərar verilərkən müdaxilə etməyə cəhd etməməlidirlər
- Video-təkrara baxış zamanı, oyunçular oyun meydanında qalmalıdır; ehtiyat oyunçular və komandanın rəsmi şəxsləri oyun meydanından kənarda qalmalıdırlar
- Video-təkrara baxılmasını qəti şəkildə tələb edən və ya video-təkrara baxış zonasına daxil olan əsas heyətin oyunçusuna, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya, komandanın rəsmi şəxsinə xəbərdarlıq edilməlidir
- Video əməliyyat otağına daxil olan əsas heyətin oyunçusu, ehtiyat oyunçu, əvəz edilmiş oyunçu və ya komandanın rəsmi şəxsi qovulmalıdır.

**Matçın etibarlılığı**

Matç aşağıdakı səbəblərdən qüvvəsini itirmiş hesab olunmur:

- "VAR" texnologiyasının (həmçinin qapı xətti texnologiyasının) nasazlığı
- video köməkçi hakimin ("VAR") iştirakı ilə yanlış qərarın verilməsi (belə ki, "VAR" matçın hakimlərindən biridir)
- insidentin video-təkrarına baxılmaması qərarı
- video-təkrara baxılması nəzərdə tutulmayan vəziyyətin/qərarın təkrarına baxılması

IFAB



IFAB

# Qaydalara dəyişikliklər

2019/20

IFAB

# Qaydalara dəyişikliklərin qısa xülasəsi

Aşağıda əsas dəyişikliklərin sadə icmalı və izahları təqdim edilmişdir.

**Qayda 1**

- Video-təkrara baxış zonasına daxil olduğuna görə komandanın rəsmi şəxsinə xəbərdarlıq (SV) ediləcək və o, video əməliyyat otağına daxil olduğuna görə qovulacaq

**Qayda 3**

- Hakim tərəfindən başqa göstəriş verilməyibsə, əvəz edilən oyunçu meydanı, məhdudlaşdırıcı xəttin ən yaxın nöqtəsindən tərk etməlidir

**Qayda 4**

- Köynək altlıqları əsas köynəyin qolları il eyni rəngdədirsə, onlar çoxrəngli/naxışlı ola bilər

**Qayda 5**

- Oyun bərpa edildikdən sonra hakim oyunun bərpası üsulunu dəyişə bilməz, lakin müəyyən vəziyyətlərdə, əvvəlki insident üçün sarı və ya qırmızı vərəqə göstərə bilər
- Əgər hakim hissənin sonunda video-təkrara baxmaq və ya oyunçuları meydana geri çağırmaq üçün meydanı tərk edirsə, qərar hələ də dəyişdirilə bilər
- İntizamsız davranışda təqsirkar olan rəsmi şəxslərə sarı və ya qırmızı vərəqə göstərilə bilər; əgər təqsirkarı müəyyən etmək mümkün deyilsə, texniki zonada olan baş məşqçiyə sarı və ya qırmızı vərəqə göstərilir
- Əgər 11 metrlik zərbə təyin edilibsə, zərbəni yerinə yetirməli olan oyunçu tibbi müdaxilə aldıqdan sonra meydanda qala və zərbəni yerinə yetirə bilər

**Qayda 7**

- Dincəlmə və su fasiləsi arasındakı fərq aydınlaşdırılır

**Qayda 8**

- Püşkatmada qalib gələn komanda başlanğıc zərbəsini yerinə yetirməyi seçə bilər
- "Mübahisəli top" - top qapıçı üçün (əgər oyun cərimə meydanında saxlanılıbsa) və ya topa sonuncu dəfə toxunmuş komandanın bir oyunçusu üçün sonuncu toxunuş nöqtəsində atılır; digər bütün oyunçular (hər iki komandanın) ən azı 4 metr (4.5 yard) məsafədə olmalıdırlar

**Qayda 9**

- Əgər top baş hakimə (və ya matçın digər hakimlərindən birinə) toxunaraq qapıya istiqamətlənir, top digər komandanın nəzarətinə keçir və ya hücum başlayırsa, "mübahisəli top" atılır

**Qayda 10**

- Qapıçı topu əli ilə rəqib komandanın qapısına atmaqla qol vura bilməz

**Qayda 12**

- Bilərəkdən olmayan əllə oyunun nə zaman cəzalandırılmasını aydınlaşdırmaq üçün əl ilə oyun barədə olan mətn daha aydın və ardıcıl şəkildə yenilənmişdir
- Öz cərimə meydanında qapıçının icazə verilməyən əllə oyuna görə sarı və ya qırmızı vərəqə ilə cəzalandırılmaması dəqiqləşdirilir
- Topun yan xətdən oyuna daxil edilməsindən və ya komanda yoldaşının bilərəkdən topa oynamasından sonra qapıçı topu oyuna buraxmaq üçün uğursuz zərbə endirirsə və ya topa zərbə vurmağa cəhd edirsə, bundan sonra qapıçı topa əl ilə toxuna bilər
- Əgər qayda pozuntusuna məruz qalan komanda cərimə/sərbəst zərbəni cəld yerinə yetirirsə və qol vurmaq imkanı yaradırsa, hakim sarı və ya qırmızı vərəqinin göstərilməsini oyunun növbəti dəfə dayandırılmasına qədər ləngidə bilər
- Hətta əgər qol ləğv edilirsə belə, qolun icazə verilməyən şəkildə bayram edilməsinə görə göstərilən sarı vərəqə qüvvədə qalır
- Komandanın rəsmi şəxsləri üçün şifahi xəbərdarlıq, sarı vərəqə və qırmızı vərəqə ilə cəzalandırılan qayda pozuntuları sadalanır
- Bütün şifahi pozuntular sərbəst zərbə ilə cəzalandırılır
- Əşyanın ayaqla atılması əşyanın əllə atılması il eyni şəkildə cəzalandırılır

## Qayda 13

- Sərbəst zərbə yerinə yetirildikdən sonra, əgər qolun birbaşa vurula bilməyəci aşkardırsa (məs., əksər "oyundankənar" vəziyyətlərdən sonra təyin edilən sərbəst zərbələr zamanı), hakim sərbəst zərbə işarəsinin göstərilməsini dayandıra bilər
- Cərimə meydanında müdafiə olunan komanda tərəfindən yerinə yetirilən cərimə/sərbəst zərbələr zamanı, topa zərbə endirildikdə və o, aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır; topun cərimə meydanını tərk etməsinə ehtiyac yoxdur
- Ən azı 3 oyunçudan ibarət "canlı sədd" qurulmuşsa, hücum edən komandanın bütün oyunçuları "canlı sədd"ən ən azı 1 metr məsafədə olmalıdırlar

## Qayda 14

- 11 metrlik zərbə yerinə yetirilərkən qapı dirəkləri, qapı tiri və qapı toru hərəkətsiz vəziyyətdə olmalıdır və qapıçı onlara toxunmamalıdır
- 11 metrlik zərbə yerinə yetirilərkən, qapıçının ən azı bir ayağının müəyyən hissəsi qapı xətti üzərində və ya onunla eyni xətdə olmalıdır; qapıçı xətdən arxada dayana bilməz
- 11 metrlik zərbənin yerinə yetirilməsi üçün hakimin işarəsindən sonra zərbənin yerinə yetirilməsinə qədər qayda pozuntusu baş verərsə, sarı və ya qırmızı vərəqənin göstərilməsindən sonra zərbə yerinə yetirilməlidir

## Qayda 15

- Rəqib komandanın oyunçuları topun yan xətdən oyuna daxil edilməli olduğu nöqtədən ən azı 2 metr məsafədə olmalıdırlar, hətta əgər topu oyuna daxil edən oyunçu yan xətdən arxadadırsa

## Qayda 16

- Qapıdan zərbələr zamanı, topa zərbə endirildikdə və o, aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır; topun cərimə meydanını tərk etməsinə ehtiyac yoxdur

# Mətnin redaktəsi

Mətnin məzmununu daha məntiqli və ardıcıl etmək üçün mətnin müəyyən hissələri redaktə edilmişdir. Qüvvəsini itirmiş bir sıra mətnlər silinmişdir. Redaktə edilmiş əsas hissələrin altından xətt çəkilmişdir. Ən əhəmiyyətli redaktə dəyişiklikləri aşağıdakılardır:

**Dəyişdirilmiş mətn (bir neçə Qaydada)**

- Əl ilə oyunla bağlı "bilərəkdən" sözü silinmişdir.

**Silinmiş mətn**

### Qayda 4

- "EPTS" peşəkar standartı üçün başa çatmış keçid müddəti ilə bağlı mətn

### Qayda 5

- Tək əl ilə üstünlük prinsipi işarəsinin tətbiq edilməsinin səbəbləri

### Qayda 16

- Topun cərimə meydanını tərk etməsindən əvvəl topa toxunulmasına görə qapıdan zərbənin təkrar edilməsi ilə bağlı mətn

**Yenidən təşkil edilmiş mətn**

Mətnin daha məntiqli edilməsi üçün bəzi cümlələrin/paraqrafların yeri dəyişdirilmişdir:

- səh. 35 - süni örtüklər üzərindəki xətlər barədə paraqrafın yeri dəyişdirilmişdir
- səh. 40 - mətn yenidən təşkil edilmişdir
- səh. 45 - topun dairə boyu uzunluğu və çəkisi ilə bağlı bəndlərin ardıcıllığı əksinə dəyişdirilmişdir
- səh. 96 - abzas nöqtələrinin yeri dəyişdirilmişdir
- səh. 122 - mətn yenidən təşkil edilmişdir

**Bərpa edilmiş mətn**

## Qayda 1

- "Loqolar və emblemlər" barədə paraqrafın sonuncu cümləsi bərpa edilmişdir

# Qaydalara Dəyişikliklərin Təfərrüatları (Qayda sırası ilə)

Oyun Qaydalarının 2018/19-cu il nəşrindən sonra edilmiş bütün dəyişikliklər aşağıda ətraflı şəkildə sadalanır. Hər bir dəyişiklik üzrə əvvəlki mətn (müvafiq yerlərdə) və yeni/dəyişdirilmiş/əlavə mətn verilmiş və dəyişiklik izah edilmişdir.

## Qayda 01 – Oyun Meydanı

### 14. Video köməkçi hakimlər (VAR)

**Dəyişdirilmiş mətn**

**Video əməliyyat otağı**

Video əməliyyat otağına daxil olan əsas heyətin oyuçusu, ehtiyat oyunçu, ~~və ya~~ əvəz edilmiş oyunçu və ya komandanın rəsmi şəxsi qovulmalıdır; ~~video əməliyyat otağına daxil olan komandanın rəsmi şəxsi texniki zonadan uzaqlaşdırılmalıdır.~~

**Video-təkrara baxış zonası**

Video-təkrara baxış zonasına daxil olan əsas heyətin oyunçusuna, ehtiyat oyunçuya, ~~və ya~~ əvəz edilmiş oyunçuya və ya komandanın rəsmi şəxsinə xəbərdarlıq edilməlidir; ~~video-təkrara baxış zonasına daxil olan komandanın rəsmi şəxsinə nümayişkəranə şəkildə rəsmi şifahi xəbərdarlıq edilməlidir (və ya xüsusi yarışlarda komandanın rəsmi şəxsinə sarı vərəqə göstəriləcək).~~

**İzah**

Komandanın rəsmi şəxsləri tərəfindən edilən intizamsız davranış bundan sonra sarı və ya qırmızı vərəqə ilə cəzalandırılır.

## Qayda 03 – Oyunçular

### 3. Əvəzetmə proseduru

**Dəyişdirilmiş mətn**

Əsas oyunçunun ehtiyat oyunçu ilə əvəz edilməsi üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir:

- (...)
- əvəz edilməli olan oyunçu:
  - onun artıq meydanı tərk etdiyi hallar istisna olmaqla, oyun meydanını tərk etmək üçün hakimdən icazə almalı, və əgər hakim oyunçunun meydanı birbaşa və dərhal mərkəz xəttindən və ya başqa bir nöqtədən tərk edə biləcəyini işarə etmirsə (məs., təhlükəsizlik/mühafizə və ya zədə səbəbi ilə), oyunçu meydanı məhdudlaşdırıcı xəttin ən yaxın nöqtəsindən tərk etməlidir
  - ~~əvəz edilən oyunçu meydanı mərkəz xəttindən tərk etmək məcburiyyətində deyil və~~ dərhal texniki zonaya və ya paltardəyişmə otağına getməli və təkrar əvəzetməyə icazə verilən hallar istisna olmaqla, matçın sonrakı gedişində iştirak edə bilməz
- əgər əvəz edilməli olan oyunçu meydanı tərk etməkdən imtina edirsə, oyun davam etdirilir.

**İzah**

Əvəz edilən oyunçunun, meydanı tərk etmək üçün mərkəz xətti istiqamətində ləng hərəkət edərək (Qayda bunu tələb etmədiyi halda) vaxtı uzatmasının qarşısını almaq üçün oyunçudan meydanı ən yaxın nöqtədən tərk etmək tələb olunur (zədələnmə hallarında olduğu kimi), bir şərtlə ki, hakim fərqli göstəriş verməsin, məsələn oyunçu meydanı mərkəz xəttindən cəld tərk bilər, təhlükəsilzik/mühafizə məsələsi nəzərə alınmalıdır və ya oyunçu meydanı xərəkdə tərk edir. Ehtiyat oyunçularla, tamaşaçılarla və ya matçın hakimləri ilə problemlərin yaşanmaması üçün oyunçu dərhal texniki zonaya və ya paltardəyişmə otağına yollanmalıdır. Bu Qaydanın ruhunu pozan, məsələn oyunun bərpasını ləngidən oyunçu qeyri-idman hərəkətinə görə cəzalanmalıdır.

## Qayda 04 – Oyunçuların Geyimi

### 3. Rənglər

**Əlavə mətn**

Köynək altlığı:

- köynəyin qollarının əsas rəngi ilə eyni tək rəngdə olmalıdır və ya
- köynəyin qolları ilə tamamilə eyni olan naxışa/rəngə malik olmalıdır

**İzah**

İstehsalçılar hal-hazırda qolları əsas köynəyin qolları ilə eyni naxışa malik köynək altlıqları hazırlayırlar; onların istifadəsinə icazə verilməlidir, belə ki, onları qərar verməkdə matçın hakimlərinə kömək edirlər.

## Qayda 05 – Baş Hakim

### 2. Hakimin qərarları

**Dəyişdirilmiş mətn**

Əgər oyun bərpa edilmişsə, yaxud hakim birinci və ya ikinci hissənin (habelə əlavə vaxtın) başa çatdığını bildirən işarə vermiş və oyun meydanını tərk etmişsə, yaxud matçı təxirə salmışsa, hakim, qərarının yanlış olduğunu anlayaraq və ya digər hakimlərin məsləhəti ilə oyunun bərpası üsulunu dəyişə bilməz. Bununla belə, əgər hissənin sonunda hakim video-təkrara baxış zonasına yaxınlaşmaq və yaxud oyunçuların oyun meydanına qayıtmasına göstəriş vermək üçün oyun meydanını tərk edirsə, bu, hissənin başa çatmasına qədər baş vermiş insidentə görə qərarın dəyişdirilməsinin qarşısını almır.

Qayda 12-nin 3-cü bəndində və "VAR"-ın iş prosesində müəyyən edilmiş hallar istisna olmaqla, əgər oyunun bərpa edilməsinə qədər matçın hakimlərindən digər biri qayda pozuntusunu aşkar etmiş və bunu baş hakimə bildirməyə cəhd etmişsə, oyunun bərpa edilməsindən sonra yalnız intizam sanksiyası tətbiq edilə bilər; sanksiyaya uyğun bərpa üsulu tətbiq edilmir.

## Explanation

- Əgər hissənin sonunda hakim video-təkrara baxış zonasına yollanırsa və y oyunçuları meydana qaytarmaq üçün meydanı tərk edirsə, video-təkrara baxılmasına icazə verilir və hissənin başa çatmasında əvvəı bş vermiş qayda pozuntusuna görə qərar dəyişfitilə bilər
- Bəzən matçın digər hakimləri sarı və qırmızı vərəqə ilə cəzalandırılmalı oan qayda pozuntusu barədə işarə verirlər (məs., hakimin köməkçisi topsuz ərazidə təcavüzkar davranışı bildirmək üçün bayraq işarə verir), lakin baş hakim bu işarəni yalnız oyunun bərpa edilməsində sonra görür. Hakim müvafiq intizam sanksiyası tətbiq edə bilər, laki qayda pozuntusuna uyğun bərpa üsulu tətbiq edilmir

## 3. Hüquq və vəzifələri –İntizam tədbiri

### Dəyişdirilmiş mətn

(...)

- özlərini nəzakətsiz aparan rəsmi şəxslərə qarşı tədbirlər görür, şifahi xəbərdarlıq edir, yaxud sarı vərəqə göstərərək rəsmi xəbədarlıq edir və ya qırmızı vərəqə göstərərək onları oyun meydanından və onu əhatə edən ərazidən, o cümlədən texniki zonadan uzaqlaşdırır; əgər təqsirkarı müəyyən etmək mümkün deyilsə, sanksiya texniki zonada olan baş məşqçiyə tətbiq edilməlidir. Əgər (...), qovulma ilə cəzalandırılmalı olan davranış göstərən tibbi nümayəndə texniki zonada qala və ehtiyac yarandıqda oyunçuya tibbi müdaxilə göstərə bilər

### İzah

Komandanın rəsmi şəxsləri tərəfindən edilən intizamsız davranışa görə sarı və ya qırmızı vərəqənin götərilməsi üzrə eksperiment uğurlu alınmış və bütün səviyyələrdə eksperimentin çoxsaylı faydaları, həmçinin gənc hakimlərin "problemli" məşqçilərə qarşı effekti aşkar edilmişdir. Əgər təqsirkarı müəyyən etmək mümkün deyilsə, texniki zonada olan baş məqçiyə sarı və ya qırmızı vərəqə göstərilir (belə ki, komandanın digər rəsmi şəxslərinə görə məsuliyyəti o daşıyır).

### 3. Hüquq və vəzifələri – Zədələr

**Əlavə mətn**

(...)

- Zədələnmiş oyunçuya oyun meydanında tibbi müdaxilə etməyə icazə verilmir (...). Oyun meydanını tərk etmək tələbi üzrə istisnalar yalnız aşağıdakılardır:
- (...)
- 11 metrlik zərbə təyin edilir və zərbəni zədələnən oyunçu yerinə yetirməlidir

**İzah**

11 metrlik zərbəni yerinə yetirməli oyunçuya tibbi müdaxilə göstərilməli olduğu halda, onun meydanı tərk etmək məcburiyyətində qalması və zərbəni yerinə yetirə bilməməsi ədalətsizlik olardı.

## Qayda 07 – Matçın Davamiyyəti

### 3. Artırılmış vaxt

**Dəyişdirilmiş mətn**

Hər hansı hissə ərzində, aşağıdakı səbəblərdən itirilmiş vaxt hakim tərəfindən həmin hissənin davamiyyətinə əlavə edilir:

(...)

- ~~yarışın reqlamenti ilə icazə verilən su fasiləsi (1 dəqiqədən çox olmamaq şərti ilə) və ya oyunun tibbi müdaxilə səbəbi ilə saxlanılması~~
- yarışın reqlamenti ilə icazə verilən tibbi xarakterli fasilələr, məsələn su fasiləsi (bir dəqiqədən artıq olmamaqla) və dincəlmə fasiləsi (doxsan saniyədən üç dəqiqəyə qədər)

**İzah**

Oyunçuların sağlamlığını nəzərə alaraq, yarışın reqlamenti ilə müəyyən hava şəraitində (yüksək rütubət və temperatur) bədənin temperaturunun azalmasına imkan vermək məqsədi ilə dincəlmə fasiləsinə (doxsan saniyədən üç dəqiqəyə qədər) icazə verilə bilər; bu, oyunçuların susuzluğunu yatırmaq məqsədi daşıyan su fasiləsindən (maksimum bir dəqiqə) fərqlənir.

## Qayda 08 - Oyunun Başlanması və Bərpası

### 1. Başlanğıc zərbəsi – Prosedur

#### Dəyişdirilmiş mətn

- püşkatmada qalib gələn komanda birinci hissədə hücum edəcəyi qapını, yaxud başlanğıc zərbəsini yerinə yetirəcəyini seçir
- yuxarıda qeyd edilən seçimdən asılı olaraq, rəqib komanda başlanğıc zərbəsini yerinə yetirir və ya birinci hissə ərzində hücum edəcəyi qapını seçir
- ~~püşkatmada qalib gələn~~ birinci hissə ərzində hücum edəcəyi qapını seçən komanda ikinci hissədə başlanğıc zərbəsini yerinə yetirir

#### İzah

Yaxın keçmişdə Qaydalara edilən dəyişikliklərdən sonra başlanğıc zərbəsi daha dinamik olmuşdur (məs., başlanğıc zərbəsindən birbaşa qolun vurulması ehtimalı artır) və püşkatmada qalib gələn kapitanlar tez-tez başlağıc zərbəsinin yerinə yetirilməsini istəyirlər.

## 2. "Mübahisəli top" – Prosedur

**Dəyişdirilmiş mətn**

| Əvvəlki mətn | Yeni mətn |
| --- | --- |
| • Hakim topu, oyun saxlanılan anda topun olduğu yerdə yerə atır. Əgər hakim oyunu saxlayan anda top qapı meydanındadırsa, "mübahisəli top" qapı meydanının qapı xəttinə paralel olan xəttinin topun olduğu yerə yaxın nöqtəsində atılır<br>• Top yer səthinə toxunduqda oyunda hesab olunur<br>• "Mübahisəli top"un atılmasında istənilən sayda oyunçu (habelə qapıçılar) iştirak edə bilər; hakim "mübahisəli top"un atılmasında kimin iştirak edəcəyinə qərar verə bilməz və ya "mübahisəli top"un nəticəsini planlaşdıra bilməz | • Top cərimə meydanında müdafiə olunan komandanın qapıçısı üçün yerə atılır, əgər oyun saxlanılan zaman:<br>· top cərimə meydanında olmuşdur və ya<br>· topa sonuncu toxunuş cərimə meydanında olmuşdur<br>• Digər bütün hallarda, hakim topu, onun sonuncu dəfə oyunçuya, kənar əşyaya və yaxud, Qaydanın 9-un 1-ci bəndində qeyd edildiyi kimi, matçın hakimlərindən birinə toxunduğu yerdə, topa sonuncu dəfə toxunmuş komandanın bir oyunçusu üçün yerə atır<br>• Digər bütün oyunçular (hər iki komandanın) topun oyuna daxil edilməsinə qədər topdan ən azı 4 m (4.5 yard) məsafədə olmalıdırlar<br><br>Top yer səthinə toxunduqda oyunda hesab olunur.<br><br>~~"Mübahisəli top"un atılmasında istənilən sayda oyunçu (habelə qapıçılar) iştirak edə bilər; hakim "mübahisəli top"un atılmasında kimin iştirak edəcəyinə qərar verə bilməz və ya "mübahisəli top"un nəticəsini planlaşdıra bilməz.~~ |

### İzah

"Mübahisəli top" proseduru adətən planlaşdırılmış nəticə ilə başa çatırdı və ədalətsiz şəkildə sui-istifadə edilirdi (məs., oyunçu topu meydanın rəqibə aid olan hissəsinə göndərirdi) və ya aqressiv qarşıdurmaya gətirib çıxarırdı. Topun, sonuncu dəfə ona toxunmuş (topa nəzarət etmiş) komandaya qaytarılması oyunun dayandırıldığı anda "itirilən"i bərpa edir, lakin cərimə meydanında topun qapıçıya qaytarılması daha ədalətlidir. Komandanın haqsız üstünlük qazanmasının qarşısını almaq üçün, topu qəbul edən oyunçu istisna olmaqla, hər iki komandanın bütün oyunçuları ən azı 4 metr (4.5 yard) məsafədə olmalıdırlar.

## Qayda 09 - Topun Oyunda Olması və Olmaması

### 1. Top oyunda deyil

#### Əlavə mətn

Top oyundan çıxmış hesab edilir:

- (...)
- top matçın hakimlərindən birinə toxunduqdan sonra oyun meydanında qalır və:
  - komanda perspektivli hücuma başlayırsa və ya
  - top birbaşa qapıya istiqamətlənirsə və ya
  - top digər komandanın nəzarətinə keçirsə

Bütün bu hallarda, oyun "mübahisəli top"la bərpa olunur.

### İzah

Topun matçın hakimlərinə, xüsusi ilə baş hakimə toxunması nəticəsində komandanın üstünlük qazanması və ya qol vurması ədalətsiz olardı.

### 2. Top oyundadır

#### Dəyişdirilmiş mətn

Topun matçın hakimlərinə toxunduğu və ~~matçın hakimlərindən~~qapı dirəyindən, qapı tirindən və ya künc bayrağından qayıdaraq meydanda qaldığı bütün digər hallarda top oyunda hesab edilir.

**İzah**

Qayda 9.1-də qeyd edilmiş hallar istisna olmaqla, top matçın hakimlərinə toxunduqda oyunda hesab olunur.

## Qayda 10 – Matçın Nəticəsinin Müəyyən Edilməsi

### 1. Qolun vurulması

**Əlavə mətn**

(...)

Əgər qapıçı topu əli ilə birbaşa rəqib komandanın qapısına atarsa, qapıdan zərbə təyin olunur

**İzah**

Dəyişiklik Qayda 12-dəki əllə oyunun yeni mətninə uyğunlaşdırılmışdır.

## Qayda 12 – Qayda Pozuntuları və İntizamsız Davranış

### 1. Cərimə zərbəsi – Əl ilə oyun

**Dəyişdirilmiş mətn**

"Əllə oyun" bölməsinin əsas hissəsi yenilənmişdir (bax: səh. 104-105)

## İzah

Əl ilə oyunla bağlı xüsusilə bilərəkdən edilməyən qayda pozuntularının aydınlaşdırılmasına ehtiyac var idi. Mətnin dəyişdirilməsi çoxsaylı prinsiplərə əsaslanır:

- futbol qolun əl/qol ilə vurulmasını qəbul etmir (hətta təsadüfən olsa belə)
- əgər oyunçu əli/qolu vasitəsi ilə topa yiyələnir və əhəmiyyətli üstünlük qazanırsa, məsələn qol vurur və ya qol vurmaq imkanı qazanırsa, oyunçu cəzalandırılmalıdır
- yerə yıxılarkən, oyunçunun öz qolunu bədəni ilə yer arasına qoyması təbiidir
- oyunçunun əlini/qolunu çiyin səviyyəsindən yuxarıya qaldırması adətən qeyri-təbii vəziyyət hesab olunur və sürüşmək də daxil olmaqla, oyunçu əlini/qolunu bu vəziyyətdə saxlamaqla risk etmiş olur
- əgər top oyunçunun və ya yaxında olan digər oyunçunun (istənilən komandanın) bədənindən sıçrayaraq ələ/qola toxunarsa, bu halda topla təmasdan yayınmaq adətən mümkün olmur

## 1. Cərimə zərbəsi – Əl ilə oyun

### Dəyişdirilmiş mətn

Hər hansı oyunçuya əl ilə oyuna görə tətbiq olunan məhdudiyyət, öz cərimə meydanından kənarda olan qapıçıya da şamil edilir. ~~Öz cərimə meydanında, qapıçı əl ilə oyuna görə cərimə zərbəsi və ya hər hansı müvafiq sanksiya ilə cəzalandırılan qayda pozuntusunun edilməsində təqsirli ola bilməz, lakin əl ilə oyuna görə sərbəst zərbə ilə cəzalandırılan qayda pozuntusunun edilməsində təqsirli ola bilər.~~ Əgər qapıçı, öz cərimə meydanı daxilində topa əllə toxunmağa icazə verilmədiyi vəziyyətlərdə topa toxunarsa, sərbəst zərbə təyin edilir, lakin intizam sanksiyası tətbiq edilmir.

### İzah

Qapıçılar komanda yoldaşı tərəfindən bilərəkdən edilmiş ötürmədən və ya topun yan xətdən oyuna daxil edilməsindən, yaxud topu oyuna daxil etdikdən sonra topa əllə toxuna bilməzlər. Əgər onlar bunu edərsə, sərbəst zərbə təyin edilir və hətta əgər bu hərəkət perspektivli hücumun qarşısını alsa da, rəqibi qoldan və ya aşkar qol vurmaq imkanından məhrum etsə də icazə verilməyən hər hansı şəkildə topa əllə toxunuş heç bir intizam sanksiyasına səbəb olmur.

## 2. Sərbəst zərbə

### Dəyişdirilmiş mətn

Əgər qapıçı öz cərimə meydanında aşağıdakı qayda pozuntularından hər hansı birini edərsə, sərbəst zərbə təyin edilir:

- topu əlindən buraxmazdan əvvəl topa əli/qolu ilə altı saniyədən çox nəzarət edərsə
- topu oyuna buraxdıqdan sonra, topun başqa bir oyunçuya toxunmasına qədər topa əli/qolu ilə toxunarsa
- aşağıdakı vəziyyətlərdən sonra, qapıçı topu oyuna daxil etmək üçün topa aşkar şəkildə zərbə endirmədən və ya zərbə endirməyə cəhd etmədən, topa əli/qolu ilə toxunarsa:
  - top komanda yoldaşı tərəfindən ayaqla bilərəkdən ona ötürülərkən
  - komanda yoldaşı tərəfindən yan xətdən oyuna daxil edilən topu birbaşa qəbul edərkən

### İzah

- Qaydanın əllə oyun ilə bağlı digər hissələri ilə uyğunluq yaratmaq üçün "qol" sözü əlavə edilmişdir
- Qapıçı topu uzaqlaşdırmaq üçün aşkar şəkildə topa zərbə endirisə və ya zərbə endirməyə cəh edirsə, bu, top əllə toxunmaq niyyətinin olmadığını göstərir. Beləliklə, topu uzaqlaşdırmaq cəhdi uğursuz olmuşsa, qapıçı topa əli ilə toxuna bilər və bu, qayda pozuntusu deyil

## 3. İntizam tədbiri

### Dəyişdirilmiş mətn

Əgər matçın başlanğıcında oyun meydanına daxil olmazdan əvvəl oyunçu və ya komandanın rəsmi şəxsi qovulma ilə cəzalandırılan pozuntu edərsə, hakim, oyunçunun və ya komandanın rəsmi şəxsinin matçda iştirak etməsinin qarşısını almaq səlahiyyətinə malikdir (bax:  Qayda 3.6); hakim hər hansı digər intizamsız davranış barədə məlumat verməlidir.

İstər meydanda, istərsə meydandan kənarda rəqibinə, komanda yoldaşına, matçın hakimlərinə və ya hər hansı şəxsə qarşı xəbərdarlıqla və ya qovulma ilə cəzalandırılan qayda pozuntusu edən oyunçu və ya komandanın rəsmi şəxsi pozuntunun xarakterinə uyğun olaraq cəzalandırılır.

(...)

Sarı və qırmızı vərəqələr əsas heyətin oyunçusuna, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya və ya komandanın rəsmi şəxsinə göstərilə bilər.

### İzah

Bundan sonra komandanın rəsmi şəxslərinə sarı və qırmızı vərəqələr göstərilə bilər (bax: Qayda 5).

## 3. İntizam tədbiri – Vərəqə göstərmək üçün oyunun bərpasının ləngidilməsi

### Əlavə mətn

Əgər hakim oyunçuya xəbərdarlıq etmək, yaxud onu meydandan qovmaq üçün vərəqə göstərmək qərarına gəlibsə, intizam sanksiyası tətbiq edilməmiş, oyun bərpa edilə bilməz, bir şərtlə ki, qayda pozuntusuna məruz qalmış komanda cərimə/sərbəst zərbəni cəld yerinə yetirmir, aşkar qol vurmaq imkanı yoxdur və hakim intizam sanksiyası proseduruna başlayıb. Sanksiya oyunun növbəti dəfə dayandırılması zamanı tətbiq edilir; əgər qayda pozuntusu rəqib komandanı aşkar qol vurmaq imkanından məhrum etmişsə, oyunçuya xəbərdarlıq edilir.

### İzah

Bəzən hücum xəbərdarlıq və ya qovulma ilə cəzalandırılmalı olan qayda pozuntusu ilə dayandırılır və hücum edən komanda cərimə zərbəsini cəld yerinə yetirirərək "itirilmiş" hücumu bərpa edir; sarı və ya qırmızı vərəqənin göstərilməsi üçün bu "yeni" hücumun dayandırılması ədalətsizlik olardı. Bununla belə, əgər hakim sarı və ya qırmızı vərəqənin göstərilməsi prosesinə başlayaraq qaydanı pozan komandanın diqqətini yayındırmışsa, cərimə zərbəsinin cəld yerinə yetirilməsinə icazə verilmir. Rəqibi aşkar qol vurmaq imkanından məhrum etməyə görə oyunçu meydandan qovulmayacaq, ona xəbərdarlıq ediləcək, çünki hücum bərpa edilmişdir (rəqib aşkar qol vurmaq imkanından məhrum edildiyi zaman üstünlük prinsipinin tətbiq edildiyi kimi)

## 3. İntizam tədbiri – Qolun bayram edilməsi

### Əlavə mətn

Hətta qol ləğv edilsə belə, oyunçuya xəbərdarlıq edilir, əgər o:
(...)

### İzah

Hətta əgər qol ləğv edilsə belə, qolun yolverilməz şəkildə bayram edilməsinə görə xəbədarlıq edilir, belə ki, burada yolverilməz hərəkətin təsiri (təhlükəsizlik, oyunun nüfuzu və s.) dəyişməz olaraq qalır.

## 3. İntizam tədbiri – Komandanın rəsmi şəxsləri

### Əlavə mətn

**"Komandanın rəsmi şəxsləri"** adlı yeni bölmədə komandanın rəsmi şəxslərinin şifahi xəbərdarlıq, rəsmi xəbərdarlıq və ya qovulma ilə cəzalandırıla bilən davranışlar qeyd edilir (bax: səh. 112).

### İzah

Şifahi xəbədarlıq, sarı vərəqə və qırmızı vərəqə ilə cəzalandırılan əsas qayda pozuntularının Qaydalara əlavə edilməsi komandanın rəsmi şəxsləri tərəfindən edilən intizamsız davranışa görə sarı və qırmızı vərəqədən düzgün istifadəni dəstəkləyir.

## 4. Qayda pozuntuları və intizamsız davranışdan sonra oyunun bərpası

### Dəyişdirilmiş mətn

Əgər top oyundadırsa və oyunçu oyun meydanında fiziki qayda pozuntusu edirsə:

- qayda pozuntusu rəqibə qarşıdırsa – sərbəst zərbə, cərimə zərbəsi və ya 11 metrlik zərbə təyin edilir
- qayda pozuntusu komanda yoldaşına, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya və ya qovulmuş oyunçuya, komandanın rəsmi şəxsinə və matçın hakimlərinə qarşıdırsa – cərimə zərbəsi və ya 11 metrlik zərbə təyin edilir
- hər hansı digər şəxsə qarşıdırsa – "mübahisəli top" təyin edilir

Bütün şifahi pozuntular sərbəst zərbə ilə cəzalandırılır.

### İzah

Fiziki qayda pozuntuları üçün müxtəlif bərpa üsulları təsdiq edilir və bildirilir ki, hətta matçın hakimlərinə qarşı olsa belə, bütün şifahi pozuntular sərbəst zərbə ilə bərpa olunur.

## 4. Qayda pozuntuları və intizamsız davranışdan sonra oyunun bərpası

### Əlavə mətn

Əgər əsas heyətin oyunçusu tərəfindən edilən qayda pozuntusu oyun meydanından kənarda öz komandasının əsas heyət oyunçusuna, ehtiyat oyunçusuna, əvəz edilmiş oyunçusuna və ya rəsmi şəxsinə qarşı edilərsə, oyun məhdudlaşdırıcı xəttin üzərində qayda pozuntusunun baş verdiyi yerə yaxın nöqtədə təyin edilən sərbəst zərbə ilə bərpa olunur.

### İzah

Aydınlaşdırılır ki, sərbəst zərbənin təyin edilməsi üçün qayda pozuntusu oyunçunun komanda yoldaşına və ya onun komandasının rəsmi şəxsinə, ehtiyat oyunçusuna və s. edilməlidir.

### 4. Qayda pozuntuları və intizamsız davranışdan sonra oyunun bərpası

**Dəyişdirilmiş mətn**

Əgər oyun meydanında və ya ondan kənarda olan oyunçu rəqibin əsas heyət oyunçusuna əllə və ya ayaqla əşya (matçın topu istisna olmaqla) atarsa, və yaxud rəqibin ehtiyat oyunçusuna, əvəz edilmiş oyunçusuna və ya qovulmuş oyunçusuna, rəsmi şəxsinə və ya matçın hakimlərinə və ya matçın topuna əllə və ya ayaqla əşya (həmçinin top) atarsa, (...) oyun cərimə zərbəsi ilə bərpa olunur.

**İzah**

Əşyanın hər hansı şəxsə ayaqla atılması əşyanın əl ilə atılması ilə eyni cür cəzalandırılır.

## Qayda 13 – Cərimə və sərbəst zərbələr

### 1. Zərbələrin növləri – Sərbəst zərbə işarəsi

**Əlavə mətn**

Hakim sərbəst zərbə zamanı əlini başı üzərinə qaldırmaqla işarə verir; O, əlini bu vəziyyətdə o vaxta qədər saxlayır ki, zərbə yerinə yetirilməyib və top digər oyunçuya toxunmayıb, oyundan çıxmayıb, yaxud qolun birbaşa vurulması mümkünsüz görünür.

**İzah**

Sərbəst zərbələrin bir çoxu rəqib komandanın qapısından uzaqda təyin edilir və həmin məsafədən birbaşa qolun vurulması mümkünsüz görünür (məs., "oyundankənar" vəziyyətdən sonra təyin edilmiş sərbəst zərbə); bu cür hallarda, hakim işarəni yalnız topa zərbəyə qədər saxlamalıdır, çünki işarə verərkən qaçmaq asan deyil.

## 2. Prosedur

**Dəyişdirilmiş mətn**

- Oyunçunun, hakimin icazəsi olmadan oyun meydanına daxil olmasına, qayıtmasına və ya onu tərk etməsinə görə təyin edilmiş cərimə və ya sərbəst zərbələr, oyun saxlanılan anda topun olduğu yerdən yerinə yetirilir. Bununla belə, əgər oyunçu ~~oyun epizodunun davamı olaraq oyun meydanından kənara çıxır və~~ oyun meydanından kənarda ~~başqa bir oyunçuya qarşı~~ qayda pozuntusu törədirsə, oyun, qaydanın pozulduğu yerə yaxın olan məhdudlaşdırıcı xətt üzərində təyin edilən cərimə və ya sərbəst zərbə ilə bərpa olunur; (...)

### İzah

Qaydaların digər hissələri ilə uyğunluq yaratmaq üçün mətnə düzəliş edilmişdir.

## 2. Prosedur

**Dəyişdirilmiş mətn**

Top:

- (...)
- topa zərbə endirildikdə və o, aşkar şəkildə hərəkət etdikdə, top oyunda sayılır. ~~Lakin müdafiə olunan komanda tərəfindən cərimə meydanında yerinə yetirilən cərimə və ya sərbəst zamanı top o zaman oyunda sayılır ki, ona zərbə endirilir və o, cərimə meydanını tərk edir~~

### İzah

Eksperimentlər nəticəsində məlum olmuşdur ki, müdafiə olunan komandanın öz cərimə meydanında yerinə yetirdiyi cərimə/sərbəst zərbə zamanı topa zərbə endirildikdə topun oyunda olması və topun cərimə meydanını tərk etməsinə ehtiyac olmaması oyunun daha sürətli və konstruktiv şəkildə bərpa edilməsinə səbəb olmuşdur. Rəqib komandanın oyunçuları, topun oyuna daxil edilməsinə qədər cərimə meydanından kənarda və ən azı 9.15 metr məsafədə olmalıdırlar. Eyni dəyişiklik qapıdan zərbə ilə bağlı edilmişdir (bax: Qayda 16).

## 2. Prosedur

### Əlavə mətn

Topun oyuna daxil edilməsinə qədər bütün rəqib oyunçular:

- topdan ən azı 9.15 m (10 yard) məsafədə dayanmalıdırlar (...)
- komandanın öz cərimə meydanında yerinə yetirdiyi cərimə və ya sərbəst zərbələr zamanı cərimə meydanından kənarda dayanmalıdırlar

Müdafiə olunan komandanın üç və ya daha çox oyunçudan ibarət "canlı sədd" qurulduğu zaman, hücum edən komandanın bütün oyunçuları, topun oyuna daxil edilməsinə qədər "canlı" sədd"ən ən azı 1 metr (1 yard) məsafədə olmalıdırlar.

### İzah

Cərimə/sərbəst zərbələr zamanı hücum edən komandanın oyunçularının "canlı sədd"ə çox yaxın və ya səddi quran oyunçuların arasında dayanması adətən idarəetmə problemləri və vaxtın itirilməsi ilə nəticələnirdi. Hücum edən komandanın oyunçularının "canlı sədd"in daxilində dayanması üçün heç bir qanuni taktiki əsas yoxdur və bu cür əsasın olması "oyunun ruhu"na ziddir və adətən oyunun nüfuzuna xələl gətirir.

## 3. Pozuntular və cəzalar

### Əlavə mətn

Cərimə/sərbəst zərbə yerinə yetirilərkən, hücum edən komandanın oyunçusu, müdafiə olunan komandanın üç və ya daha çox oyunçusundan ibarət olan "canlı sədd"ə 1 metrdən (1 yarddan) az məsafədə dayanarsa, sərbəst zərbə təyin edilir.

### İzah

Hücum edən komandanın oyunçusunun "canlı sədd"ə 1 metrdən yaxın məsafədə durduğu hallar üçün oyunun bərpası üsulu təsdiq edilir.

## 3. Pozuntular və cəzalar

### Dəyişdirilmiş mətn

Cərimə və ya sərbəst zərbə yerinə yetirilərkən rəqib komandanın oyunçusu cərimə meydanındadırsa (...), topun oyuna daxil olmasına qədər ~~topun başqa bir oyunçuya toxunmaslna qədər~~ topa toxunur və ya onun uğrunda mübarizəyə girirsə, cərimə və ya sərbəst zərbə təkrar edilir.

~~Müdafiə olunan komandanın öz cərimə meydanında yerinə yetirdiyi cərimə və ya sərbəst zərbələr zamanı top birbaşa cərimə meydanını tərk etmirsə, zərbə təkrar edilir.~~

### İzah

Yuxarıda qeyd edilən vəziyyət üçün oyunun bərpası üsulu təsdiq edilir.

## Qayda 14 - 11 metrlik Zərbə

## 1. Prosedur

### Əlavə mətn

Top 11 metrlik nöqtənin üzərində hərəkətsiz vəziyyətdə olmalı, həmçinin qapı dirəkləri, qapı tiri və qapı toru hərəkət etməməlidir.
(...)
Müdafiə olunan komandanın qapıçısı, zərbə yerinə yetirilənə qədər qapı xətti üzərində, qapı dirəkləri arasında və üzü zərbəni vuran oyunçuya tərəf, qapı dirəklərinə, qapı tirinə və ya qapı toruna toxunmadan dayanmalıdır.
(...)
11 metrlik zərbəni yerinə yetirən oyunçu topu ayaqla irəli vurmalıdır; topun irəli hərəkət etməsi şərti ilə, dabanla zərbəyə icazə verilir.

Zərbə yerinə yetirilərkən, müdafiə olunan komandanın qapıçısının bir ayağının ən azı bir hissəsi qapı xəttinə toxunmalı və ya onunla eyni xətdə olmalıdır.

### İzah

Əgər qapıçı qapı dirəklərinə, qapı tirinə və tora toxunursa, yaxud onlar hərəkət edirsə (məs., qapıçı onlara ayaqla zərbə endirmiş və onlar titrəyir), hakim 11 metrlik zərbənin yerinə yetirilməsi üçün işarə verməməlidir.

Qapıçıların, xəttin qarşısında və ya arxasında dayanmasına icazə verilmir. 11 metrlik zərbə yerinə yetirilərkən qapıçının yalnız bir ayağının qapı xəttinə toxunmasına (və ya əgər tullanırsa, qapı xətti ilə eyni xətdə) icazə verilməsi daha praktik yanaşmadır, belə ki, hər iki ayağın xəttin üzərində olmsını müəyyən etməkdənsə, bunu müəyyən etmək daha asandır.  Zərbəni yerinə yetirən oyunçu qaçış zamanı "duruxa" bildiyindən, zərbəni dəf etməyə hazırlaşmaq üçün qapıçının irəliyə addım atması məntiqlidir.

## 2. Pozuntular və cəzalar

### Əlavə mətn

Hakim 11 metrlik zərbənin yerinə yetirilməsi üçün işarə vermişsə, zərbə yerinə yetirilməlidir; əgər zərbə yerinə yetirilmirsə, hakim zərbənin yerinə yetirilməsi üçün təkrar işarə verməzdən əvvəl intizam sanksiyası tətbiq edə bilər.

### İzah

Hakim 11 metrlik zərbənin yerinə yetirilməsi üçün işarə vermiş, lakin zərbə yerinə yetirilməmiş qayda pozuntusu baş verərsə, sərbəst zərbə təyin edilə bilməz, belə ki, top oyuna daxil edilməmişdir; zəruri intizam sanksiyası tətbiq edilə bilər.

## Qayda 15 – Topun Yan Xətdən Oyuna Daxil Edilməsi

### 1. Prosedur

**Dəyişdirilmiş mətn**

Bütün rəqib oyunçular topun yan xətdən oyuna daxil edilməli olduğu nöqtədən ən azı 2 m (2 yard) məsafədə dayanmalıdırlar.

**İzah**

Oyunçunun topu oyuna yan xəttə müəyyən məsafədən daxil etdiyi vəziyyətlər əhatə olunur.

## Qayda 16 - Qapıdan Zərbə

Dəyişdirilmiş mətn

Bilavasitə qapıdan zərbədən sonra yalnız rəqib komandanın qapısına vurulan qol hesaba alınır; ~~əgər top cərimə meydanını tərk etdikdən sonra birbaşa komandanın öz qapısına daxil olarsa, küncdən zərbə təyin edilir.~~

**İzah**

Topa zərbə endirildikdə və o, aşkar şəkildə hərəkət etdikdə, top oyunda sayılır.

## 1. Prosedur

### Dəyişdirilmiş mətn

~~Top cərimə meydanını tərk etdikdə~~topa zərbə endirildikdə və top aşkar şəkildə hərəkət etdikdə, oyunda sayılır.

### İzah

Eksperimentlər nəticəsində məlum olmuşdur ki, qapıdan zərbə zamanı topa zərbə endirildikdə topun oyunda olması və topun cərimə meydanını tərk etməsinə ehtiyac olmaması oyunun daha sürətli və dinamik/konstruktiv şəkildə bərpa edilməsinə səbəb olmuşdur. Bu, "itirilmiş" vaxtı azaltdı, həmçinin vaxtın "itirilməsi" taktikasının qarşısını aldı, belə ki, müdafiə olunan komandanın oyunçusu topun cərimə meydanını tərk etməsinə qədər topa oynayırdı ki, qapıdan zərbə təkrar edilsin. Rəqib komandanın oyunçuları, topun oyuna daxil edilməsinə qədər cərimə meydanından kənarda olmalıdırlar

## 2. Pozuntular və cəzalar

### Dəyişdirilmiş mətn

Qapıdan zərbə zamanı rəqib komandanın hər hansı oyunçusunun cərimə meydanını tərk etmək üçün imkanı olmamışdırsa, hakim oyunu davam etdirir. (...) rəqib komandanın oyunçusu cərimə meydanındadırsa (...), ~~topun başqa bir oyunçuya toxunmasına~~ topun oyuna daxil olmasına qədər topa toxunur və ya onun uğrunda mübarizəyə girirsə, qapıdan zərbə təkrar edilir.

### İzah

Qapıdan zərbə yerinə yetirilərkən rəqib komandanın oyunçusunun cərimə meydanı daxilində olduğu hallarda hakimin görməli olduğu tədbirlər aydınlaşdırılır.

**Video Köməkçi Hakimin ("VAR") İş Prosesi**

## 2. Təkrarına baxıla biləcək qərarlar/vəziyyətlər

**Dəyişdirilmiş mətn**

Mümkün aşkar səhv və ya gözdən yayınan ciddi insident ilə bağlı təkrarına baxılması mümkün olan qərarlar/insidentlər aşağıdakı kateqoriyalara ayrılır:

### a. Qolun qeydə alınıb-alınmaması

~~Qolun vurulması ilə nəticələnən hücum fazasında, qol vuran komanda tərəfindən edilən qayda pozuntusu, habelə:~~

- qolla nəticələnən hücumun qurulması və ya qolun vurulması zamanı, hücum edən komanda tərəfindən edilən qayda pozuntusu (əl ilə oyun, qayda pozuntusu, "oyundankənar" vəziyyət və s.)
- ~~"oyundankənar" vəziyyət: mövqe və qayda pozuntusu~~
- qolun vurulmasına qədər topun oyundan çıxması
- qolun qeydə alınıb-alınmaması qərarları
- 11 metrlik zərbə zamanı top qapı dirəyindən, qapı tirindən və ya qapıçıdan qayıtdıqda, qapıçı və (yaxud) zərbəni yerinə yetirən oyunçu tərəfindən (zərbənin yerinə yetirilməsi ilə bağlı) edilən qayda pozuntusu və yaxud hücum edən və ya müdafiə olunan komandanın oyunçusunun cərimə meydanına vaxtından əvvəl daxil olmaqla oyuna birbaşa müdaxilə etməsi

### b. 11 metrlik zərbənin təyin edilib-edilməməsi qərarları

- penalti insidenti ilə nəticələnən hücumun qurulması və ya qolun vurulması zamanı hücum edən komanda tərəfindən edilən qayda pozuntusu (əl ilə oyun, qayda pozuntusu,  "oyundankənar" vəziyyət və s.)
- insidentin baş verməsinə qədər topun oyundan çıxması
- qayda pozuntusunun edildiyi yer (cərimə meydanının daxilində, yoxsa ondan kənarda)
- yanlış təyin edilən 11 metrlik cərimə zərbəsi
- 11 metrlik cərimə zərbəsinə layiq, lakin cəzalandırılmamış qayda pozuntusu
- ~~11 metrlik zərbənin yerinə yetirilməsi zamanı qapıçı və (yaxud) zərbəni yerinə yetirən oyunçu tərəfindən edilən qayda pozuntusu~~
- ~~11 metrlik zərbədən sonra topun qapı dirəyindən, tirdən və ya qapıçıdan qayıtdığı hallarda, hücum edən və ya müdafiə olunan komandanın oyunçusunun zərbədən əvvəl cərimə meydanına daxil olması və oyuna birbaşa müdaxilə etməsi~~

### İzah

Mətn sadələşdirilmiş və abzas nöqtələrinin yeri dəyişdirilmişdir, belə ki, 11 metrlik nöqtənin yerinə yetirilməsi zamanı edilən qayda pozuntuları "qol/qol deyil" insidentləridir.

## 4. Prosedurlar – İlkin qərar

### Əlavə mətn

Əgər hakimin köməkçisi qayda pozuntusuna görə bayrağın qaldırılmasını ləngidirsə və hücum edən komanda qol vurur, yaxud hücum edən komandanın lehinə 11 metrlik zərbə, cərimə/sərbəst zərbə, küncdən zərbə təyin edilir və ya topun yan xətdən oyuna daxil edilməsinə qərar verilirsə, və yaxud hücum edən komanda, ilkin hücumun başa çatmasından sonra, topu öz nəzarətində saxlayırsa, hakimin köməkçisi bayrağını qaldırmalıdır; digər bütün hallarda, hakimin köməkçisi oyunun tələblərindən asılı olaraq, bayrağın qaldırılıb-qaldırılmamasına özü qərar verməlidir

### İzah

Hakimin köməkçisinin, "gecikmiş" bayrağı nə zaman qaldırmalı olduğu aydınlaşdırılır.

## **4. Prosedurlar** – Əsas heyət oyunçuları, ehtiyat oyunçular və komandanın rəsmi şəxsləri

### Dəyişdirilmiş mətn

- Təkidlə video-təkrara baxılmasını tələb edən və ya video-təkrar baxış zonasına daxil olan əsas heyət oyunçusuna, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya və komandanın rəsmi şəxsinə xəbərdarlıq edilir
- ~~Video-təkrara baxılmasını qəti şəkildə tələb edən və ya video-təkrara baxış zonasına daxil olan komandanın rəsmi şəxsinə nümayişkəranə şəkildə şifahi xəbərdarlıq edilməlidir (və ya komandanın rəsmi şəxsləri üçün sarı və qırmızı vərəqələrin göstərildiyi yarışlarda rəsmi xəbərdarlıq edilməlidir)~~
- Video əməliyyat otağına daxil olan əsas heyət oyunçusu, ehtiyat oyunçu, əvəz edilmiş oyunçu və komandanın rəsmi şəxsi qovulmalıdır; ~~video əməliyyat otağına daxil olan komandanın rəsmi şəxsi texniki zonadan uzaqlaşdırılmalıdır~~

### İzah

Qayda 5-ə 12-ə edilmiş dəyişikliklərə uyğun olaraq, komandanın rəsmi şəxslərinə sarı və qırmıı vərəqələrin gösətrilməsi aydınlaşdırılır.


REFEREE
FIFA
2018

# İzahlı Lüğət

İzahlı lüğətdə, Qaydalardakı məlumatlardan başqa izaha ehtiyacı olan, başqa dillərə asanlıqla tərcümə edilə bilməyən sözlər və ifadələr yer almışdır.

# Futbol təşkilatları

**BFAŞ - Beynəlxalq Futbol Assosiasiyaları Şurası**
Bütün dünyada Oyun Qaydaları üzrə məsuliyyət daşıyan Şuranın tərkibinə Britaniyanın dörd futbol assosiasiyası və FIFA daxildir. Qaydalara edilən dəyişiklər yalnız, adətən fevral və mart aylarında keçirilən İllik Ümumi İclasda təsdiq edilə bilər

**FIFA – Beynəlxalq Futbol Assosiasiyaları Federasiyası**
Bütün dünyada futbol üzrə məsul olan idarəedici təşkilat

**Konfederasiya**
Müvafiq qitədə futbol üzrə məsul təşkilat. Altı konfederasiya mövcuddur: AFC (Asiya), CAF (Afrika), CONCACAF (Şimali, Mərkəzi Amerika və Karib Dənizi Hövzəsi), CONMEBOL (Cənubi Amerika), OFC (Okeaniya) və UEFA (Avropa)

**Milli futbol assosiasiyası**
Ölkədə futbol üzrə məsul təşkilat

# Futbol terminləri

## A

**Abandon - Dayandırmaq**
Matçı nəzərdə tutulmuş vaxtdan əvvəl bitirmək

**Additional time - Artırılmış vaxt**
Əvəzetmələr, zədələr, intizam sanksiyası, qolun bayram edilməsi və s. səbəbdən itirilmiş vaxta görə hər bir hissənin sonunda əlavə edilən vaxt

**Advantage - Üstünlük**
Əgər qayda pozuntusu nəticəsində vəziyyət pozuntuya məruz qalan komandanın xeyrinə dəyişirsə, hakim oyunu davam etdirir

**Assessment of injured player - Oyunçunun zədəsinin qiymətləndirilməsi**
Oyunçunun tibbi müdaxiləyə ehtiyacı olub-olmadığını müəyyən etmək üçün adətən tibbi nümayəndə tərəfindən zədənin cəld şəkildə qiymətləndirilməsi

**Away goals rule - Rəqib meydanında vurulan qol qaydası**
Hər iki komandanın eyni sayda qol vurduğu matçlarda və ya ev-səfər qarşılaşmalarında qalibin müəyyən edilməsi üsulu; səfərdə vurulan qol ikiyə bərabər hesab olunur

## B

**Brutality - Qəddarlıq Kobud, amansız və ya şiddətli hərəkət**

## C

**Caution - Xəbərdarlıq**
İntizam komitəsinə raport yazılması ilə nəticələnən rəsmi sanksiya; sarı vərəqə göstərməklə bildirilir; bir matçda alınan iki xəbərdarlıq oyunçunun və ya komandanın rəsmi şəxsinin qovulmasına səbəb olur

**Challenge - Mübarizə**
Oyunçunun top uğrunda rəqiblə rəqabət aparması

**Charge (an opponent) - Hücum (rəqibə)**
Adətən çiyin və rəqibə yaxın olan qoldan istifadə etməklə, rəqibə qarşı fiziki güc tətbiq etmək

**Cooling break - Dincəlmə fasiləsi**
Oyunçuların sağlamlığını və təhlükəsizliyini nəzərə alaraq, yarışın reqlamenti ilə müəyyən hava şəraitində (yüksək rütubət və temperatur) bədənin temperaturunun azalmasına imkan vermək məqsədi ilə dincəlmə fasiləsinə (adətən doxsan saniyədən üç dəqiqəyə qədər) icazə verilə bilər; bu, su fasiləsindən fərqlənir

# D

**Deceive - Aldatma**
Hakimin yanlış qərar verməsinə və ya intizam sanksiyası tətbiq etməsinə səbəb ola biləcək yanıldıcı hərəkət

**Deliberate - Bilərəkdən**
Oyunçunun, nəzərində tutaraq etdiyi hərəkət; bu, refleks və ya nəzərdə tutulmayan hərəkət deyil

**Direct free kick - Cərimə zərbəsi**
Topun başqa bir oyunçuya toxunmasına ehtiyac olmadan, birbaşa rəqib komandanın qapısına qol vurmağa icazə verilən zərbə növü

**Discretion - Rəy**
Qərar verərkən baş hakimin və ya matçın digər hakimlərinin mühakiməsi

**Dissent - Etiraz**

Hakimin qərarına aşkar şəkildə bildirilən narazılıq (şifahi və ya fiziki hərəkətlə); xəbərdarlıqla (sarı vərəqə) cəzalanır

**Distract - Yayındırmaq**
Yanıltmaq və ya diqqətini cəlb etmək (yolverilməz şəkildə)

**"Drinks break" - Su fasiləsi**
Yarışın reqlamentində, oyunçuların susuzluğunun yatırılması üçün su fasiləsinə (bir dəqiqədən artıq olmayan) icazə verilə bilər; bu, dincəlmə fasiləsindən fərqlənir

**Dropped ball - "Mübahisəli top"**
Oyunun bərpa üsulu – hakim topu, sonuncu dəfə topa toxunan komandanın bir oyunçusu üçün yerə atır (cərimə meydanında isə top qapıçı üçün yerə atılır); top yer səthinə toxunduğu anda oyunda hesab edilir

## E

**Electronic performance and tracking system - Elektron fəaliyyət və izləmə sistemi ("EPTS")**
Oyunçunun fiziki və psixoloji vəziyyəti barədə məlumatları qeydə alan və təhlil edən sistem

**Endanger the safety of an opponent - Rəqibin sağlamlığına təhlükə yaratmaq**
Rəqibi zədə təhlükəsinə məruz qoymaq

**Excessive forece - Həddən artıq güc**
Lazım olandan artıq gücün istifadəsi

**Extra time - Əlavə vaxt**
Hər biri 15 dəqiqədən çox olmayan iki əlavə hissənin təyin edilməsi ilə matçın nəticəsinin müəyyən edilməsi

## F

**Feinting - Aldadıcı fənd**
Rəqibi yanıltmağa yönələn cəhd. Qaydalarda icazə verilən və icazə verilməyən aldadıcı fənd müəyyən edilmişdir

**Field of play (Pitch) - Oyun meydanı**
Yan xətlər və qapı xətləri ilə, müəyyən yerlərdə həm də qapı torları ilə məhdudlaşdırılan oyun sahəsi

# G

**Goal Line Technology (GLT) - Qapı xətti texnologiyası (QXT)**
Topun qapı xəttini tam keçərək qapıya daxil olduğunu dərhal hakimə bildirən elektron sistem

(Daha ətraflı məlumat üçün bax: Qayda 1)

# H

**Hybrid system - Hibrid sistem**
Süni və təbii materialların birləşməsindən yaradılan və gün işığı, su, hava dövriyyəsi və biçin tələb edən meydan örtüyü

# I

**İmpede - Mane olmaq**
Rəqibin hərəkətini gecikdirmək və ya onun qarşısını almaq

**İndirect free kick - Sərbəst zərbə**
Topa zərbə endirildikdən sonra onun yalnız başqa bir oyunçuya (hər hansı komandanın) toxunduğu təqdirdə qolun vurulmasına icazə verilən zərbə növü

**İntercept - nəzarəti ələ keçirmə**
Ötürmənin ünvanına çatmasının qarşısını almaq

# K

**Kick - Zərbə**
Oyunçu topa ayağı və ya topuğu ilə toxunarsa, topa zərbə endirmiş hesab olunur

**Kicks from the penalty mark - 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr**
Hər iki komandanın eyni sayda zərbə yerinə yetirməsi şərti ilə, bir komandanın digərindən daha çox qol vurmasına qədər hər bir komandanın növbəli şəkildə zərbələr yerinə yetirməsi ilə matçın nəticəsinin müəyyən edilməsi üsulu (Hər bir komanda tərəfindən ilk beş zərbənin yerinə yetirilməsi zamanı komandalardan biri, hətta yerdə qalan zərbələri düzgün yerinə yetirdiyi təqdirdə, hesabı bərabərləşdirə bilməyəcəksə, zərbələrin yerinə yetirilməsi dayandırılır)

# N

**Negligible - Çox az**
Əhəmiyyətsiz, minimal

# O

**Offence - Qayda pozuntusu**
Oyun Qaydalarını pozan, hər hansı şəxsə, xüsusi ilə rəqibə qarşı edilən hərəkət

**Offensive, insulting or abusive language - Təhqiredici və ya ləyaqətsiz ifadələr**
Kobud, nəzakətsiz şifahi və ya fiziki davranış; qovulma (qırmızı vərəqə) ilə cəzalandırılır

**Outside agent - Kənar şəxs**
Matçın protokolunda matçın hakimi, əsas oyunçu, ehtiyat oyunçu və ya komandanın rəsmi şəxsi kimi göstərilməmiş hər hansı şəxs və yaxud hər hansı heyvan, əşya, qurğu və s.

# P

**Penalise - Cəzalandırmaq**
Adətən oyunun saxlanılması və cərimə, sərbəst və ya 11 metrlik zərbənin təyin edilməsi (Həmçinin bax: Üstünlük)

**Play - Oynama**
Oyunçu tərəfindən topa toxunuşla edilən hərəkət

**Playing distance - Oyun məsafəsi**
Oyunçunun öz ayağını uzatmaqla və ya hoppanmaqla, qapıçının isə əlləri açıq şəkildə tullanması ilə topa toxuna biləcəyi məsafə. Oyun məsafəsi oyunçunun fiziki ölçüsündən asılıdır

# Q

**Quick free kick - Cəld yerinə yetirilən cərimə və sərbəst zərbə**
Oyun saxlanıldıqdan dərhal sonra yerinə yetirilən (hakimin icazəsi ilə) cərimə və ya sərbəst zərbə

## R

**Reckless - Düşüncəsiz**
Oyunçunun, rəqibinə qarşı törədəcəyi təhlükəyə və onun nəticələrinə əhəmiyyət vermədiyi hər hansı hərəkət (adətən sürüşmə fəndi və ya ayaq üstə edilən hərəkət)

**Restart - Bərpa**
Oyun saxlanıldıqdan sonra onun hər hansı üsulla davam etdirilməsi

## S

**Sanction - Sanksiya**
Hakim tərəfindən görülən intizam tədbiri

**Save - Dəfetmə**
Oyunçunun, əlləri/qolları istisna olmaqla (öz cərimə meydanında olan qapıçı istisna olmaqla), öz bədəninin hər hansı hissəsi ilə qapıya istiqamətlənən və ya yaxınlaşan topu qaytarması və yaxud qaytarmaq cəhdi

**Sending-off - Qovulma**
Oyunçunun, matçın sonrakı gedişində iştirak etməməsini nəzərdə tutan intizam tədbiri (qırmızı vərəqə ilə bildirilir); əgər matç başlanıbsa, qovulan oyunçu əvəz edilə bilməz
Komandanın rəsmi şəxsi də qovula bilər.

**Serious foul play - Ciddi qayda pozuntusu**
Rəqibin sağlamlığına təhlükə yaradan sürüşmə fəndi və ya ayaq üstə edilən mübarizə, yaxud həddən artıq güc və ya kobudluqdan istifadə; qovulma (qırmızı vərəqə) ilə cəzalanır

**Signal - İşarə**
Baş hakim və ya matçın digər hakimləri tərəfindən edilən göstəriş xarakterli fiziki hərəkət; adətən əldən, qoldan, bayraqdan və ya fitdən istifadə olunur

**Simulation - Simulyasiya**
Hər hansı hadisənin baş verməsinə dair yanlış təəssürat yaradan hərəkət (həmçinin bax: aldatmaq); oyunçu tərəfindən, haqsız üstünlüyə yiyələnmək üçün edilir

**Spirit of the game - Oyunun ruhu**
Bir idman növü kimi, lakin həm də konkret matç zamanı futbolun əsas və vazkeçilməz prinsipləri (bax: Qayda 5)

**Suspend - Müvəqqəti dayandırmaq**
Duman, güclü yağış, tufan, ciddi zədə və s. səbəbdən matçın, oyunun bərpa edilməsi niyyəti ilə müəyyən müddətə saxlanılması

## T

**Tackle - Sürüşmə fəndi**
Top uğrunda ayaqla edilən mübarizə (yerdə və ya havada)

**Team list - Komandanın heyəti**
Əsas oyunçular, ehtiyat oyunçular və komandanın rəsmi şəxslərinin siyahısı

**Team official - Komandanın rəsmi şəxsi**
Matçın protokolunda oyunçu kimi qeyd edilməmiş hər hansı şəxs, məsələn məşqçi, fizioterapevt, həkim (bax: texniki heyət )

**Technical area - Texniki zona**
Komandanın rəsmi şəxsləri üçün nəzərdə tutulmuş oturacaqlı ərazi
(Daha ətraflı məlumat üçün bax: Qayda 1)

**Technical staff - Texniki heyət**
Matçın protokolunda oyunçu kimi qeyd edilməmiş hər hansı şəxs, məsələn məşqçi, fizioterapevt, həkim (bax: komandanın rəsmi şəxsi)

**Temporary dismissal - Müvəqqəti qovulma**
Xəbərdarlıqla cəzalandırılmalı olan bəzi/bütün növ qayda pozuntularının edilməsində (yarışın reqlamentindən asılı olaraq) təqsirli bilinən oyunçunun matçın sonrakı gedişatında iştirak etməkdən müvəqqəti olaraq məhrum edilməsi

## U

**Undue interference - Əsassız müdaxilə**
Lazımsız hərəkət/davranış

**Unsporting behaviour - Qeyri-idman hərəkəti**
Ədalətsiz hərəkət/davranış; xəbərdarlıqla cəzalandırılır

## V

**Violent conduct - Təcavüzkar davranış**
Oyunçunun topa oynamaq cəhdi olmadan, rəqibə qarşı həddən artıq güc və ya kobudluqdan istifadə etməsi, yaxud hər hansı şəxsin başına və ya üzünə zərbə endirməsi

# Hakim terminləri

**Match officials - Matçın hakimləri**
Matçı təşkil edən assosiasiya və (yaxud) yarış adından matçın idarə edilməsinə məsuliyyət daşıyan şəxs və ya şəxsləri ifadə edən ümumi termin

**Referee - Baş hakim**
Oyun meydanında matçı idarə edən əsas şəxs. Matçın digər hakimləri baş hakimin nəzarəti və göstərişi ilə hərəkət edirlər. Yekun qərarı baş hakim verir

**Other match officials - Matçın digər hakimləri**
On-field match officials - Matçın meydanda olan hakimləri
Baş hakimə kömək etmək üçün digər hakimlər təyin edilə bilər:

- **Assistant referee - Hakimin köməkçisi**
  Xüsusilə "oyundankənar" vəziyyət, qapıdan zərbə, küncdən zərbə, topun yan xətdən oyuna daxil edilməsi ilə bağlı qərarlarda hakimə kömək etmək məqsədi ilə yan xəttin yarısı boyunca mövqe tutan hakim
- **Fourth official - Dördüncü hakim**
  Texniki zonaya nəzarət və ehtiyat oyunçuların idarə edilməsi daxil olmaqla, meydanda və ya meydandan kənarda baş hakimə kömək edən hakim
- **Additional assistant referee (AAR) - Əlavə köməkçi hakim**
  Xüsusilə cərimə meydanının daxilində və ətrafında, həmçinin "qol/qol deyil" vəziyyətlərində baş hakimə kömək etmək məqsədi ilə qapı xəttində mövqe tutan hakim
- **Reserve assistant referee - Ehtiyat köməkçi hakim**
  Vəzifəsini yerinə yetirmək iqtidarında olmayan hakim köməkçisini (yarışın reqlamenti ilə icazə verilirsə, dördüncü hakimi və əlavə köməkçi hakimi) əvəz edəcək hakim

**Video match officials - Matçın video hakimləri**
Video köməkçi hakim və onun köməkçisi "VAR" texnologiyasının iş prosesinə uyğun olaraq baş hakimə kömək edirlər

- **Video Assistant Referee (VAR) - Video Köməkçi Hakim ("VAR")**
  Yalnız video-təkrarına baxılması nəzərdən tutulmuş kateqoriyaya aid edilən aşkar səhv və ya gözdən yayınan ciddi insident ilə bağlı video təkrardan əldə edilən məlumatı bildirməklə baş hakimə kömək etmək üçün təyin edilmiş fəaliyyətdə olan və ya sabiq hakim
- **Assistant video assistant referee - Video köməkçi hakimin köməkçisi ("AVAR")**

  Video köməkçi hakimə ("VAR") kömək etmək üçün təyin edilmiş fəaliyyətdə olan və ya sabiq baş hakim və ya hakim köməkçisi

IFAB

# Hakimlər üçün **Praktiki Təlimatlar**

IFAB

# Giriş

Bu təlimatlarda matçın hakimləri üçün praktiki məsləhətlər nəzərdə tutulmuşdur və onlar Oyun Qaydaları bölməsində müəyyən edilmiş məlumatları tamamlayır.

Hakimlərin, Oyun Qaydaları və "oyunun ruhu" çərçivəsində hərəkət etmələrinə dair müddəa Qayda 5-də öz əksini tapmışdır. Hakimlər, Oyun Qaydalarını tətbiq edərkən, xüsusi ilə matçın keçirilməsi və ya davam etdirilməsi ilə bağlı qərarlar verərkən sağlam düşüncə ilə hərəkət etməli və "oyunun ruhu"nu nəzərə almalıdırlar.

Bu xüsusilə, Qaydaların hər zaman ciddi şəkildə tətbiq edilməsi mümkün olmayan aşağı səviyyəli yarışlar üçün keçərlidir. Məsələn, təhlükəsizlik səbəbi istisna olmaqla, hakim aşağıdakı vəziyyətlərdə oyunu başlamalı və ya davam etdirməlidir:

- bir və ya bir neçə künc bayrağı yoxdursa
- oyun meydanında künc bölməsi, mərkəz dairəsi və s. kimi xətlərdə kiçik qeyri-dəqiqlik mövcuddursa
- qapı dirəkləri və tir ağ rəngdə deyilsə

Bu cür hallarda hakim komandaların razılığı ilə matçı başlamalı və ya davam etdirməlidir və müvafiq instansiyalara raport təqdim etməlidir.

Qeyd:

- HK = hakimin köməkçisi
- ƏKH = əlavə köməkçi hakim

# Mövqe seçimi, Hərəkət və Briqada İşi

1. **Ümumi mövqe seçimi və hərəkət**

   Ən yaxşı mövqe hakimin düzgün qərar qəbul edə bildiyi yerdir. Mövqe seçimi ilə bağlı bütün tövsiyələr komandalar, oyunçular və matçda baş verən hadisələr haqqında toplanan xüsusi məlumatlara əsasən tətbiq edilməlidir.

   Qrafiklərdə mövqe seçiminin tövsiyə edilən əsas variantları təklif edilir. “Zona” dedikdə, hakimin daha effektli şəkildə hərəkət edə biləcəyi mövqe başa düşülür. Zona matçın konkret epizodundan asılı olaraq, böyük, kiçik və ya müxtəlif formaya malik ola bilər.

   **Tövsiyələr:**

   - Oyun baş hakim ilə onun aparıcı köməkçisinin arasında getməlidir
   - Hakimin aparıcı köməkçisi baş hakimin görüntü dairəsində olmalıdır və baş hakim adətən geniş diaqonal sistemdən istifadə etməlidir
   - Hakimin epizoddan kənarda dayanması ona, oyunu və hakimin aparıcı köməkçisini görüntü dairəsində saxlamağa imkan verir
   - Hakim oyuna mane olmamaq şərti ilə, oyunu görmək üçün kifayət qədər yaxın olmalıdır
   - “Görülməli olan epizod” heç də həmişə topun yaxınlığında baş vermir. Baş hakim eyni zamanda diqqət yetirməlidir:

     - topla olmayan oyunçuların aqressiv toqquşmalarına
     - topun istiqamətləndiyi zonada baş verə biləcək pozuntulara
     - ötürmə edildikdən sonra baş verən pozuntulara


Əlavə köməkçi hakim n° 2
Hakimin köməkçisi n° 2
Baş hakim
Hakimin köməkçisi n° 1
Əlavə köməkçi hakim n° 1

**Hakim köməkçilərinin və əlavə köməkçi hakimlərin mövqe seçimi**
Hakimin köməkçisi müdafiə olunan komandanın sonuncudan əvvəlki oyunçusu ilə, yaxud müdafiə olunan komandanın sonuncudan əvvəlki oyunçusundan qapı xəttinə yaxın olan topla bir xətdə olmalıdır. Hakimin köməkçisinin üzü hər zaman, hətta qaçış zamanı oyun meydanına tərəf olmalıdır. Qısa məsafələrdə hərəkət zamanı yan-yana addımlardan istifadə edilməlidir. Bu, xüsusilə “oyundankənar” vəziyyətin müəyyən edilməsi zamanı önəmlidir və hakimin köməkçisinə daha yaxşı görmək imkanı yaradır.

Əlavə köməkçi hakimlər qapı xəttinin arxasında yerləşirlər və “qol/qol deyil” vəziyyətlərində qərar vermək üçün qapı xətti üzərində mövqe tuta bilərlər.



## 2. Mövqe seçimi və briqadanın işi

### Məsləhətləşmə

İntizam sanksiyalarının tətbiqi ilə bağlı situasiyalarda hakimin köməkçisinin baş hakimlə vizual əlaqə yaratması və əl ilə sadə gizli işarələr verməsi kifayətdir. Bilavasitə məsləhətləşmə zərurəti yarandıqda hakimin köməkçisi 2-3 metr oyun meydanına daxil ola bilər. Danışıq zamanı baş hakimin və hakimin köməkçisinin üzü oyun meydanına tərəf olmalıdır ki, onların danışığını digərləri eşitməsin.

### Küncdən zərbə

Küncdən zərbə zamanı hakimin köməkçisi xətt boyunca künc bayrağından arxada mövqe tutmalıdır, lakin o, küncdən zərbəni yerinə yetirən oyunçuya mane olmamalıdır. Hakimin köməkçisi topun künc bölməsinə düzgün yerləşdirilməsinə nəzarət etməlidir.



## Cərimə və Sərbəst Zərbələr

Cərimə və sərbəst zərbələr zamanı hakimin köməkçisi “oyundankənar” vəziyyət xəttinə nəzarət etmək üçün müdafiə olunan komandanın sonuncudan əvvəlki oyunçusu ilə bir xətdə mövqe tutmalıdır. Bununla belə, əgər qapıya tərəf birbaşa zərbə endirilirsə, hakimin köməkçisi yan xətt boyunca künc bayrağı istiqamətində hərəkət edərək topu izləməyə hazır olmalıdır.







(GK)
Qapıçı (GK)
Müdafiəçi
Hücumçu
Baş hakim


(GK)
Qapıçı (GK)
Müdafiəçi
Hücumçu
Baş hakim

**Qolun qeydə alınıb-alınmaması**

Əgər qol vurulubsa və bu qərarda heç bir şübhə yoxdursa, hakimin köməkçisi baş hakimlə vizual əlaqə yaratmalıdır və bayrağı qaldırmadan yan xətt boyunca mərkəz xətti istiqamətində sürətlə 25-30 metr hərəkət etməlidir.

Əgər qol vurulubsa, lakin elə görünür ki, top oyundadır, hakimin köməkçisi baş hakimin diqqətini cəlb etmək üçün ilk növbədə bayrağını qaldırmalıdır, ardınca isə qolun düzgün vuruluğunu təsdiqləmək üçün adi proseduru davam etdirərək yan xətt boyunca mərkəz xətti istiqamətində 25-30 metr sürətlə hərəkət etməlidir.

Top qapı xəttini tam keçmədiyindən oyun öz axarı ilə davam edir, belə ki, qol vurulmamışdır. Hakim öz köməkçisi ilə vizual əlaqə yaratmalı və ehtiyac olarsa, əli ilə gizli işarə verməlidir.



**Qapıdan zərbə**

Hakimin köməkçisi ilk növbədə topun qapı meydanı daxilində olub-olmamasını yoxlamalıdır. Əgər top düzgün qoyulmamışdırsa, hakimin köməkçisi öz yerində qalmalı, hakim ilə vizual əlaqə yaratmalı və bayrağını qaldırmalıdır. Elə ki, top qapı meydanına düzgün qoyulmuşdur, hakimin köməkçisi "oyundankənar" vəziyyət xəttinə nəzarət etmək üçün mövqe tutmalıdır.

Əgər əlavə köməkçi hakim təyin edilmişsə, hakimin köməkçisi "oyundankənar" vəziyyət xətti ilə eyni xətdə mövqe tutmalıdır. Əlavə köməkçi hakim isə qapı xətti ilə qapı meydanının kəsişdiyi nöqtədə mövqe tutmalı və topun cərimə meydanı daxilinə qoyulub-qoyulmamasını yoxlamalıdır. Əgər top düzgün qoyulmayıbsa, əlavə köməkçi hakim bu barədə baş hakimə xəbər verməlidir.



**Qapıçının topu əli ilə ötürməsi**

Hakimin köməkçisi cərimə meydanının xətti üzrə mövqe tutmalı və qapıçının cərimə meydanından kənarda topa toxunmamasına nəzarət etməlidir. Elə ki, qapıçı topu əli ilə atdı, hakimin köməkçisi “oyundankənar” vəziyyət xəttinə nəzarət etmək üçün mövqe tutmalıdır.



**Başlanğıc zərbəsi**

Hakimin köməkçiləri sonuncudan öndəki müdafiəçi ilə eyni xətdə olmalıdırlar.



## 11 metrlik nöqtədən yerinə yetirilən zərbələr

Hakimin bir köməkçisi qapı xətti ilə qapı meydanının kəsişdiyi yerdə mövqe tutmalıdır. Hakimin digər köməkçisi oyunçulara nəzarət etmək üçün mərkəz dairəsində olmalıdır. Əgər əlavə köməkçi hakimlər təyin edilmişsə, onlar qapı xətti ilə qapı meydanının kəsişdiyi yerdə, müvafiq olaraq biri qapının sağ tərəfində, digəri isə qapının sol tərəfində durmalıdır. Lakin QXT istifadə edildiyi təqdirdə yalnız bir əlavə köməkçi hakim tələb olunur. 2-ci əlavə köməkçi hakim və 1-ci hakim köməkçisi mərkəz dairəsi daxilində oyunçulara, 2-ci hakim köməkçisi və dördüncü hakim isə texniki zonalara nəzarət etməlidir.






IFAB

### 11 metrlik zərbə

Hakimin köməkçisi qapı xətti ilə cərimə meydanının kəsişdiyi yerdə mövqe tutmalıdır.




Əgər əlavə köməkçi hakim təyin edilmişsə, o, qapı xətti ilə cərimə meydanının kəsişdiyi yerdə durmalıdır. Hakimin köməkçisi isə 11 metrlik nöqtə ("oyundankənar" vəziyyət xətti) ilə eyni xətdə mövqe tutmalıdır.



**Kütləvi qarşıdurma**
Kütləvi qarşıdurma zamanı hakimin yaxınlıqda olan köməkçisi hakimə kömək etmək üçün oyun meydanına daxil ola bilər. Hakimin digər köməkçisi isə müşahidə aparmalı və insidenti təfsilatı ilə qeyd etməlidir. Dördüncü hakim texniki zonaların yaxınlığında qalmalıdır.

**Tələb olunan məsafə**
Hakimin köməkçisinin yaxınlığında təyin olunan cərimə və sərbəst zərbələr zamanı o, oyunçuların topdan 9.15 m (10 yard) məsafədə olmalarını təmin etmək üçün oyun meydanına daxil ola bilər (adətən baş hakimin tələbi ilə). Bu halda baş hakim oyunu bərpa etməzdən əvvəl hakimin köməkçisinin öz mövqeyini tutmasını gözləməlidir.

**Əvəzetmə**
Əgər dördüncü hakim təyin edilməyibsə, hakimin köməkçisi əvəzetmə proseduruna kömək etmək üçün mərkəz xəttə yaxınlaşmalıdır; Bu halda baş hakim oyunu bərpa etməzdən əvvəl köməkçisinin öz mövqeyini tutmasını gözləməlidir.

Əgər dördüncü hakim təyin edilibsə, hakimin köməkçisinin mərkəz xəttinə yaxınlaşmasına ehtiyac yoxdur, belə ki, əvəzetmə prosedurunu dördüncü hakim yerinə yetirir. Lakin əgər eyni vaxtda bir neçə əvəzetmə edilirsə, hakimin köməkçisi dördüncü hakimə kömək etmək üçün mərkəz xəttinə yaxınlaşmalıdır.



# Bədən Dili, Rabitə və Fit

1. **Baş hakimlər**

   **Bədən dili**

   Bədən dili hakimin istifadə etdiyi vasitədir:

   - matçı idarə etmək üçün
   - nüfuz və özünə nəzarəti nümayiş etdirmək üçün

   Bədən dili qəbul edilən qərarın izahı deyil.

   **İşarələr**

   Bax: Qayda 5 – işarələrin diaqramları

   **Fit**

   Aşağıdakı qərarlar üçün fitdən istifadə edilməlidir:

   - oyunun başlanması (əsas və əlavə vaxtın 1-ci və 2-ci hissəsi), qoldan sonra
   - oyunun saxlanılması:
     - cərimə, sərbəst və ya 11 metrlik zərbə təyin edərkən
     - əgər matç dayandırılır və ya tamamilə bitirilirsə
     - hər bir hissənin sonunda
   - oyunun bərpa edilməsi:
     - cərimə və sərbəst zərbə zamanı müvafiq məsafəyə riayət etmək tələb olunursa
     - 11 metrlik zərbə zamanı
   - aşağıdakı səbəblərdən saxlanıqdan sonra oyunun bərpa edilməsi:
     - xəbərdarlıq və ya qovulma
     - zədə
     - əvəzetmə

   Aşağıdakı qərarlar üçün fitdən istifadə etməyə ehtiyac yoxdur:

   - oyunun saxlanılması üçün aşkar qərarlar:

   - qapıdan zərbə, küncdən zərbə, topun yan xətdən oyuna daxil edilməsi və ya qol
- oyunun aşağıdakı vasitələrlə bərpa edilməsi:
   - əksər cərimə və sərbəst zərbələr, qapıdan zərbə, küncdən zərbə, topun yan xətdən oyuna daxil edilməsi və ya "mübahisəli top"

Ehtiyac olmadıqda fitdən tez-tez istifadə etmək onun effektivliyini aşağı salır.

Əgər hakim oyunun bərpa edilməsindən əvvəl oyunçuların fiti gözləməsini istəyirsə (məs., cərimə və sərbəst zərbələr zamanı oyunçuların 9.15 m məsafəyə çəkilməsi tələb olunduqda) hakim bunu hücum edən komandanın oyunçularına aydın şəkildə bildirməlidir.

Əgər hakim səhvən fit səsləndirir və oyun dayanırsa, oyun "mübahisəli top"la bərpa edilməlidir.

## 2. Hakimin köməkçiləri

### Bip siqnal

Bip işarə yalnız baş hakimin diqqətini cəlb etmək üçün istifadə olunan əlavə sistemdir. Aşağıdakı vəziyyətlərdə bip işarə faydalı ola bilər:

- "oyundankənar" vəziyyət
- qayda pozuntusu (hakimin gözündən yayınan)
- topun yan xətdən oyuna daxil edilməsi, küncdən zərbə, qapıdan zərbə və ya qol (mürəkkəb qərarlar)

### Elektron rabitə sistemi

Elektron rabitə sistemi istifadə edildiyi təqdirdə baş hakim öz köməkçilərinə, fiziki işarə əvəzinə və ya fiziki işarə ilə birlikdə rabitə sistemindən nə vaxt istifadə etməli olduqlarını tövsiyə etməlidir.

### Bayraqdan istifadə texnikası

Hakimin köməkçisinin bayrağı hər zaman baş hakimə görünməlidir və bayrağın parçası tutacağın ətrafına dolaşdırılmamalıdır. Bu, o deməkdir ki, bayraq baş hakimə yaxın olan əldə tutulmalıdır. İşarə verərkən hakimin köməkçisi qaçışını dayandırmalı, üzü oyun meydanına tərəf dayanaraq baş hakimlə vizual əlaqə yaratmalı və bayrağı dəqiq hərəkətlə qaldırmalıdır (həddən artıq tez yox).

Bayraq şərti olaraq əlin davamı olmalıdır. Hakimin köməkçiləri bayrağı növbəti işarəni verəcəkləri əli ilə qaldırmalıdırlar. Əgər vəziyyət dəyişirsə və bayrağı bir əldən digərinə ötürmək lazımdırsa, hakimin köməkçisi bunu bayrağı beldən yuxarı qaldırmamaqla edir. Topun oyundan çıxdığına işarə edərkən baş hakim onun işarəsini görənə qədər hakimin köməkçisi bayrağını aşağı salmır.

Əgər hakimin köməkçisi aqressiv davranışa görə işarə verirsə və baş hakim bunu dərhal görmürsə:

- əgər oyun saxlanılmışsa, matç Qaydalara uyğun olaraq bərpa olunur (cərimə, sərbəst zərbə, 11 metrlik zərbə və s.)
- əgər oyun bərpa olunmuşsa, hakim hələ də intizam sanksiyası tətbiq edə bilər, lakin bu qayda pozuntusuna görə cərimə, sərbəst və ya 11 metrlik zərbə təyin edə bilməz

**Əl-qol işarələri**
Bir qayda olaraq, hakimin köməkçisi əlləri ilə aşkar işarələr verməməlidir. Lakin bəzi vəziyyətlərdə əl ilə gizli işarə hakimə kömək edə bilər. Əl ilə işarə aşkar məna kəsb etməlidir və onların mənası matçöncəsi müşavirədə razılaşdırılmalıdır.

**İşarələr**
Bax: Qayda 6 – işarələrin diaqramları

**Küncdən zərbə/qapıdan zərbə**
Top qapı xəttini tam şəkildə keçdikdə hakimin köməkçisi topun oyundan çıxdığını bildirmək üçün bayrağını sağ əli qaldırır (daha yaxşı görüntü bucağı) və daha sonra əgər:

- top meydanı hakim köməkçisinə yaxın nöqtədən tərk etmişsə – qərarın qapıdan zərbə, yoxsa küncdən zərbə olduğunu göstərir
- top meydanı hakim köməkçisinə uzaq nöqtədən tərk etmişsə – vizual əlaqə yaradır və hakimin qərarını dəstəkləyir

Top qapı xəttini aşkar şəkildə keçdikdə, hakimin köməkçisinin topun oyun meydanını tərk etdiyini bildirmək üçün bayrağını qaldırması tələb olunmur. Əgər qapıdan zərbə və yaxud küncdən zərbə qərarı aşkardırsa, işarə vermək zəruri deyil; xüsusilə hakimin işarə verdiyi hallarda.

**Qayda pozuntuları**
Qayda pozuntusu və ya təcavüzkar davranış bilavasitə hakimin köməkçisinin yaxınlığında baş verərsə, yaxud hakimin gözündən yayınarsa, hakimin köməkçisi bayrağını qaldırmalıdır. Bütün digər vəziyyətlərdə hakimin köməkçisi gözləməli və öz fikrini tələb olunduqda bildirməlidir. Tələb olunarsa, hakimin köməkçisi nəyi gördüyünü, nəyi eşitdiyini və hansı oyunçuların iştirak etdiyini hakimə bildirməlidir.

Qayda pozuntusu haqda işarə verməzdən əvvəl hakimin köməkçisi əmin olmalıdır ki:

- qayda pozuntusu hakimin gözündən yayınıb, yaxud nəsə hakimin görüntü dairəsini bağlayıb
- hakim qayda pozuntusunu görsəydi, "üstünlük prinsipi"ni tətbiq etməzdi

Hakimin köməkçisinin işarəsini tələb edən qayda pozuntusu zamanı hakimin köməkçisi:

- işarə verəcəyi əli ilə bayrağı qaldırmalıdır – beləliklə, cərimə və ya sərbəst zərbənin kimin xeyrinə təyin ediləcəyi hakimə aydın olur
- hakimlə vizual əlaqə yaratmalıdır
- bayrağını yüngülcə yelləməlidir (artıq və aqressiv hərəkətlərdən çəkinməlidir)

Qayda pozuntusuna məruz qalmış komanda üstünlük əldə bilərsə, hakimin köməkçisi oyunu davam etdirmək üçün "gözlə və bax" texnikasını tətbiq etməli və bayrağını qaldırmamalıdır; bu cür epizodlarda hakimin köməkçisinin baş hakimlə vizual əlaqə yaratması çox önəmlidir.

**Cərimə meydanı daxilində qayda pozuntuları**
Cərimə meydanında hakimin gözündən yayınan qayda pozuntusu, xüsusilə də əgər bu, hakimin köməkçisinin yaxınlığında baş verirsə, hakimin köməkçisi baş hakimin harada olduğunu və hansı addımları atacağını müşahidə etmək üçün onunla vizual əlaqə yaratmalıdır. Əgər hakim heç bir addım atmırsa, hakimin köməkçisi bayrağını qaldırmalı və bip işarədən istifadə etməlidir, ardınca isə aydın şəkildə yan xətt boyunca künc bayrağı istiqamətində hərəkət etməlidir.

**Cərimə meydanından kənarda qayda pozuntuları**
Cərimə meydanından kənarda (onun sərhədlərinə yaxın) qayda pozuntusu baş verərsə, hakimin köməkçisi baş hakimin harada olduğunu və hansı addımları atacağını müşahidə etmək üçün onunla vizual əlaqə yaratmalı və lazım gələrsə, bayrağı ilə işarə verməlidir. Əks hücum vəziyyətlərində hakimin köməkçisi qayda pozuntusunun olub-olmadığını, qayda pozuntusunun cərimə meydanının daxilində və ya xaricində baş verdiyini və hansı intizam sanksiyasının tətbiq edilməli olduğunu bildirməlidir. Hakimin köməkçisi, qayda pozuntusunun cərimə meydanından kənarda baş verdiyini bildirmək üçün yan xətt boyunca mərkəz xətti istiqamətində aydın şəkildə hərəkət etməlidir.

**“Qol/qol deyil” vəziyyətləri**
Top qapı xəttini aşkar şəkildə keçərək qapıya daxil olursa, hakimin köməkçisi heç bir əlavə işarə vermədən baş hakimlə vizual əlaqə yaratmalıdır.

Əgər qol vurulubsa, lakin topun xətti keçib-keçməməsi aydın deyilsə, hakimin köməkçisi baş hakimin diqqətini cəlb etmək üçün ilk növbədə bayrağını qaldırmalı və daha sonra qolu təsdiq etməlidir.

**"Oyundankənar" vəziyyət**
“Oyundankənar” vəziyyətin olduğunu bildirmək üçün hakimin köməkçisinin ilk addımı bayrağı qaldırmaqdır (bayrağın sağ əl ilə qaldırılması hakimin köməkçisi üçün daha yaxşı görüntü dairəsi yaradır) və daha sonra əgər hakim oyunu saxlayırsa, hakimin köməkçisi bayraqla qayda pozuntusunun olduğu zonanı göstərir. Əgər hakim bayrağın qalxdığını dərhal görmürsə, hakimin köməkçisi bayrağın baş hakim tərəfindən görülməsinə qədər və ya topun müdafiə olunan komandanın tam nəzarətinə keçməsinə qədər bayrağını aşağı salmamalıdır.

**11 metrlik zərbə**
Əgər topa zərbəyə qədər qapıçı aşkar şəkildə qapı xəttindən irəli hərəkət edirsə və qol vurulmazsa, hakimin köməkçisi bayrağını qaldırmalıdır.

**Əvəzetmə**
Hakimin köməkçisinə əvəzetmə barədə (dördüncü hakim və ya komandanın rəsmi şəxsi tərəfindən) məlumat verildikdən sonra hakimin köməkçisi oyunun

növbəti dəfə saxlanılması zamanı hakimə bu barədə işarə verməlidir.

**Topun yan xətdən oyuna daxil edilməsi**

Top yan xətti tamamilə keçdikdə:

- Top hakimin köməkçisinin yaxınlığında yan xətdən meydanı tərk edirsə, hakimin köməkçisi birbaşa topun hansı istiqamətdə atılmasına işarə verməlidir.
- Top hakimin köməkçisindən uzaq nöqtədə yan xətdən meydanı tərk edirsə və əgər qərar aşkardırsa, hakimin köməkçisi birbaşa topun hansı istiqamətdə atılmasına işarə verməlidir.
- Top hakimin köməkçisindən uzaq nöqtədə yan xətdən meydanı tərk edirsə və köməkçi qərarında şübhəlidirsə, köməkçi hakim topun oyundan çıxdığını bildirmək üçün bayrağını qaldırmalı, hakimlə vizual əlaqə yaratmalı və hakimin işarəsi ilə addım atmalıdır.

### 3. Əlavə köməkçi hakimlər

Əlavə köməkçi hakimlər qərarı baş hakimə bildirmək üçün bayraqdan deyil, radiokommunikasiya sistemindən istifadə edirlər. Radiokommunikasiya sistemi sıradan çıxdığı halda əlavə köməkçi hakimlər qərar verərkən elekton bip-işarə bayrağının çubuğundan istifadə etməlidirlər. Əlavə köməkçi hakimlər adətən aşkar əl-qol işarəsi verməməlidirlər, lakin bəzi hallarda verilən gizli əl işarəsi hakimə əhəmiyyətli şəkildə kömək edə bilər. Əl işarəsi dəqiq məna kəsb etməli və bu cür işarələrin mənası matçöncəsi müşavirədə razılaşdırılmalıdır.

Əlavə köməkçi hakim, topun qapı xəttini tam keçərək qapıya daxil olduğuna əmin olduqda:

- bu barədə dərhal kommunikasiya sistemi vasitəsilə hakimə məlumat verməlidir
- sol qolunu qapı xəttinə perpendikulyar şəkildə tutmaqla meydanın mərkəzini göstərərək dəqiq işarə verməlidir (bayraq çubuğunun sol əldə tutulması tələb olunur). Top qapı xəttini aşkar şəkildə keçdikdə bu işarənin verilməsi tələb olunmur.

Yekun qərarı baş hakim verməlidir.

# Digər tövsiyələr

1. **Üstünlük**

   Hakim qayda pozuntusu baş verərkən üstünlük prinsipini tətbiq edə bilər, lakin üstünlük prinsipinin tətbiq edilməsi və ya oyunun saxlanılması barədə qərar verərkən aşağıdakıları nəzərə almalıdır:

   - qayda pozuntusunun ciddiliyi – əgər qayda pozuntusu qovulmaya layiqdirsə və aşkar qol vurmaq imkanı yoxdursa, hakim oyunu saxlamalı və oyunçunu meydandan qovmalıdır
   - qayda pozuntusunun yeri – pozuntu rəqib komandanın qapısına nə qədər yaxındırsa, üstünlük prinsipi bir o qədər effektli ola bilər
   - dərhal və təhlükəli hücum imkanı
   - matçın ab-havası

2. **Artırılmış vaxt**

   Oyunda çoxsaylı pauzaların yaranması təbiidir (topun yan xətdən oyuna daxil edilməsi, qapıdan zərbə və s.). Vaxt yalnız, pauzalar həddən artıq olduqda arıtırılır.

3. **Rəqibi tutmaq**

   Hakimlər, xüsusilə küncdən zərbə, cərimə və sərbəst zərbələr zamanı cərimə meydanı daxilində rəqibin saxlanılmasına tez müdaxilə etməli və sərt davranmalıdırlar. Bu cür vəziyyətlərdə hakim:

   - topun oyuna daxil edilməsinədək rəqibini tutub saxlayan oyunçuya şifahi xəbərdarlıq etməlidir
   - topun oyuna daxil ediləməsinədək rəqibini tutub saxlamaqda davam edən oyunçuya rəsmi xəbərdarlıq etməlidir
   - əgər bu, top oyuna edildikdən sonra baş verərsə, cərimə zərbəsi və ya 11 metrlik zərbə təyin etməli və oyunçuya xəbərdarlıq etməlidir

## 4. "Oyundankənar" vəziyyət




**“Oyundankənar” vəziyyətdə olan** hücumçu (A), rəqibə mane olmadan topa toxunur. Oyunçu topa toxunduqda hakimin köməkçisi bayrağını qaldırmalıdır.




**“Oyundankənar” vəziyyətdə olan** hücumçu (A), rəqibə mane olmur, topa toxunmur. Topa toxunmadığı üçün oyunçu cəzalandırıla bilməz.




**“Oyundankənar” vəziyyətdə olan** oyunçu (A) topa tərəf qaçır, onun **düzgün mövqedə olan** komanda yoldaşı (B) də həmçinin topa tərəf qaçır və topa oynayır. (A) topa toxunmadığı üçün cəzalandırıla bilməz.




Hakimin fikrincə, əgər **“oyundankənar” vəziyyətdə olan** oyunçu (A)-nın düzgün vəziyyətdə olan heç bir komanda yoldaşının topa oynamaq imkanı yoxdursa, oyunçu (A) topa oynayana, yaxud toxunana qədər cəzalandırıla bilər




**"Oyundankənar" vəziyyətdə olan** hücumçu (1) topa tərəf qaçır, lakin topa **toxunmur**. Hakimin köməkçisi **"qapıdan zərbə"** işarəsi verməlidir.




**"Oyundankənar" vəziyyətdə olan** hücumçu (A) aşkar şəkildə qapıçının görüntü xəttini bağlayır. Oyunçu rəqibin topa oynamasına mane olduğu, yaxud topa oynamaq imkanının qarşısını aldığı üçün cəzalanmalıdır.




**“Oyundankənar” vəziyyətdə olan** hücumçu (A) qapıçının görüntü xəttini **bağlamır** və ya rəqiblə top uğrunda mübarizə aparmır.




**“Oyundankənar” vəziyyətdə olan** hücumçu (A) topa tərəf qaçır, lakin rəqibin topa oynamasına və ya topa oynamaq imkanına mane olmur.
(A) rəqibi (B) ilə top uğrunda **mübarizə aparmır.**




**“Oyundankənar” vəziyyətdə olan** hücumçu (A) topa tərəf qaçaraq, rəqibi (B)-nin topa oynamasına mane olur və yaxud top uğrunda mübarizəyə girərək rəqibin topa oynamaq imkanının qarşısını alır.




Komanda yoldaşının topa sonuncu toxunuşu və ya oynaması zamanı **“oyundankənar” vəziyyətdə olan** hücumçu (B) qapıçı tərəfindən dəf edilən, ondan sıçrayan, yaxud istiqamətini dəyişərək ona düşən **topa oynadığına və ya toxunduğuna** görə cəzalandırılır.




Komanda yoldaşının topa sonuncu toxunuşu və ya oynaması zamanı **“oyundankənar” vəziyyətdə olan** hücumçu (B) müdafiəçi (C) tərəfindən dəf edilən, ondan sıçrayan, yaxud istiqamətini dəyişərək ona düşən **topa oynadığına və ya toxunduğuna** görə cəzalandırılır.




(A)-nın zərbəsindən sonra top qapıçıdan geri qayıdır və düzgün mövqedə olan (B) topa oynayır. **“Oyundankənar” vəziyyətdə olan** oyunçu (C) cəzalandırılmır, belə ki o, topa toxunmadığından, olduğu vəziyyətdən üstünlük qazanmır.




(A)-nın zərbəsindən sonra rəqibdən istiqamətini dəyişərək geri qayıdan top onun komanda yoldaşı (B)-yə düşür. Daha əvvəl **"oyundankənar" vəziyyətdə olan** oyunçu (B) **topa oynadığına və ya toxunduğuna** görə cəzalandırılır.




Hücumçu (C) **"oyundankənar" vəziyyətdədir**, lakin rəqibə mane olmur. (A) topu rəqib qapısına tərəf qaçan, düzgün mövqedə olan komanda yoldaşı (B1)-ə ötürür, (B2) isə topu komanda yoldaşı (C)-yə ötürür. Hücumçu (C), top ona ötürülən anda **düzgün mövqedə olduğundan**, cəzalandırıla bilməz.

5. **Xəbərdarlıq/qovulmadan sonra tibbi müdaxilə/zədənin qiymətləndirilməsi**
Əvvəlki Qaydalara görə, zədələnmiş oyunçuya oyun meydanında tibbi baxış keçirdikdən sonra o, oyunun bərpasına qədər müvəqqəti olaraq meydanı tərk etmək məcburiyyətində idi. Bu ədalətsizlik ola bilər, belə ki, zədəyə səbəb olan rəqib komanda oyun bərpa olunan zaman say üstünlüyünə malik olur.

Əvvəlki tələb ona görə irəli sürülmüşdü ki, oyunçular tez-tez taktiki məqsədlərlə idmançıya yaraşmayan şəkildə zədədən istifadə edirdilər

Bu iki ədalətsizliyi aradan qaldırmaq üçün BFAŞ qərar verdi ki, yalnız rəqib oyunçunun xəbərdarlıq almasına və ya meydandan qovulmasına səbəb olan fiziki qayda pozuntusu edildiyi zaman zədələnmiş oyunçunun zədəsinə tez bir zamanda baxış keçirilə və ya tibbi müdaxilə edilə bilər və həmin oyunçu daha sonra oyun meydanında qala bilər.

Prinsip etibarı ilə, oyunun bərpasının gecikdirilməsi tibbi heyətin zədəyə baxış keçirmək üçün meydanda olduğu müddətlə məhdudlaşdırılmalıdır. Beləliklə, əvvəl hakim tibbi heyətin və oyunçunun meydanı tərk etməsini tələb edirdisə, bundan sonra yalnız tibbi heyət meydanı tərk etməli olacaq, oyunçu isə meydanda qala bilər.

Zədələnmiş oyunçunun oyunun bərpasını gecikdirməməsini təmin etmək üçün tövsiyə edilir ki, hakimlər:

- matçın gedişatından və oyunun bərpasının hər hansı mümkün taktiki səbəbdən gecikdirilməsindən xəbərdar olsunlar
- zədələnmiş oyunçuya bildirməlidir ki, əgər tibbi baxış tələb olunursa, bu, cəld şəkildə həyata keçirilməlidir
- tibbi heyəti çağırmalı (xərəkdaşıyanları deyil) və əgər mümkündürsə, onların cəld olmalarını tələb etməlidir

Hakimin oyunu bərpa etməsi üçün:

- tibbi heyət meydanı tərk edir, oyunçu isə meydanda qalır, yaxud
- oyunçu, zədəyə daha uzunmüddətli baxış/tibbi müdaxilə üçün meydanı tərk edir (xərəkdaşıyanların çağırılması zəruri ola bilər)

Bir qayda olaraq, oyunun bərpası, hər kəs hazır olduqdan sonra 20-25 saniyədən çox gecikdirilə bilməz.

Hakim bu zaman ərzində itirilmiş bütün vaxtı oyunun davamiyyətinə əlavə etməlidir.


IFAB
FIFA

# Qeydlər

# Qeydlər

# Qeydlər

# Qeydlər

# Qeydlər

# Qeydlər

# Qeydlər

# Qeydlər

# Qeydlər

IFAB® THE INTERNATIONAL FOOTBALL ASSOCIATION BOARD








IFAB®
THE
INTERNATIONAL
FOOTBALL
ASSOCIATION
BOARD